ALƏMZƏR ƏLİZADƏ

Seçilmiş əsərləri. I cild

Gəncədə yaşayıb-yaradan Tanınmış şairə-yazar, publisistin müxtəlif kitablarında işıq üzü görmüş seçmə poetik nümunələrdən ibarət yeni elektron rəqəmsa kitabı.

Yeni Yazarlar və Sənətçilər Qurumu ilə www.kitabxana.net – Milli Virtual Kitabxananın rəqəmsal e-nəşri N 55

2011


ALƏMZAR ƏLİZADƏ
FƏLƏK VƏ MƏN

ALƏMZƏR ƏLİZADƏ

FƏLƏK VƏ MƏN

Seçilmiş əsərləri
I cild

Əsgəroğlu-2007

LİRİK ŞEİRLƏR

BAĞLAMA KİTABIMI

Tanrı, yazıbsan bəlkə
Onu bəxt kitabıma?
Könlünün xoş çağında
Yaxşı bax kitabıma.

Bəlkə qarışıb başın?
İşin gücün çox olub.
Bəlkə o ad varağın
Lap küncünə yıxılıb?

Aç kitabı yenidən,
Noola bəxtim gülə, bir...
Küncünü, bucağını
Ələk-vələk elə, bir...

Bilmirəm, mənə bundan
Yaxşı işin olarmı?
Tanrı, gör həmin addan
Orda nişanə varmı?

Qorxuram öz yazdığın
Yayına nəzərindən.
O adın, o istəyin.
Keçəsən üzərindən.

Kim olar mənim kimi
Bu dözümdə, səbirdə.
Bağlama kitabımı,
Aç, Tanrı, yoxla, bir də!

FƏLƏKLƏ MƏN

Fələklə mən əlbir olam,
Sirlərimi ona verəm.
Rahat, gözəl qəbir ola.
Arxayınca ora girəm.

Inkirin-minkirin yolu,
Qiyamətəcən yumula.
Nə yanıma gələ bilə,
Nə də sorğu-sual ola,

Ruhum canımda çərləyə,
Qəbrim üstdə quş olmaya,
Nə şeytanla dostluq edə,
Nə mələyə qoşulmaya.

Gözümün yağını deyil,
İlan içə göz yaşımı.
Dəyə birdən soyuq canı,
Diksindirə baş daşımı.

Ya gec, ya tez, əzəl-axır,
Dərdindən hanı qaçmayan.
Günahım yerin boynuna,
Torpağın qanı qaçmaya.

GÜLLƏM YAN ÖTDÜ

Bu dünyanın işlərinə,
Həm gülərəm, həm ağlaram.
Taleyin gərdişlərinə.
Ürək dolu qəm, ağlaram.

Bəxtlə könül bir qərarlı,
İstəyi, eşqi uyarlı.
Odur Tanrı baxtafarlı,
Mən ki, deyiləm, ağlaram.

Yoxdur külüm, odum altda.
Sevincə bir addım atdım.
Dərdimə tuşladım, atdım
Yan ötdü gülləm, ağlaram.

Hər nəyəmsə, elə buyam.
Eləmirəm o yan-bu yan.
Dayan bəxtim, dayan, dayan...
Arxanca gəlməm, ağlaram.

Oynamıram aynan, ilnən.
Çağırmıram bəmnən, zilnən.
Ürəyimdə şirin dilnən.
Dərdindən ölləm, ağlaram.

HEYRƏTİM ÖLÜB

Bağlanıb yolların, kəsilib sədan.
A dərmanım mənim, a dərdim mənim.
Giley-güzarım yox, heç bir kimsədən.
A ipəyim mənim, a sərtim mənim.

Bilmirəm ay ötüb, yoxsa il ötüb.
Xəyalın gözümdən yox olub, itib.
Surətin qəlbimdə göyərib, bitib.
Barsız-bəhrəsizdir göyərtim mənim.

Tale quşum ha uçdu, ha dirəndi.
Duydu arzu-kamım, aha dirəndi.

İstəyim yoruldu, daha dirəndi.
Çıxmır ürəyimdən göynərtim mənim.

Bir çiçək gözünnən gülə bilərdim.
Bir İçıq üzünnən ölə bilərdim.
Bu dünyaya bir də gələ bilərdim.
Diksinib-oyanmaz heyrətim mənim.

DƏRDİMƏ TUTULMAYACAQ

Ağacın içində boğulub səsi.
Kəsilib göyərən yarpaq nəfəsi.
Ölüb daha çiçəkləmək həvəsi
O, mənim dərdimə tutulmayacaq.

Pozulmamış kəpənəyin naxışı.
Ötürüb üstündən payızı, qışı.
Quruyub qupquru uçmaq alqışı
O, mənim dərdimə tutulmayacaq.

Dupduru çay idi axıb keçibdi.
Könlümdə, istəyi yıxıb keçibdi.
Yüz dəfə, min dəfə ölçüb biçibdir.
O, mənim dərdimə tutulmayacaq.

GÖRK

Qara bulud ağ buluda qarışıb.
Göyün üzü bilinməyir nə rəngdir.
Könlüm, gözüm var olanla barışıb.
Yerə, göyə sığışmayan ürəkdir.

Qaranlıq gecəni başa vurmuşam.
İşıqlı günümü daşa vurmuşam.
Yoxdur yolum niyə üzə durmuşam?
Puç arzular bilməm nəyə gərəkdir.

Göydəki o ulduz mənimki deyil.
Yerdəki bu istək həminki deyil.
Neyləyim, haqq deyən söz iki deyil.
Yerəmi ərkdi bu, göyəmi ərkdi?

Ümidim nə günə, nə də ayadır.
Yazdığım nə surə, nədə ayədir
Bilirəm ürəyim sərt bir qayadır.
Nahaqdan kövrəlməz, yumşalmaz, bərkdir.

Ömrüm-günüm sanki, bir quş yuxusu.
Oyanmaz bəxtimin qara çuxası.
Daha səsim-ünüm hara çıxası.
Tanrı bəndəsinə bu da bir görkdü.

YUXUM

Quruca bir budağın.
İstəyi, yaşıl yuxum.
Sığışmayır qəlbimə
Gözümdən daşır yuxum.

Günəş göydə dayanmır.
Yağsız çırağım yanmır.
Gecə-gündüzü qanmır.
Anlamır naşı yuxum.

Güvəndim haqq adına,
Heç düşmədim yadına

İlğım təndir oduna.
Qovrulub, bişib yuxum.

Könlümə sığal verdim.
Cənnət bağına girdim.
Yenicə gül dərirdim.
Gördüm ki, çaşıb yuxum.

QAYIDIR ÜRƏYİMƏ

Qəlbimin qəm-qüssəsi,
Dağ keçir, aran keçir.
Tanrının möcüzəsi
Murazımdan yan keçir.

İstəyim yetim kimi
Dolanır veyil-veyil.
Sahibi yoxdur onun
Heç kimə gərək deyil.

Bilmir göyə çıxa, o,
Bilmir yerə girə, o,
Qayıdır ürəyimə
Hönkürə-hönkürə o.

QIÇIN SINMASIN KÜLƏK

Əsən, uçan küləyə
Diksinib oyanan nisgilim
Qoşulmaq istədi ona.
Külək qarnını içinə qısdı.
Yan pörtü əsdi.
Böyrümdən, başımdan əsdi.

Əsdi, qəmimdən keçdi.
İstədi havalansın
Tənhalıq nisgilim,
Qoşulsun küləyə, uçsun, uçsun.
O isə dimdiyində
Sahibsiz quş lələklərini
Xəzan yarpaqlarını
Uçurdu belədən belə.
Onları yerə ata bilmədi ki,
Boşalsın, yüngülləşsin.
Götürsün nisgilimi.
Bəs onda niyə oyatdın onu.
Qıçın sınmasın külək.
Qaxılıb oturmursan yerində.
Sahibsiz quş lələklərini,
Xəzan yarpaqlarını
Oynadıb-oynadıb
Sıxırsan divara
Könlümü tənhalığa.

BİR QƏMLİ FİLM

Bəxtimi daşımaq çətin,
Daşıyıb zülm çəkirəm.
Ömrümü yaşamaq çətin.
Yaşayıb ölüm çəkirəm.

Gah su, gah da od olmuşam.
İstəyimə yad olmuşam
Dünyası bərbad olmuşam
Bu da gün, gülüm, çəkirəm.

Eşqin eşqimnən betərmi?
Çağırsam dada yetərmi?
Sonu sonumla bitərmi?
Bir qəmli film çəkirəm.

BELƏ

Mən ki, dərd çəkməyə öyrəncəliyəm,
Çəkim dərdlərini belədən-belə,
Zənn etmə sərsəri, ya ki dəliyəm.
Qorxum yox, qadadan, bəladan belə,

Bəlkə bir günahı yuyası oldum,
Bəlkə bir ürəyi duyası oldum.
Bəlkə bir murazın yiyəsi oldum.
Yolum dirənməsin keçilməz selə.

Şimşək buludlarla cəngdə, döyüşdə...
Qurunun oduna yanar höyüşdə.
İstər beləcə qal, istər dəyiş də...
Məni söylətməynən sən bilə-bilə.

AYRILIQ

Ayrılıq mənə oxşayır
Gündüzü yox, gecəsi yox.
Qəmlər qəlbimə sığınır.
Məndən gözəl hücrəsi yox.

Hər nə bildimsə puç bildim.
Sənsiz dünyanı heç bildim.
Könlümün işi müşküldü,
Dalanı yox, küçəsi yox.

Donumu ayrılıq biçdi,
Əl uzatdım boşa keçdi,
Gələn gəldi, köçən köçdü,
Mənə məndən köçəsim yox.

Yer də quru, göy də quru.
Çıxmır çərximin cınqırı.
Oxlarının ucu qırıq.
Neçəsi var, neçəsi yox.

Tənəm tale qarğamışa,
An vurmuşa gün vurmuşa,
Yerdən, göydən gen durmuşam,
Daha bunun necəsi yox!?..

İZİ İTMƏDİ

Kəsdim fələklə davamı.
Sona yetmədi, yetmədi.
Könlüm istəyən havanı,
Bəxtim ötmədi, ötmədi.

Necə gəzib dolanmışam?
Haqq dünyada yalanmışam...
Bir qismətə bulunmuşam,
Əlim yetmədi, yetmədi.

Ömrümə qəm ələdimi?
Məni mənnən elədimi?
Elədimi, belədimi?
İzi itmədi, itmədi:

DÜNYANIN QARĞIŞI

Öldü...
Daşa, ağaca, gülə,
Dağa, düzə
Nifrətindən öldü.
Dupduru, səpsərin sular
Alışıb, yanan hirsini
Söndürə bilmədi.
Qar ağlığı
Yaz yaşıllığı
Həsəd yolundan döndərə bilmədi onu.
Qəbri çatladı qəzəbindən,
İçinə dünyanın qarğışı doldu.

AC

Vitrinlərdən asılmış,
Rəngbərəng,
Bərbəzəkli hərflərlə yazılmış.
Reklamlı, reklamsız şokoladları,
Şirniləri.
İştahla, həvəslə içinə ötürürdü gözləri.
Gözlərinin aclığı
Bışaq kimi doğrayırdı mədəsini.
Ovulurdu ürəyinin başı.
Boş deyildi gözü,
Gördüyünü, sevdiyini tıxırdı deyə.
Göz yaşları da
Sanki suya dönüb axırdı ağzından
Getsəydi ikinci sinifdə oxuyardı.

Ancaq bu gün küçələrdə veyil-veyil gəzib,
Reklamlı, reklamsız
Şirniləri, şokoladları oxuyurdu,
Əvvəl gözlərinə,
Sonra dünyaya
Qaranlıq çökənəcən gözlədi,
Sübh tezdən işə getmiş,
Dadlı yeməklər, meyvələr şirni, şokoladlar
Hesab etdiyi,
Lakin,
Çörəklə kartof gələn
Atasıyla anasını.
Nə qədər çalışdısa "gözünə" təpişdirdiyi
Şirniləri, şokoladları sıxışdırıb
Kartofa yer eləyə bilmədi.
Bapbalaca, göyərmiş əlləriylə.
Bapbalaca göyərmiş kartofları,
Bir-bir çırpdı, şipşirin xəyallarına.
Yaralandı,
Şil-küt oldu xəyalları.
Yaralı şil-küt xəyalları
Yuxuya gedənədək.
Çəkilmədi beynindən,
Getmədi gözlərindən.
Durdu qəsdinə.
Göz qapaqlarını güclə endirdi.
Şirnilərin, şokoladların üstünə.

DEYİLƏM

Bu dünyada mən nə çoxa
Nə də ki, aza qailəm.
Ürəyim gah daş, gah yuxa,
Ölməyə hazır deyiləm.

Addımlamır yalanlarım,
Neynəyim sən olamırram.
Tükənirəm, talanıram,
Bilirəm cüzi deyiləm.

Zaman ömrümü yanıyır,
Ağıma qara yamayır,
Tanıyan yaxşı tanıyır,
Heç kimin izi deyiləm.

Murazımın tərifi yox.
İstəyimin tərəfi yox.
Daha dünənki keyfim yox,
Məhəmməd qızı deyiləm.

TƏK SÖYÜD.

Bir söyüdəm göyərmişəm.
Bir bulağın başında mən.
Saçımı salxım hörmüşəm,
Yazında mən, qışında mən.

Yaşıllıq nəğməsi ötür.
Bulaq-istəyim dayanmır.
Əlim köpüyünə yetir.
Axır, dönüb məni anmır.

Nəğməsi barlı-bəhərli.
Yeni həvəslər göyərdir.
Qalmışam qəmli-qəhərli.
Bacarsam qara geyərdim.

Yorulmuram gecə-gündüz,
Bulağımı qoruyuram.
O, qurusa hamıdan tez
Mən ölərəm, quruyaram.

QIRIQ NEY

Sanki qırıq bir neyəm.
Ötürəm axşam səhər,
Günümü sağa-sola,
Yozuduram bir təhər.

O dünya rahatlıqdı.
Bəlkə də köçə billəm.
Ürəyim dörd dənədir,*
Birindən keçə billəm.

TAPŞIR MƏNİ A TANRI

O qəlbə, o könülə.
Bu qədər ki, yaxınam.
Hara gedirəm belə,
Mən ağına-ağına.

Titrəyir, donur ömrüm,
Kəsilməyir hənirim.
Tapşır məni a Tanrım,
Tapşır qar ağlığına

* üç övladıma vəözümə işarədir

Gör çoxumu, azımı,
Tale məndən razımı?
Gen gəzən murazımın,
Girmədim qılığına.

Yatmır aləmlə gecəm.
Sovuşur qəmlə gecəm.
Bilməzsən sübhüm necə
Açılır sağlığına.

KÖNLÜM

Halından çıxmışdı gördüm könlümü.
Onu kim kiritsin, bəs kim ovutsun?
Dəli bir küləyə verdim könlümü.
Hara istəyirsə atsın, dağıtsın.

Yalvarım, yapışım dağa, dərəyə.
Könlümün tikəsi gəlməsin ələ.
Ya dərddən çürüyər, ya da əriyər.
Təki adam kimi ölməsin elə.

Yoxsa könlüm mənə dərd olacaqdır.
Çarpışsın, vuruşsun dalğalar ilə.
Bəlkə də sularda qərq olacaqdır,
Təki adam kimi ölməsin elə.

Çırpılsın tikana, ilişsin kola.
Çətin, mənim ona yazığım gələ.
Razıyam, axırı nə ola-ola,
Təki adam kimi ölməsin elə.

LƏLƏK SALMAYACAM

Qəlbimin ahəngi oyuna yatmır,
Çalınan havalar heçdir, əbəsdir.

Günahım cəzamın boyuna çatmır.
Daha cütüm də nəhs, təkim də nəhsdir.

Danıb-danılmağa yerim-göyüm yox.
Lələk salmayacam düzə, dərəyə.
Bu yolu getməyə daha heyim yox.
Dönüb qayıdıram üzü bəriyə.

Yönüm işıqlanan dan üzü deyil,
Nə yığvalım yeyin, ötə quyudan.
Adım İsgəndərin buynuzu deyil.
Qarğı qamışlarda bitə quyudan.

MƏNİ DƏ DİNLƏ

Sayı yox sənlə danışanların.
A dağlar, məni də dinlə, nə olar?
Açılsın güllərin, ərisin qarın.
Dərdləşim, sözləşim sənlə, nə olar?

Elə özüm boyda gətirmişəm qəm.
Sirrimi özgəyə açası deyləm.
Tanrının töhfəsi, bircəsi deyləm
Qarşıla dumanla, çənlə nə olar?

Özüm günahkaram, özüm, bilirəm.
Səndən bir məsləhət lazım bilirəm.
Yüz dəfə, min dəfə onsuz ölürəm,
Barışım de, hansı yönlə, nə olar?

YARIMÇIQ KÖLGƏM

Yüyən tanımayan vəhşi ilxıdı,
Çapdı duyğularım daşa, qayaya.

Mən onunla, o mənimlə yox idi.
Biri-birimizi salmadıq saya.

Bir ota saraldım, soldum bir gülə.
Ot da göyərəcək, gül də açacaq.
Əridim, qurtardım, qaldım bir gilə,
Bu gilə başıma oyun açacaq.

Bu gilə gözümdən düşəsi deyil.
Qoşulsun yellərə, çatsın buluda
Göynəmək eşqimin peşəsi deyil,
İstər zəhər uda, istər bal uda.

Ruhum yuxusundan oyansa haçan
Gecəni-gündüzü görərəm bəlkə...
Yüyürüb çatmasam mən arxasınca.
Uzanar dünyaya yarımçıq kölgəm.

BİR GÖZƏLİN ŞEİRİ

Ələ gəlməyən gözəlin
Bəxti yaman ağır olur.
Hökm dili, xahiş dili,
İşə keçmir yağır olur.

Qapıların çöl üzüdür,
Dostu, yoldaşı, həmdəmi,
Sevincinə əl uzadır.
Əzabı, kədəri, qəmi.

Sarsılmaz polad vüqarı,
Ürəyi sınıb ərindən.
Könül varı, sevgi varı,
Qovrulub yanıb ərindən.

Ərinin “gözəli” ayrı
Yanında söz tutmur dili.
Buna çatanda danışır,
Şillə-şapalaqla əli.

İyrənc baxışla yeyilən,
Gözəlin bəxtinə söymə.
Gözü dəhşətə döyülən,
Tanrı bu gözələ dəymə.

GÖZƏL ÖLÜM

Baxmırdım ağına, bozuna,
Fikir vermirdim
Qışına, yazına,
Yaşayırdım həyatımı.
Ləpəsiz, dalğasız dəniz idim,
Canlısıynan, cansızıynan
Nə işim vardı.
Özüm-özümün arzusuydum,
İstəyiydim.
Ölüm məndən ötrü ölüm–
Dəhşət idi.
Bir gün həyatıma

Sel kimi gəldin,
Tufan kimi qopdun.
Günümə anıma hopdun.
Sakit dəniz
Dalğalandı, ləpələndi.
Coşdu, daşdı.
Bulandı, saflaşdı.
Tərtəmiz oldu.
Bütün canlılar, cansızlar.
Mənə çox əziz oldu.

Eh!... Nə etdin bir gün.
Sel kimi getdin.
Tufan kimi yatdın
Sən demə ölüm də
Bax beləcə
Gözəl olarmış?

KƏSİLİB

Ürəyimdə ona ümid bəslədim.
İndi o da bizə qənim kəsilib.

Fikrini yoxladım, anladım, duydum,
Dəyişilib təzə qənim kəsilib.

Nahaqdan gizlənir, haqqdan gizlənir.
Görsətmir, qaş-gözə qənim kəsilib.

Çıxmaram yollara tənhayam, təkəm.
Bu yola, bu izə qənim kəsilib.

Axşamım, səhərim sovuşur hədər.
Gecəyə, gündüzə qənim kəsilib.

Aləmzər, istəyin nə qəribədir,
Bir qəfil möcüzə qənim kəsilib.

BEHƏM HƏLƏ

Bu dünyanın hər üzünə,
Addımbaşı “eh”əm hələ.
Gecəsinə, gündüzünə,
Qurtarmayıb şübhəm hələ.
Kimsə məndən inciməyə,
Gəldim sevgimi deməyə.
Dərd çəkməyə, qəm yeməyə,
Pis deyil işdaham hələ.

Əl yetməzə vurulmuşam,
Ömrə cəza verilmişəm.
Mənə-dili qurumuşa.
Yox çarə, yox məlhəm hələ.
Ürək buz dona, qar yağa,
Dəyişmərəm solu-sağa.
İstəyimi boğa-boğa
Könlümə allaham hələ.
Nə görmüşəm nə görəcəm.
Nə almışam nə verəcəm.
Qazanacam, itirəcəm.
Bu dünyaya behəm, hələ.

HƏLƏ BİLMİRƏM

Getmir xəyalımdan o an, o gözlər.
O necə baxışdı, bilə bilmirəm.
Qarışdı qəlbimdə dərələr, düzlər,
O gündən, özümə gələ bilmirəm.

Bir dostdan, yoldaşdan gizli sirrim yox.
Qəmə baş əymərəm, dərdi-sərim yox.
Necə olub bundan heç xəbərim yox.
Danışa bilmirəm, gülə bilmirəm.

O, sevgi, məhəbbət xalısı hörsə,
Məni eşq mələyi donunda görsə.
Bir xəbər göndərsə, işarə versə
Çevrilim tikana, gülə bilmirəm.

Könlümü bəzədi ruhum bu işdə,
Naşıdı, təzədi, ruhum bu işdə,.
Düşər cəhənnəmə ya da behiştə
Darıxma Aləmzər, hələ bilmirəm.

İTİRMƏRƏM

Mən bilirəm əyri nədir, düz nədir.
Mən bilirəm astar nədir, üz nədir.
Varlığımı o kəs duyub sezmədi,
Havayıyam, havayıyam, havayı.

Könlüm göydən bir də günəş dərəmməz.
Gözüm çiçəklərin gözünü görməz.
Yetmir köməyimə o ulu hümrüz.
Ömrün, günün gedib daha hay-hayı.

Öyrənmədim düz yolu, səhv keçməyi.
Sonum çatsa itirmərəm heç nəyi.
Bu dünyadan götürmərəm heç nəyi,
Özüm ilə nisgilimdən savayı.

YAŞADIR DÜNYANI...

Gətirib dünyaya bizi,
Adəm oğlu, Həvva qızı,
Yerin nazı, göyün nazı.
Dağ çəkdirir sinəmizə.
Ay dəyişdi, il dəyişdi,
Dilənçi kökünə düşdük.

Alqışlarla yalan şişdi.
Almayaqmı eynimizə?
Çəkdiyimiz “of” nə “Ah” nə?
Ovulub tökülür təhnə,
Həyat donu təzə, köhnə,
Geyməliyik əynimizə.
Təndir dolu kütlər, cadlar.
Ürək dözməz, ürək çatlar,
Yasaq edir sədlər, hədlər,
Onu bizə, bunu bizə,

Yola gəlir, gah sapırıq.
Xeyir də, şər də tapırıq.
Nur tək, zülmət tək hopuruq.
Ayımıza, günümüzə.
Yaşayırıq ölə-ölə.
Çətin bir də tale gülə.
Nə çıxıb ki, indən belə.
Nə çıxacaq önümüzə.
Bir işarə him qanmayan.
Fələyin ağzı yanmaya.
Düz fırlanıb, tərs oynayan
Yaşadır dünyanı bizə.

BİLMİRƏM

Bir az yuxu var gözümdə,
Yatıb qurtara bilmirəm.
Batıram özüm-özümdə,
Batıb qurtara bilmirəm.

Taleyim Tanrı diktəsi,
Zülmətdə işıq nöqtəsi.
Tək bir şivəm ki, bitəsi,
Bitib qurtara bilmirəm

Həm bitirəm, həm yatıram.
Qəlbimdə qəm oyadıram
Səni könlümdən atıram,
Atıb qurtara bilmirəm.

SON MƏRASİM

Nəfəs verib, nəfəs almaq,
Elə işim budur mənim.
Çırpınıram, təntiyirəm,
Havasızlıq udur məni.

Əjdahamı ömrüm-günüm,
Kamınamı çəkir məni?!
Eşidilmir hıçqırığım,
Canımamı çökür mənim?!

Içimdə bir mərasim var...
Adımı qara yel silər!
Damarımda axan qanım-
Qırmızı lentim kəsilər!..

SƏN İSTƏYƏN

Ora döndüm, bura döndüm,
Necə döndüm, hara döndüm?
Sən gedəndən sonra döndüm,
Sən istəyən yara döndüm.

Bu sirdirsə, açmağım yox!
Tale əmri, qaçmağım yox!
Göyə qalxıb, uçmağım yox.
Oldum dərdə çarə, döndüm,

Sən gedəndən sonra döndüm,
Sən istəyən yara döndüm.
Dünyada hər şey olarmış,
Yerin, göyün kökü varmış.

Bircə günün hökmü varmış,
Bu dünənim, bu da indim.
Sən gedəndən sonra döndüm,
Sən istəyən yara döndüm.
Dönəcəkdim, dönəmmirdim,

Dinəcəkdim, dinəmmirdim.
Öz-özümü yenəmmirdim
Sən gedəndən sonra yendim,
Sən istəyən yara döndüm.
Sən istəyən yara döndüm.

TARAZLAŞMIR DÜNYAM MƏNIM

Yaman əyilmişdi dünyam,
Az qalmışdı, yıxılırdım.
Təpər tapmırdım özümdə,
Boğulurdum, sıxılırdım...

Qəlbimə hardan girmişdin?
Könlümə necə dolmuşdun?
Bir udum havam olmuşdun,
Bir əlçim yuxum olmuşdun.

Gözünün uzun-uzadı,
Yol çəkməyi varmış demə.
Mən sənsiz, sən onsuzsanmış,
Həyat bizə darmış demə.

Yanımda yerin boşaldı,
O yan mənim, bu yan mənim.
Yenə sən tərəf əyilir,
Tarazlaşmır dünyam mənim.

SALMA MƏNI BU SEVDAYA

Nahaq gəldim bu dünyaya, İlahi,
Bağışlanım günə, aya, İlahi!
Keçilməzdir, sərtdir qayam, İlahi,
Salma məni bu sevdaya, İlahi!

Nadan deyən, naqis deyən söz diri,
Əprimişlər adladılar yüzbiri.
Ölüb- itən ürəyimə üz verib,
Salma məni bu sevdaya, İlahi!

Qaranquş dimdiyi yarıdır çöpü,
Itkin taleyimi mən hardan tapım?
Yüz dəfə, min dəfə kölgəni öpüm,
Salma məni bu sevdaya, İlahi!

Qorxum yoxdur gün-gün, an-an ələnəm.
Elə bu dəm xoşbəxtliyə bələnəm.
Bilirsən ki, sən öl desən ölənəm
Salma məni bu sevdaya Ilahi:

QINAMIRAM

Mən qurduğum hana haqqdı,
Sözüm ondan yana haqqdı.
Min yol dinsəm, yenə haqqdı,
Dinəmmirəm.

Könlümə gül naxışlaram,
Haqqa çatır alqışlarım.
Düzə dönür yoxuşlarım,
Enəmmirəm

Qəlb istəyi, dil əzbəri,
Xoş hisslərin üzü bəri.
Qışı gedib, yazı bəri,
Inanmıram

Ürəyin buzu əridi,
Qanı gör necə durudu?
Tanrım da belə Tanrıdı,
Qınamıram

BU ISTƏK

Səni ki, arzuna çatdırmayacam,
Niyə tələsirəm görüşünə bəs?
Köksümdə istəyi yatırmayacam,
Taleyin oyunu bitməz, tükənməz

Istək var insanı qaldırır göyə,
Istək var önündə min dəfə əyil.
Bəs niyə gedirəm görüşə niyə?
Bu istək özümdən baha ki, deyil?..

ÖMRÜN SONUNADƏK

Mən ona xəyanət etmək istədim,
Qayıtdım bu yoldan, qayıtdım ancaq.
Narahat ürəyim tikan üstədi,
Ordan elə bil ki, qan fışqıracaq.

Görən o bu ahı duya bildimi?
Göz yaşım günahı yuya bildimi?
O xəyal bir anmı, günmü, ildimi?
Ömrün sonunadək hey qışqıracaq.

İŞLƏYİR

Gecədir... Hamı yatıb,
Saat üçə işləyir.
Bomboş ürəyim tıp-tıp
Vurur, heçə işləyir.

Zülməti boğa-boğa,
Ay düşür bağça-bağa.
Sübhə pardaqlamağa
Hər bir qönçə işəyir.

Ipək qanadlı külək,
Mülayim atlı külək.
Yarpaqla, otla külək,
Incə- incə işləyir.

Nə yer dayanır nə göy,
Gör bir necə işləyir
Dan üzünü açmağa
Bütün gecə işləyir.

A DƏNİZİM

Nəğməmizi oxumuruq haçandı,
A dənizim, sahilində qalmışam.
Unutqanlıq başa oyun açandı,
Mən ki, səni hey yadıma salmışam,

A dənizim, nəğmələrin yarımçıq,
Hər ləpəni səsləyərəm, güdərəm.
Ləpələrin arasından, yarım, çıx,
Yoxsa küsər, inciyərəm, gedərəm.

Oxuma nəğməni, oxuma, getdim,
Qalsın nəğmən dodağında sıxılmış.
Sahilində ürəyimi ləngitdin,
A nəğmənin dalğasından yıxılmış!

YOZULMARAM

Bircə Tanriya agaham,
Tükənibdir “sonram”, “daham”.
Ürəyə çəkilən aham,
Bilinmərəm, sezilmərəm.

Dərd aparan, qəm daşıyan,
Bəxtimin səbr daşıyam.

Taleyin acı yaşıyam,
Gözlərimdən süzülmərəm.

Bu bağçanın qarğası çox,
Urvatlının urvası yox.
Şah könlümün darğası yox,
Cərgələrə düzülmərəm.

Dünyanın nırxı deyiləm,
Fələyin çarxı deyiləm.
Gerçəyəm, yuxu deyiləm,
Heç bir yönə yozulmaram.

DÜNYA ŞEYTAN DÜNYASIDI

Göyümün üzü bozarıb,
Bircə damcı ağı yoxdur.
Günəş çıxan yer qızarıb,
Şəfəqlərdən tağı yoxdur.

Nə vaxt istəyirsə kefi,
Olum Tanrının kəlifi.
Dolaşıb ağlın kələfi,
Daha açılmağı yoxdur!?

Ömrüm- günüm göy əysidir,
Yer asidir, göy asidir.
Dünya şeytan dünyasıdır,
Solu yoxdur, sağı yoxdur.

BƏLKƏ ÖZÜM...

Bir yaxşılıq eləməyə tələsdim,
Yolum üstdə naqislərə tuş oldum,

Əməlimlə taleyimə bəs idim,
Getdim, məndə nadanlara qoşuldum.

Ürək varsa, gərək dözüm tapım mən,
Qismətimi harda gəzim, tapım mən?!
Çalışıram bu günümdən qopum mən,
Bəlkə özüm bəxt paylayan quş oldum.

SEVGİ DUALARIM QƏBUL OLUNMUR

De, niyə başladı bu dəli oyun?
Gündüzüm qaranlıq, görünmür boyun.
Xəbərin varmı ki, a bəxti yeyin,
Sevgi dualarım qəbul olunmur?!

Açılan güllərin yoxdur qoxusu,
Dilimin ucunda donur axısı.
Ürəyim hövl edib yırtsa yaxasın,
Sevgi dualarım qəbul olunmur.

Hər tərəfdən kəsilibdir əlacım,
Bəs kimə yalvarım, kimə dil açım?
Yüz cür çiçəkləyim, yüz cür gül açım,
Sevgi dualarım qəbul olunmur.

Heç bilmirəm günahım nə, suçum nə?
Eşq Allahı məni almır vecinə.
Yoxsa elə sınayır o, gücünü?
Sevgi dualarım qəbul olunmur.

SƏNLİ ÜMİDİM

Sənli ümidim yolunu
Yanılıb gör neçə kərə.
Sənli ümidim qayıdıb
Gələndə çırpıldı yerə.

Sənli ümidim əzilib,
Sinəsinə dərd düzülüb.
Didəsinə qan sızılıb,
Işığı yox məni görə.

Sənli ümidim inləyər,
Dərdimə dərd düyünləyər.
Nə dirçələr, nə də ölər,
Yaşayar can verə-verə.

DƏNSİZ DƏYİRMANDI BEYNİM

Dənsiz dəyirmandı beynim,
Boş-boşuna hərlənir daş.
Neynim, aman, aman, neynim?..
Gurultuya dözməyir baş.
Suyu boldur dəryalar tək,
Daşı hələ hərlədəcək.
Axır məni çərlədəcək,
Dəyirmandan çıxaydım kaş!

ADAM BAŞINA İŞ GƏLƏR

Səni sevindirə bilsəm,
Qəlbini dindirə bilsəm,
Göylərdən endirə bilsəm,
Boyum—boyuna tuş gələr

Hər mətləbi, mənanı sən,
Vallah, özün bilməlisən.
Sevgidən qorxan dəlisən
Adam başına iş gələr.

MİN EŞQ İLƏ...

Min eşq ilə misraları bəzədim,
Sözü-sözə, fikri-fikrə közədim.
Kim deyəcək yazdıqlarım gözəldi?
Ömrüm getməyəcək hədər, ay hədər.

Bu gündən sabaha etibarım yox,
Qəlbimdə boğulur istəyim hər vaxt,
Sən yerlərdə, sən göyərdə hökmə bax!
Uşağa qoşulub oynayır kədər.

***

Biz ki, bir olmağı istəməmişdik,
Niyə taleyimiz birləşdi, niyə?
Buz ki, özümüzü qurban demişdik,
Dərdimiz, qəmimiz gurlaşdı, niyə?

Iki dağ uçqunu olacaq indi,
Günahı axtarmaq daha, gecdi, gec...
Sovuşub, aradan çıxmaq çətindi,
Ilahi, sən mənim günahımdan keç.

BU HAVA SƏNIN DEYIL

Bu hava sənin deyil,
Bu havaya oynama.
Bacarmazsan, onu bil,
Sən havayı oynama.

Tutmazsan hər ahəngi.
Sümüyünə düşməz ki,
Sənin elədiyin rəqs,
Bu məclisdə keçməz ki.

Yalandan gülümsəyib,
Hamı sənə əl çalar.
Öz havası olmayan
Addımbaşı alçalar.

Çalana, çağırana,
Sən baxma, fikir vermə!
Bu hava sənin deyil,
Sən bu oyuna girmə!

ALƏMZƏRİN BƏXTİ

Bu tale nə olan şeydi?
Gizlənir, harda gizlənir?
Mənim dilimdə çürüyür,
Səninkində əzizlənir.

Mən bəxtimi tanımıram,
Mən bəxtimi yanımıram.
Fəndini oyun sanmıram,
Öz-özünə çözələnir.

Qəm anası yaranmışam,
Durunmuşam, arınmışam.
Bax, beləcə qarımışam...
Fikrim, xəyalım üzlənir.

Yoxdur ömrümün cənnəti,
Haqqdan keçəmmərəm qəti.
Hər an Aləmzərin bəxti
Yan-yörəsində nazlanır.

MƏN SƏNİ İTİRƏ BİLLƏM

Istəyində fağırlığın,
Dərd gətirir yığın-yığın.
Yerin-göyün ağırlığı-
Günahı götürə billəm,
Mən səni itirə billəm.

Ağlın gah çaşır, gah azır,
Mələklər çiynində yazır.
Yaxşı nə var, halal, hazır-
Olanı xatirə billəm,
Mən səni itirə billəm.

Qəlbin qəlbimlə çəpləşən,
“Hə”ləri “yox”la ötüşən,
Taledən bəxtimə düşən.
Qisməti ötürə billəm,
Mən səni itirə billəm.

Ay ilim, ayım döyənim,
Yoxmu ağlının yüyəni?
Bir dəfə də mən deyəni
Yerinə yetirə billəm.
Mən səni itirə billəm.

TAPMIRAM

Xatirələr ağrı çəkir,
Dilim demir:-Tanrı şükür.
Inama yönələn fikir
Hey sozalır, gur tapmıram.

Boğuluram, havam çatmır,
Yerdən göyə savab çatmır.
Bütlər ürəyimə yatmır,
Üz tutmağa pir tapmıram.

Ürək kövrək, zaman zalım...
Bəs neyləyim, qadan alım?
Hər şey aşkar, hər şey məlum.
Saxlamağa sirr tapmıram.

Əlim boşluqlara varıb,
Göylərə nahaq yalvarıb.
Dünyanın küncü qurtarıb,
Özümə bir yer tapmıram.

BAĞIŞLANDIQ

Qıl körpü, qır qazanı var,
Bunun da bir yazanı var.
Yoldan çıxıb, azanı var.
Nə düşündük, bəs nə andıq?

Ayrı fikrin yoxdursa, gəl,
Istəyin lap çoxdursa, gəl.
Eşqin yarımçıqsa, əngəl.
Bütövdürsə, bağışlandıq.

YAXŞI Kİ...

Yaxşı ki, əlimi üzmədim səndən,
Yaxşı ki, ümidim haçalanmadı,
Yaxşı ki, seyr etdim hər şeyi gendən,
Yaxşı ki, ürəyim parçalanmadı.

Onun ki, heç nəylə ovunmağı yox,
Düzünə döyünür, solu, sağı yox.
Mənə ondan betər qeyri yağı yox.
Bəmə enib, zilə ucalammadı.

Təbiət donunu dəyişə bilər,
Duman zirvələrlə əyişə bilər.
Qəlbimin köynəyi bircə dənədir,
Ağrısı, göynəyi bircə dənədir.

DANIŞIRAM ADIMDAN

Nə məndən küs, nə inci,
Hamı çıxıb yadımdan.
Çoxdandır ki, sevincin
Tamı çıxıb yadımdan.

Güc yox inandırmağa,
Nadanı qandırmağa ,
Bir şamı yandırmağa
Od qalmayıb odumdan.

Günüm əlimdə soldu,
Bu dünyam heyif oldu.
Dözmədim, gözüm doldu,
Qan damdı buludumdan.

Bura kimi gəlmişəm,
Bunu da iş bilmişəm?!
Daha yoxam, ölmüşəm,
Danışıram adımdan.

SON ÇİÇƏK

Bu son çiçək çağrışının
Payız açışına qurban.
Alqışının, qarğışının
Yalqız açışına qurban.

Ürkək-ürkək ləçəklərin
Kövrək ürək ləçəklərin,
Meh əsəntək ləçəklərin
Asta uçuşuna qurban

Həzin dinən tumurcuğun,
Dərdə qənim tumurcuğun,
Qəlbim mənim tumurcuğun
Işıq saçışına qurban.

GÜNLƏRİ NECƏ YAŞADIM

Günləri necə yaşadım?
Çox düşündüm, çox daşındım.
Eh, başıma nə daş, indi,
Nə də güllər səpiləsi.
Dünyanın axırı çıxıb,
Üzünə paxırı çıxıb.
Yaşayaram,
Dişimi dişimə sıxıb,
Bir üz varsa öpüləsi.

LAZIMMI İNDİ

Allahın yadından çıxmış bəndəyəm,
Bəs necə bildirim özümü indi?
Xəbəri varmı ki, mən nə göndəyəm,
Görsə tanıyarmı üzümü indi?

Özüm öz başıma, öz ağlımayam,
Mən həm qaralama, həm ağlamayam.
Heç fikir çəkməyim, heç ağlamayım?
Itib xəyalımın düzümü indi.

Qaranlıqda çaşıb, yol - izi azıb,
Görünmür bəxtimin ulduzu azıb.
Hər günüm dərd, kədər, hər gecəm əzab,
Yuxumu tərsinə yozummu indi?

Axar su üstünə getdim qurudu,
Körpə fidan idim, bitdim, qurudum.
Dilim bir istəkdən ötdü, qurudu.
Bu tale, bu ömür lazımmı indi?

BİR GÜN ÖLDÜM

Göyə qalxmışdım bu gecə,
Allahın xoşuna gəlmədim.
Yerdəki bəndənin necə,
Fikrini bilə bilmədim?!

Balamın, quşların səsi
Ürəyimi sıxdı o gün .
Torpağın, daşın nəfəsi,
Yaddaşımdan çıxdı o gün.

Göylərdə məskən tapmışdım,
Yerə enmək istəmirdim.

Ulduza, aya yapışdım,
Mən özümə mən demirdim.

Künc ayırıb saxlamadı,
Nə yer məni, nə göy məni.
O gün öldüm, ağlamadı,
Nə yer məni, nə göy məni.

AÇIQ İDİ QAPIM

Açıq idi qapım.
Icazəsiz, təklifsiz
İçəri soxulmuşdu gün.
Qapımın astanasınaca
Yıxılmışdı gün.
Yolun qapımdan keçirdi.
Özün yox,
Kölgən içəri girdi.
Nə qapımı örtülməyə qoydu,
Nədə qıydı,
Həsrətli,
Nəmli günümü ayaqlamağa.

HARDAN BİLDİN?

Hardan bildin ki, ölmüşəm?
Hardan bildin qəbirdəyəm?
Hardan bildin ki, gəlmişəm?
Hardan bildin ki, burdayam?
Istəyi ölçmək olarmı?
Necə ölçdün, necə bildin?
Ölümü keçmək olarmı?
Necə keçdin, necə gəldin?

QƏLBİM QABAĞIMA YÜYÜRƏCƏKMI...

Ilahi, qəlbimi o görəcəkmi?
Ilahi, səsimə səs verəcəkmi?
Bəlkə də taleyin tutuldu üzü,
Dünyamı dağıdıb, devirəcəkmi?
Bəlkə də xoş gündə yaranmışam mən,
Bəxtimi istəyə çevirəcəkmi?

Nə var aydınlaşsın, bilsin ürəyim,
Əzablı günlərim çox sürəcəkmi?
Şadlıq payalamalı olarsam bir gün,
Səsim bu dünyanı bürüyəcəkmi?
Sevincə sevinən, dərdə ağlayan,
Qəlbim qabağıma yüyürəcəkmi?

GƏL, SƏN DƏ INCIMƏ...

Özümün özümdən xoşum gəlmədi,
Niyə cavabını verə bilmədim?
Neylədim, ay aman, gör, bir neylədim?
Kəsərli sözlərim düşdü kəsərdən.

Keçilməz sədləri aşardım bir vaxt,
Bir sözdən inciyib coşardım bir vaxt.
Özümdən çox razı yaşardım bir vaxt,
Nə yaman düşmüşəm indi nəzərdən.

Bir şey çıxmayacaq giley-güzardan,
Əlac satılmır ki, alım bazardan.
Böyük tonqal çatım kiçik bir qordan.
Gəl sən də incimə bu Aləmzərdən.

ƏHD ELƏDİM

Əhd eləyib bir dən atdım,
Çıxmadı səs-səmir, Tanrı.
Gecə yatdım, gündüz yatdım,
Almadım bir çimir, Tanrı.

Iz salıram, kol-kos qırıb,
Könlümün xoş dəmi, Tanrı.
Başımın üstündə qürub,
Hanı yolun çəmi, Tanrı?

Ürəyim qəm çırpımında
Məndən sevinc umur Tanrı.
Yox olum gözqırpımında,
Gözləyirəm əmr, Tanrı!

BIR ÜRƏK TUTUMU

Gecələr gündüzə açılan kimi,
Iki gül üz-üzə açılan kimi,
Sirli bir möcüzə açılan kimi,
Ürəyim kimsəyə açılmayacaq.

Dünyam məhvərindən eləmi çıxdı?
Ömrüm boş-boşuna səllimi axdı.
əzəldən açarı, qıfılı yoxdu,
ürəyim kimsəyə açılmayacaq.

Həyatı sərgərdan, yesirəm, yesir,
Ömrümə küləklər yüz yerdən əsir.
Bir ürək tutumu istəyim əsir,
Ürəyim kimsəyə açılmayacaq.

BƏXTİMİZƏ DÜŞƏN ÜZÜK

Çiçəklə çəmən narazı,
Sən narazı, mən narazı.
Bu mizan, bu da tərəzi,
Niyəsini ölçəmmədik.

Göy qəddini bulud əymiş,
Göstərdilər kalı dəymiş.
Demə dünya tərsinəymiş,
Anışdırıb seçəmmədik.

Özümüz cığırıq, izik,
Yolçuları ikimizik.
Bəxtimizə düşən üzük
Həlqəsindən keçəmmədik.

UŞAQ ŞEİRLƏRİ VƏ POEMALARI

QAĞAYILAR VƏ DƏNİZ

Nəğmələri dənizə
Səpirlər qağayılar.
Qucaqlayıb suları
Öpürlər qağayılar.
Uğuldayıb hay verir.
Dəniz qağayılara
Balıqları pay verir
Dəniz qağayılara.

BUZA YAZILAN BORC

Tülkü ac idi,
Hey yağırdı qar.
Dedi-görüm nə
Yeyir canavar.
Getdi onlara,
Qapını döydü.
Gözünü qıydı,
Boynunu əydi.
Gəlib qapını
Açdı canavar.
Tülkünü görüb.
Çaşdı canavar.
Soruşdu: ─Qonşu,
Noolub, nə var?
Tülkü domuşub,
Sıxıldı bir az.
Vığıldadı: ─heç
Belə iş olmaz
Gözüm açılmır.
Borandan, qardan.

Bir tikə yemək
Mən tapım hardan?
Ehtiyatlısan
Borc ver sən mənə.
Yazda borcunu
Qaytarım sənə.
Bir tikə quyruq,
Bir az ət olsun.
Yeyim canıma
Güc-qüvvət olsun.
Canavar göyə
Baxıb uladı:
─Qardaş, sənə borc
Verərəm, ancaq,
Yazadək hər şey
Yaddan çıxacaq.
Düzəltdi tezcə
Tülkü boynunu.
Inandırdı bu
Sözlərlə onu:
─Qağa, durmaram,
Sənin qəsdinə.
Borcunu yazım
Buzun üstünə.
Sağ olmuş daha
Niyə vermirsən?
Yaddaşın yoxdur
Deyə vermirsən?
Qorxma, get gətir.
Quyruqdan, ətdən.
Yaxşılığını
Unutmaram mən.
Qoyma acından.
Ölürəm, ay dost.
Qıyma acından

Ölürəm, ay dost.
Canavar dedi:
–Qardaşım Tülkü,
Ehtiyatım az
Olsa da bil ki,
Səni acından
Öldürərəmmi?
Düşmənlərini
Güldürərəmmi?
Ac olmağına
Dözmərəm ay dost.
Səndən əlimi
Üzmərəm, ay dost.
Qaçıb tez evdən
Bir tikə quyruq,
Bir parça da ət
Götürüb gəldi.
Tülkü ağzının
Suyunu sildi.
Göstərdi ki, bax.
Buz donub hər yan.
Mənə qalıbdır,
Bu qar, bu boran.
Mismar götürüb
Diz üstə çökdü.
Güldü: yadında,
Saxla borcunu.
Hər gün gəl burda,
Yoxla borcunu.
Buzla örtülmüş
Gölün üstünə
Ətin, quyruğun
Şəklini çəkdi.
Nə azaldıb, nə
Artıracağam

Bu başın haqqı,
Borcunu yazda
Qaytaracağam.
Mızıldanıb o,
Fınxırdı bərk-bərk
Əti, quyruğu
Didişdirərək
Ləzzətlə yedi.
Ac qarnım doydu.
Ölmədim dedi.

Canavar tez-tez
Gəlib yoxlayır.
Gölün üstünü
Təmiz saxlayır.
O, bir neçə gün
Gözlədi belə.
Sonra düşündü:
─Yaz gəlmir hələ.
Gedim dincəlim
Hava soyuqdu.
Tülküdən də heç
Bir xəbər yoxdu.
Yaxşı ki, yazıb,
Borcunu buza.
İnanmıram o
Vədini poza.

İsindi hava,
Əridi qar, buz.
Açdı çiçəklər
Göyərdi yarpız.
Canavar qaçdı.
Tez tülkügilə,
Dedi: ─Yaz gəldi,
A tülkü lələ.

Qışda aldığın
Borcunu qaytar.
Quyruq yeməyə
Çox həvəsim var.
Tülkü güldü ki,
—Nə borc, ay qağa?
Tülkü tapmadın
Sən aldatmağa?
Canavar coşub.
Yaman hirsləndi:
—Bəs buzun üstə
Yazdığın nədi?
Ətin, quyruğun,
Şəklini də sən.
Özün çəkmisən.
Tülkü dilləndi:
—Az hay-küy qopar.
Məni o gölün
Yanına apar.
Göstər borcunu,
Yazdığım yeri.
Dinməz, söyləməz
Əti, quyruğu
Özünə verim.
Qaçaraq onlar,
Çatdılar gölə
Canavar coşdu.
—Buz necə olub
Buna bax hələ.
Tülkü gülərək,
Dedi: tələsmə.
Özündən çıxıb.
Hirslənib əsmə.
Nə azaldıb, nə
Artıracağam.

Bu başın haqqı,
Borcunu qışda
Qaytaracağam.
Canavar hirsli,
Canavar pərtdi.
Aldadılıb o,
Çox böyük dərddi.
Cumdu tülküyə
Bir pəncə vursun.
Yalançı dostun.
Belini qırsın.
Tülkü durmadı,
Yel kimi qaçdı.
O, nə ağılsız.
Nə başı boşdu.
Canavar yerə,
Qoydu dizini.
Belə qınadı
Özü-özünü:
A tülkü qağa,
Bir də səni ac
Görməyim bəlkə!...
Bir də sənə borc
Verməyim bəlkə!...
Bir də yazarsan
Borcunu buza!...
Sən bir də qışdan
Çıxarsan yaza?!...

UZUNQANAD

Bir budaqda oturmuş,
Cikkildəşir iki quş.
Birinin adı Gülgül,
Birinin adı Çilçil.

Səs gəldi lap yaxından.
─Kömək edin, ay aman!...
Yaralanıbdı balam,
Balama qurban olam.
O, cik-cik cikkildəyir,
Kömək eləyin deyir.
Gəlin, ay Gülgül bacı,
Bilin, ay Çilçil bacı,
Balamın qanadını.
Pişik əzmiş, qanatmış
Necə olub bilmirəm.
Sonra ağzından atmış.
Həkim deyir göy dağdan,
Ordakı göy otlaqdan
Göycə ot gətirin siz
Tez mənə yetirin siz.
Dərman qayırım ondan,
Gecikmək olmaz bir an.
Ana quş cikkildəyir:
Kömək eləyin deyir.
Yazıq balam sağalsın,
Yaxşı dostlar sağ olsun,
Guya eşitmir Çilçil,
Kar olubdur elə bil.
Ananın fəryadını
Eşitmədi getdi, o.
Yaşıllıqlar içində
Yoxa çıxdı itdi, o,
Gülgül çatdı haraya
Dedi: Uçum haraya
Ay Anaquş, Anaquş,
Demə dostlar yox olmuş
Mən burdayam, mən varam,
Səni yalqız qoymaram.
Anaquş sevindi bərk,

Ürəyi döyünərək
Cikkildədi cik-cirik.
A Gülgül yaxşılığı
Biz heç vaxt itirmərik,
Həkimin buyurduğu
Dərman otunu gətir
Əziz balama yetir.
Tez qanad açdı Gülgül,
Göy dağa uçdu Gülgül.
Göy dağın başı göydü,
Torpağı, daşı göydü,
Göycə otlar göyərmiş.
Gülgül tanıdı, duydu,
Həkim bundan deyirmiş,
Göycə otdan yığdı o.
Dimdiyində sıxdı o.
Həvəslə qanad açdı
Anaquşgilə uçdu.
Balaquş çığırmaqdan,
Lap tutulmuşdu səsi.
Anaquş dözə bilmir
Daralıb hövsələsi.
Gülgül elə bu zaman
Anaquşgilə çatdı.
Dimdiyində tutduğu
Dərmandı, göycə otdu.
Anaquş bərk sevindi:
Balam sağalar indi.
Yorğun düşmüş Gülgülü
Qucaqlayıb ağladı.
Həkim də balaquşun
Yarasını bağladı.

Tapşırdı ki, düz üç gün
Dəyməyin bu sarğıya
Özüm gəlib açacam.
Yoxsa yenə ağrıyar.

* * *

Xəstələnmişdi Gülgül,
Yanırdı qızdırmadan.
Həkimə gedə bilmir
Vurdursun iynə, dərman.
Qonum-qonşu eşidib,
Gəldilər Gülgülgilə.
Həkim də çağırdılar,
Axı lazımdır belə.
Həkim yoxladı, yazdı.
─Tez uçub getməlisən,
O güllü çəmənə sən,
Gərək orda qalasan
Yaxşıca sağalasan.
Qanadında güc yoxdur,
İndi necə olsun bəs.
Oranın havasını,
Dərmanlar əvəz etməz.
Quşlar cikkildəşdilər:
─Burda nə çətin iş var.
Özümüz apararıq.
Qonşumuz tez sağalar.
Qanadı qırıq quşun,
Sağalıbdı qanadı.
O, eşidib Gülgülü
Bax beləcə qınadı:
─Niyə xəstəliyini
Xəbər vermədin bilək.
Köməyinə hamıdan,
Hamıdan tez biz gələk.

Gülgül yaman kövrəldi
Onun xoşuna gəldi.
Balaquşun sözləri
Yaşla doldu gözləri.
Cikkildədi: cik, cik, cik,
Nə pisdi bu xəstəlik.
Sağalmıram nə vaxtdır.
İynə dərmanların da
Görürəm xeyri yoxdur
Uzaqdır güllü çəmən
Orda sağalaram mən.
Qanadlarım tərpənmir
Tutqundur,qalxıb enmir
Gülgülün bu halına,
Pərişan əhvalına,
Dözərdimi Anaquş,
Dözərdimi Balaquş
Onlar da hamı kimi
İstəyir sağala quş,
Ana-bala Gülgülü,
Tezcə araya alıb
Güclü qanadlarıyla
Onun qanadlarının
Altına qanad salıb
Havaya qaldırdılar
Onların ürəyində
Bircə dənə arzu var:
─Təki xəstə sağalsın.
Yaxşı dostlar sağ olsun.
Altı gün, altı gecə,
Çəməndə qaldı Gülgül,
Quşların köməyiylə
Tamam sağaldı Gülgül.
Dostlarına qoşulub,
Uçurdu Gülgül özü.

Yarı yolda Çilçilə
Sataşdı onun gözü.
Cikkildəyib soruşdu.
Burada nə gəzirsən?
Çilçil dindi astaca
Sənlə bir gündə mən
Xəstələnmişəm axı?
Heç kim gəlmədi yaxın.
Həkim tapşırıb mənə
Uçum güllü çəmənə
Ora gedirəm indi,
Lakin, uçmaq çətindi
İmdadıma çatan yox
Qanadımdan tutan yox.
Bu Çilçil bacın haçan
Sağalıb qayıdacaq?
Həm güclüdür, həm uzun
Sənin qanadın ancaq.
Ona görə belə sən
Tez sağalıb gəlirsən.
Hələ yarı yoldayam,
Hələ uzaqdır çəmən.
Gücsüz qanadlarımla
Çatarammı ora mən?
Gülgül dilləndi: ─cik-cik
Hər an gələr xəstəlik.
Düz deyirsən a Çilçil.
Qanadım gücsüz deyil.
Qanadım gödək deyil.
Qonum-qonşular mənə
Verdi qanadlarını.
Qanadımın altına
Sərdi qanadlarını.
Uzun oldu qanadım,
Güclü oldu qanadım,

Dostları, yoldaşları
Bir de, necə unudum?
Ancaq əlacım olsa
Qanadından tutardım.
Köməyinə çatardım.
Uzaqdı güllü çəmən.
Tamam sağalmamışam,
Ora uçammaram mən.
Çilçilin sözü yoxdu,
Çilçilin üzü yoxdu,
Kimsəyə ağız açsın.
Kimsə onunla uçsun.
Susdu, heç dillənmədi,
Qanadı yellənmədi.
Gözləri yaşla doldu
Daha bilmədik onun
Axırı necə oldu.
Quşlar kirişib yatdı
Nağılım sona çatdı.

DƏLƏCƏ

Neçə gündür xəstədir,
Dələnin tək balası.
Acı dərmanlar içir,
Gözəl, göyçək balası.
Vaxt tapmır gedib yığsın
Balasına fındıq, qoz.
Dedi:- a dovşan bacı,
Gəl bizdə otur bir az.
Bu balam balacadı,
Bu balam Dələcədi,
Tək qalanda daıxır
Bu balam beləcədi.
Özümlə aparmayım
Qorxuram gec sağalar.

İndi gedib yığmasam
Qoz, fındıqlar soğular.
Dələ getdi işinə.
Onlara gəldi dovşan.
Dələcə ilə xeyli.
Oynadı, güldü dovşan.
Birdən yadına düşdü:
Toya getməlidi o.
Bəyi də gəlini də,
Təbrik etməlidi o.
Tezcə qaçdı bayıra,
Qayıtdı kirpi ilə.
Dedi: ─Məni burada
Qoyub qonşumuz dələ.
Balası balacadı.
Bu xəstə Dələcədi.
Tək qalanda darıxır
Körpədi, beləcədi.
Burda qal əvəzimə,
Dələcəni gözlə sən.
Xeyirxahlığın üçün
Minnətdar olaram mən.
Kirpi tikanlarını
Qabartdı arxayın ol.
Dələcəni gözlərəm
Sən toya get, yaxşı yol!
Dovşan getdi işinə,
Burada qaldı kirpi.
Güldürdü dələcəni
Oynadı, çaldı kirpi.
Birdən yadına düşdü.:
─Nənəsi çağırıb bəs,
Ona vacib sözü var.
Getməsə ola bilməz.
O da qaçdı bayıra,

Qayıtdı tülkü ilə.
Dedi: ─Dovşanı burda,
Qoymuşdu ana dələ.
Balası balacadı.
Bu xəstə Dələcədi.
Tək qalanda darıxır
Körpədi beləcədi.
Dovşan toya gedirdi,
Məndən xahiş elədi.
Gözləyim Dələcəni.
Bax vəziyyət belədi.
Nənəm çağırıb məni
Gedim görüm nə deyir.
Bəlkə nəsə lazımdı?
Bəlkə nəsə istəyir?
Nə olar tülkü qardaş
Qalmasın Dələcə tək.
Otur onun yanında,
Anası gələnədək.
Tülkü quyruğu ilə,
Sığal çəkdi belinə.
Şirə pay aparmağa,
Fürsət düşdü əlinə.
Sevindi get, a kirpi,
Dələcəni Gözlərəm.
Anası gələnədək
Sevərəm, əzizlərəm.
Kirpi əmin-arxayın,
Getdi nənəsigilə.
Çoxlu qoz, fındıq yığıb
Evə qayıtdı dələ.
Gördü ki, heç kim yoxdu,
Çox təəccüb qaldı o.
Qaçıb tez Dovşangilə
Bərkdən harayladı o;

─Dovşan, Dovşan hardasan?
Söylə, bilim , nə etdin?
Xəstə Dələcəni sən,
Götürüb hara getdin?
Dovşanın keyfi kökdü,
Qonaqlıqdan gəlirdi.
Yarpaqlarla ağzının
Şirəsini silirdi.
Dələ dedi: ─A qonşu,
Hanı mənim Dələcəm.
Yanında qoyub getdim,
Tez de, yoxsa, öləcəm,
Dovşan çaşdı, karıxdı,
Mikkildədi ölmə sən
Kirpiyə tapşırmışam.
Körpə Dələcəni mən.
Dayanmayıb bir an da
Kirpigilə qaçdılar.
İcazəsiz, təklifsiz,
Qapısını açdılar.
Kirpi evdə tək idi,
Oturmuşdu divanda.
O, Təsbeh çevirirdi,
Heç kim yoxdu yanında
Dedilər bəs Dələcə,
Sənin evində deyil?
Niyə key-key baxırsan.
Görməyibsən elə bil.
Kirpinin iynələri
Biz-biz durdu hirsindən.
Dedi: ─Onu qoymuşam.
Tülkünün yanında mən.
Sakit ol dələ bacı,
İnan mənim sözümə
Balanı sağ-salamat

Qaytararam özünə.
Dələ, Dovşan və kirpi
Tülkünü axtarırlar.
Düşübdülər izinə,
Ancaq darıxır onlar.
Dayanıb dincəlmədən.
Kol-kosu gəzir kirpi.
Hirsindən, acığından
Titrəyir əsir kirpi.
Cəld ağacdan-ağaca
Hoppanıb keçir Dələ
Elə bil qanadı var,
Elə bil uçur Dələ.
Görən tülkü neylədi,
Balaca balasını?
Döydümü, qorxutdumu?
Dələcə balasını.
Dovşan meşə boyunca
Qaçır yaman pərt olub,
Tülkünün tülkülüyü
Ona böyük dərd olub.
Kirpi qaçır, tövşüyür,
Tikanları qabarır.
Birdən gördü qabaqda.
Tülkü atıb belinə
Dələcəni aparır,
Çığırıb, bağırdı o:
—Dayan, a Tülkü, dayan!
Dələnin körpəsini
Sən hara qaçırırsan?
Dayan, a Tülkü, dayan!
Mən dalınca düşəcəm.
Səni tutub bu saat
İynələyib deşəcəm.
Tülkü də Dələcəni,

Pay aparırmış şirə,
Kirpidən qorxub onu,
Astaca qoydu yerə.
Yel kimi qaçdı getdi.
Tuta bilmədi kirpi.
Iynələyib deşməyə
Çata bilmədi kirpi,
Demə Dələ ağacdan.
Dovşan koldan baxırmış.
Onlar yaxın gəlməyib
Tülküdən bərk qorxurmuş.
Dələ də balasını,
Qucağına götürdü.
Dovşanla kirpi bura,
Özlərini yetirdi.
Yaman utanırdılar.
Dovşanla kirpi ancaq.
Dələ dedi: ─Eybi yox.
Hər şey yaxşı olacaq.
Yeyib qozu, fındığı.
Dələcəm sağalacaq.

İPƏK KOMBİNATINDA

Anam məni bir səhər,
Kombinata apardı.
Eh, bilsəniz nə qədər
Maraqlı işlər vardı?...

Burada bir otaq var,
Əvvəlcə puplar bişir
Sap açıldıqca onlar,
Necə atılıb-düşür!

Əyirici dəzgaha,
Adam baxdıqca baxır.
İpək saplar elə bil
Axır, süd kimi axır.

Gəzərək sex boyunca,
İpək toxunan yeri,
Baxıb gördüm doyunca
Naxışlı ilmələri.

Qulaqlarıma gələn,
Dəzgahın gur səsidir.
Su deyil bu tökülən, –
İpək şəlaləsidir.
Əvvəl toxunan ipək
Demə bir rəng olurmuş.
Dəzgahlar vurub bəzək
Belə qəşəng olurmuş.

Ütüləyib maşınlar,
İpəkdən top düzəldir.
Mənim ipək donum var.
Görün necə gözəldir!

İPƏK DƏSMAL

Ramiz bağçaya gedir,,
Yamanca şadlıq edir.
Güllü ipək dəsmalı,
Yaxasından asılı.
Çirklənsə üzü-gözü,
Dəsmala dəymir özü.
Tezcə silir qoluna.
Qorxur dəsmal bulanar.
Köynəyinin qolu çirk,

Üzü-gözü dolu çirk
Bağçadan gəlir Ramiz,
İpək dəsmal tərtəmiz.

BACIMIN KİTABI

“Əlifba” kitabını,
Evdə qoymuşdu bacım.
İstədim ki, götürüb,
Onun dalınca qaçım.

Sonra fikirləşdim mən,
Gedib dərsə girərəm.
Dərs soruşarlar birdən
Bəs nə cavab verərəm...

QAR ADAMI

Mən qardan “qar adamı”
Düzəldəndə əl-üzüm
Yamanca bərk üşüdü.
Tez evə qaçdım özüm.
“Qar adamı”nı isə,
Unudub gətirmədim.
İndi o da mənim tək
Yəqin üşüyür dedim.

İDMAN DƏRSİ

Nənəsi çağırır ki,
Ay Ülviyyə, evə gəl.
Dərslərini oxu, yaz.
Xörəyini ye, dincəl.
Top oynayırdı deyə
Qız tez tapdı bəhanə
Dedi idman dərsini
Öyrənirəm, ay nənə!

BACIM NƏ DADIR?

Nazlı lap balacadır,
Sevinc böyükdür bir az.
Bacılar axşam-səhər
Bir-birilə dalaşmaz.
Sevinc öpür Nazlını,
Turşudur üz-gözünü.
Deyir bacım turş dadır.
Durub yumur üzünü.
Hərdən öpüb söyləyir:
—İndi də alma dadır,
—İndi də dolma dadır.
Bilsəydim heş öpməzdim.
Nazlı məni aldadır.
Öpəcəyəm mən onu
Göyçək olanda üzü,
Təmiz olanda donu.

DÜRDANƏNİN BİBİSİ

Dürdanə bibisini
Çox istəyir hamıdan.
Bibisi gələn kimi
Əl çəkməyir yanından.

Yalvarır ki, nənəyə
Bibigilə gedək biz
Bizə gəlmir nə vaxtdı
Görən niyə bibimiz?

Nənə də Dürdanəyə
Dedi ki, gülə-gülə
Bibin yoxdu evində,
Gedib bibisigilə.

Bibin də bibisini
Çox istəyir sənin tək
Bibin bibisigildən
Qayıtsın sonra gedək.

QONAQLAR GETDI

Qonaq gəlmişdi.
Ilhamə gilə
Qız yuxusundan,
Durmayıb hələ.

Anası gəlib
Oyatdı onu.
Verdi geysin tez
Çiçəkli donu.

Ilhamə ancaq
Onu geymədi.
Dedi: ─Yaxşı don
Seçərəm indi.

O, donlarını
Geyirdi bir-bir
Nədənsə onlar
Xoşuna gəlmir.

Ətəyi sarı
Cibli donu var.
Onu geyinib
Gələnə qədər
Getdi qonaqlar.

DƏYİŞ-DÜYÜŞ

Damda əzgil var idi,
Gördüm bir gün qoz olub.
Divarın küncündə də
İri yuva qazılıb.
Bunu görüb mat qaldıq
Görəsən bu nə işdi?
Bizim kal əzgilləri,
Kim qoz ilə dəyişdi?
Demə əzgil olubmuş,
Xaliqgilin də qozu.
Bunu bilən kimi tez
Söylədi mənə özü.
Nənəm baxan tək dedi:
Bu damda siçovul var.
Dəyiş-düyüş eyləyən
Bax onun işi olar!

SAKİT YER

Nəvəsi çoxdu
Qönçə nənənin.
Özü mehriban,
İncə nənənin.

Qar yağan zaman
Nəvələr yenə
Buraxılmışdı
Qış tə'tilinə.

Qönçə nənənin
Nəvələri də
Darıxırdılar
Öz evlərində.

Onlar deyirdi
Dərsimiz çoxdu,
Evimizdə də
Sakit yer yoxdu.

Qönçə nənənin
Böyük evi var
Orda lap yaxşı
Oxumaq olar.

Beləcə dedi
Düz səkkiz nəvə
Yığışdı onlar
Tək bircə evə.

Bu sakitcə ev
Səs-küylə doldu
Nənə də yaman
Sevincək oldu.

Gətirib tezcə
Çay da dəmlədi.
Kökə bişirdi,
Di, yeyin dedi.

Uşaqlar yeyib
Küçəyə qaçdı.
Qarın üstündə
Mayallaq aşdı.

Çox sürüşdülər.
Çox oynadılar.
Şaxta baba da
Düzəltdi onlar

Axşama gəlib
Evə çatdılar.
Doyunca yeyib,
Sonra yatdılar.

Qulluq edirdi
Mehriban nənə
Onlar tez yeyib
Qaçdılar yenə.

Dərs oxumağa
Vaxtları yoxdu
Eh nə olsun ki,
Dərsləri çoxdur?!

Belə sakit yer
Harada olar?
Oxuyun demir
Ata-analar...

Nə tez qurtardı
Tə'til də belə?
Uzanaydı kaş
Bu günlər hələ!

Öyrənməyiblər
Heç bircə dərs də─
Oxumaq olar?
Heç belə səsdə?

Nə deyəcəkdir
İndi müəllim?
Siz bilərsiniz
Mən hardan bilim?!

ŞƏFƏQİN SIRĞALARI

Həyətdə nənəsinə,
Şəfəq ağlayıb dedi:
─Qulağımdan "sırğamı"
Xaliq qoparıb yedi.

Mən onu qucağımda
Oynadıram bayaqdan.
Sırğalarımı o da
Bir-bir qırıb saplaqdan.
Yeyib görməmişəm mən.
Şirə axır üzündən.
Nənəm söylədi: ─qızım,
Xaliq uşaqdır hələ
Nə bilir sırğa nədir
Qoparıb yeyib elə.
Gətir yenidən asım
Qulağından gilası.
Sırğalarını özün
Yeyib qurtaranadək
Xaliqi qucağına
Götürməyəsən gərək.

POPUNUN TOPU

Dostumun
Bir adı
Paşadı
Bir adı
Popudu.
Qırmızı
Xallı top
Popunun
Topudu
Çağırdım
Popunu.
Gətirsin
Oynadaq
Topunu.
Top yoxdu
İtibdi.

Məstan da
Harasa
Gedibdi.
–Top hanı?
–Top hanı?
–axtaraq
Məstanı
Harasa
Girib o.
Özünü
Harasa
Verib o.
Bax, indi
Gör necə
Xəlvətcə
Oynadır
Popunun
Topunu.

GÖZÜM ÜŞÜMÜR

Hava soyuq olanda,
Üşüyür əlim-üzüm.
Qara buza baxıram.
Ancaq üşümür Gözüm.

YORULDUM...

Bağçada ağacların
Dibini bellədim mən.
Nə səhər, nə də axşam
Bel düşmədi əlimdən.
Yoruldum da o ki var.

Alnımdan tər süzüldü
Mənim əlimə qabar,
Budaqlara muncuq tək
Tumurcuqlar düzüldü.

AYA QAÇIB

Tezcə “ana”
Desin bacım.
Özü çörək,
Yesin bacım.
Yerisin o
Ayaq açıb
Bir də görüm,
Məndən xəlvət
Aya qaçıb.

GÜN VƏ MƏN

Çiyələk
Ləkinə
Gün çıxdı,
Mən çıxdım.
Qızarmış
Meyvəyə
Gün baxdı.
Mən baxdım.
Nənəmdən
Eşitdim
o gün mən:
Ləklərə
gün düşür,
Meyvələr
Yetişir.

Bu ləkdən
O ləkə
Keçirdik.
Ən dadlı.
Çiyələk
Seçirdik.
Ləklərə
Gün düşür.
Meyvələr
Yetişir
Sağ ol gün,
Sağ ol gün,
Deyirəm,
Ləzzətlə
Çiyələk
Yeyirəm
O yana─
Bu yana
Qaçdıq çox.
Mən daha
Yorulub
Tərlədim,
Günsə yox.

QORXAQ

Qayığa minəndə biz
Qorxub qaçır Eldəniz.
Deyir dəniz coşacaq
Qayığımız aşacaq.
Dənizi gəzib gəldik.
Qorxağa baxıb güldük.
Qağayılar da güldü.
Onun qorxaqlığını
Görən quşlar nə bildi?

ELMAR

Bizim balaca Elmar
Cırnadır Xoşqədəmi.
Deyir yaxşı saçın var,
Pişiyin tükü kimi.
Qız söyləyir Elmara,
─Bəs sənin özün nəsən?
Torpaq kimi qapqara!
Mənə pişik deyirsən...
Elmar gülür: ─Nə olar?
Torpaqda hər şey bitir.
Yemiş, qarpız, heyva, nar
Yetişəndə dər gətir.

MƏMİŞİN ŞE'RLƏRİ

Oyanar Məmiş,
Səhər lap tezdən.
Dəcəldir yaman,
Qoymayın gözdən.
Diqqətlə qulaq
Asar hər sözə.
Ondan nağıllar
Söyləyim sizə.

MƏMİŞİN QAZANA GİRMƏSİ

Məmiş evdə,
Tək qalmışdı,
Yamanca səs─
Küy salmışdı.
Bilmirdi ki,
Heç nə etsin.
Nə iş görsün,

Hara getsin?
Bax... qazanda
Az xörək var.
İndi onu
Yemək olar.
Tez xörəyi,
Yedi Məmiş.
Qazana da
“Bibib” maşın,
Dedi Məmiş.
Ayağını,
Yığışdırdı
Özünü bu,
Maşınına
Sığışdırdı.
Çox “şəhəri”,
“Kəndi gəzdi
Dolanmaqdan,
Daha bezdi.
Bir təpənin
Başında o,
İstədi ki,
Düşsün yerə
Maşından o.
Bəs qazandan
Çıxa bilmir;
Köməyinə
Kimsə gəlmir.
Nahaq yerə
Çığır-bağır,
Saldı Məmiş.
Anasıgil
Gələnədək,
Qazandaca
Qaldı Məmiş.

MƏMİŞİN KİTABI

Məmişin bir,
Nəğməsi var,
Axşam səhər,
Hey oxuyar.
Yüzə qədər,
Sanayır o.
Hərfləri də
Tanıyır o.
Atası bir,
Kitab alıb
Məmiş, yaman
Razı qalıb.
Oxumaqdan
Gündə Məmiş
Bu kitabı
Əzbər bilir,
Həm nənəsi
Həm də Məmiş.

NOĞUL

Bizim yolkamız,
Bəzənib qəşəng,
Başında ulduz,
Parlayır rəngrəng.
Məmişin cibi,
Noğulla dolub.
Bu gün yenə də
Çox dəcəl olub.
Kimdə noğul var.
Əlindən alır,
Verməsə onlar,
Hay-həşir salır.
O qədər noğul

Yığdı ki, Məmiş,
Hələ bacısı,
Dedi: ─Görməmiş.
Məmiş yerində.
Noğul sayırdı.
Rəng-rəng noğulu,
Seçib-ayırdı.
Yuxusu gəldi,
Beləcə yatdı.
Gecə noğullar
Onu oyatdı.
Noğul yapışıb,
Əl-ayağına.
Üçü də çıxıb,
Sol yanağına.
Yuxu tökülür,
Onun gözündən.
Noğulları tez
Aldı üzündən,
Əl-ayağından.
Uzağa atdı.
Deyəsən Məmiş
Rahatca yatdı.

ÖNLÜK

Bu gün balaca Sona,
Özünə önlük tikdi.
Geymək istəyəndə o,
Gördü yaman kiçikdi.
Bu qəşəng önlüyünü,
İndi nə etsin Sona?
Yadına düşdü birdən,
Geydirdi kuklasına.

YAĞIŞ QOYMUR

Balaca Anar qorxur,
Söyləyir ki, ay ana,
Gör şimşək necə çaxır.
İşıq düşür hər yana.

Şimşəyin qarşısında,
Bir söylə nə dayanar?
Yağış yağmasa bəlkə,
Göylər alışıb-yanar?!

ALMADƏRƏN

Sizin almanı dərən
Bizim “almadərən”di
O həm heyva, nar dərən
Həm də alma dərəndi.

Nə qədər meyvə dərsə
Heç yoruldum demir o
Səbət-səbət meyvədən
Bircə dənə yemir o...

ÇƏTİR

Atası Xatirəyə,
Çətir almışdı yayda.
Ancaq yağış yağmırdı,
Qurtarmırdı bu yay da
Xatirə güllü çətiri
Açıb aldı əlinə
Dedi: ─Bacı, hovuzdan.
Gəl yağış yağdır mənə.

NAĞARAMI DEŞƏRSƏN

İpləri dartıb bir-bir
Nağara çalır Nadir
─Dam-dam-dam-daram!
Mən nağara çalıram.
Dam-dam-dam-daram!
Çalıram, oynayıram.
Dam-dam-dam-daram!
Qoy dincəlsin nağaram
Miyoldayaraq birdən
Boylanıb baxdı məstan.
Nağaranın üstünə
Hoppanıb çıxdı məstan.
Çalmaqmı istəyirdi,
Yatmaqmı istəyirdi,
Daha bunu bilmirəm
Nadir ona deyirdi:
Lap çalmaq istəsən də
Burdan sakit düşərsən;
Caynaqların uzundur─
Nağaramı deşərsən.

EVCİK

Dənizin sahilində,
Evcik qurmuşam qumdan.
Balaca belimlə mən
Hasar da çəkdim ondan.

Dəniz mən olmayanda,
Evciyə yaxınlaşıb.
Dayanmayıb bir anda,
Qum hasarımı aşıb.

Çox axtarıb-axtarıb,
Məni orda görməyib.
Çıxıb sakitcə gedib
Evciyimə girməyib.

ŞADLIQ

Yağış yağdı,
Sel-su axdı.
Yeddi rəngli
Qurşağını
Göy belinə
Qurşadı göy.
Həm şaddı yer,
Həm şaddı göy.

QIZLAR,QAZLAR

Sona ilə E’tibar
Nigargilə gəlirdi,
Yolda çoxlu qazlar var,
Bunu Nigar bilirdi.
Qızlar, qazlardan qorxdu,
Onlar Nigara baxdı.
Nigar qaçıb gələrək,
Qazların qabağına
Belə dedi gülərək:
─Gəlin,keçin,ay qızlar,
Məni tanıyır qazlar.

ZƏNCİROTU

Bağda zəncirotunun,
Çiçəkləri sarıydı..
Bə'zisinin başında,
Ağ tük papaq var idi.
Birdən sərin meh əsdi.
Papaqlar göydə gəzdi.

QUZUMUZ

Dəcəl bir quzumuz var.
Buzovumuz yatanda
Hey üstündən hoppanır.
Bir də görürəm ki, mən
Quzu buzovumuzun
Dartışdırır tükündən.

Elə bilir ki, otdur.
Qırpıb yemək istəyir
Nə qədər dartır qopmur.
Dəcəl bir quzumuz var.
Buzovumuz yatanda
Hey üstündən hoppanar.

YEMƏKDƏ KÖMƏK

Yetişdi çiyələklər.
Qızardı yaşıl ləklər.
İstədim dərim bir az
Nənəmə verim bir az.

Dəymiş çiyələkləri
Kim paralayıb belə,
Kim yaralayıb belə?
Nənəm dedi ki, sənə

Çox güman kömək edib.
Yeməkdə danadişi.
Sonra da çıxıb gedib
Dedim, nənə, ay nənə
Axı, bu necə işdi?
Çiyələk əkəndə mən
Harada gizlənmişdi?

OYUN BİLMİR

Uşaqların hərəsi
Bir havaya oynayır.
Ayağını görəsiz
Biri də səhv qoymayır.
Bir oynayan qız da var,
Vecinə deyil onun:
Nə çalırlar, çalsınlar,
Onsuz da bilmir oyun.

ELLANIN SEVİNCİ

Qonşumuzun qızı var,
Bizim kimi danışmır.
Hey çağırır uşaqlar,
Çox oyuna qarışmır.
Elladır onun adı,
Gözü göy, saçı sarı,
"Gizlənqaç" oynayanda,
Çaşdırır uşaqları.
Deyəndə ki, qaç, gizlən.
Durub yumur gözünü.
Deyirik: ─Yaxşı, qal sən.
O itirir özünü.

Çox oynadıq biz belə.
Şadlanıb gülə-gülə.
Bir də gördük Ellanın,
Tökülüb qaş-qabağı.
Demə, itibmiş onun,
Bəzəkli gül sancağı,
Axtarırdıq hamımız,
Tapa bilmirdik ancaq.
Fikirləşirdik indi
Görəsən nə olacaq?
Birdən bacım qışqırdı:
—aha, tapdım, baxın bir...
Bu yarpağın altında.
Necə də gizlənibdir!
Tezcə sancağı taxdı,
Ellanın yaxasına.
Ella bir qıza baxdı,
Bir uşaqlara baxdı.
Sevinci aşdı, daşdı,
Heç bir söz söyləmədi,
Bacımı öpdü,qaçdı.

ZARAFAT

Bu iş çəməndə oldu
Günah da məndə oldu.
Mən sənə zarafatla
Gopçu deyəndə oldu.
Gopçu ki deyilsən sən,
Niyə küsürsən məndən?!

KAŞ KÜSMƏYƏYDİM

Günay küsmüşdü yenə,
Gətirib ona nənə

Heyva verdi, nar verdi,
Hər nə qədər var verdi.
Ancaq Günay almadı,
Dodağını salladı,
Fındıq verdi almadı,
Qoz da verdi almadı,
Çox da verdi almadı,
Az da verdi almadı,
Dodağını salladı.
Evdəkilər payını
Gülə-gülə yedilər,
Günay küsüb dedilər.
Günay da baxmayırdı,
Bir kimsənin üzünə.
Ancaq ki, ürəyində
Deyirdi öz-özünə:
"Küsməmiş olaydım kaş,
Heyva, nar olmasa da
Qozları alaydım kaş".

NƏNƏMDƏN OLSA

Nənəm televizorda,
Baxır axşam futbola.
Deyir ki, mağazada
Top dolu ola-ola,
Gör nə qədər adamın,
Bircə dənə topu var...
Hamısı da bu topun,
Arxasınca qaçırlar.
Nənəmdən olsa əgər,
Hərəyə bir top verər.

GÖY GÖRÜNMÜRDÜ

Cığırları,
Başa çıxdıq.
Qardaşımla,
Qoşa çıxdıq.
Gəlib çatdıq
Düz meşəyə.
İgid gərək,
Səs gələndə,
Qorxusundan
Büzüşməyə.
Yaşıllığa
Bata-bata,
Ağaclardan
Tuta-tuta,
Təmiz hava
Uda-uda,
Gəzdik, gəzdik
Göy meşədə.
Görünmürdü
Göy meşədən.

OYUNCAQLAR

Evə uşaq gələndə
Çox sevinir Xatirə.
Oyuncaq heyvanları
Yığışdırır bir yerə.
Göstərir ki, bu dəvə
Bu pələngdir, bu da fil.
Yaxın gəlin, qorxmayın,
Onlar dişləyən deyil.
Kim istəsə oyuncaq,
Xatirə vermir ancaq.

Deyir ki, özgə yerdə
Onlar darıxar mənsiz.
Gəlin bizdə oynadaq
Hər gün heyvanları biz.

MƏNZƏR

Uşaqlar bu gün,
Yelləncək qurub,
Yellənmək üçün,
Növbəyə durub.
Hamısı bir-bir
Yellənib düşür.
Hər kim qorxanda
Onlar gülüşür.
Bu zaman çatdı
Növbə Mənzərə.
Xeyli yelləndi,
Düşmədi yerə.
Uşaqlar getdi,
Mənzər qaldı tək.
O istəmədi,
Daha yellənmək.

TELEFON BOYDA

Şəfəqin bir xalası
Olur çox-çox uzaqda.
Anasından eşidib,
Şəfəq xalası haqda.
Xalası telefonda
Deyir gələcəm sizə.
Şəfəq geyəcək onda.
Başdan-ayağa təzə.
Bir gün dedilər qıza,
Görməmisən hələ sən,

O xalan nə boydadır,
Bəlkə bunu biləsən?
O yana baxdı Şəfəq,
Bu yana baxdı Şəfəq,
İtirmədi özünü
Belə dedi sözünü
–Telefonda xalamla
Danışırdım onda mən,
Telefon boydadır o,
Tanıyıram səsindən.

HİNDUŞKA

Qırmızı don geyinib
Getmişdim əmimgilə.
Hinduşkanın yanında
Gəzirdim elə-belə,
Bircə anda açıldı
Qanadları yelpik tək
Pipikləri sallandı
Qaqqıldadı elə bərk.
O üstümə gələndə
Tez qaçıb evə girdim.
Nənəm bunu biləndə
Mənə yaşıl don verdi.
Dedi ki, hinduşkamız
Hərdən gülməli olur
Qırmızı rəng görəndə,
Beləcə dəli olur.

ƏTİRLİ SANDIQ

Nənəmin sandığından
Qurtarsa da meyvələr.
Ancaq ətri qurtarmır
Payız gələnə qədər.

DADAŞIN DOSTU

Kimlə olursa yoldaş
Tezcə dalaşır Dadaş.
─Məstan dostudur onun
Dalaşmırlar bəs niyə?
─bir-birinin dilini
Başa düşmürlər deyə.

QONAQ UŞAQ

Birgə oynayırdıq biz
Mən, qardaşım, Eldəniz.
Maşınla gəldi dünən,
Eldənizgilə qonaq.
Onlara qaçdım ki, mən,
Gəlin birgə oynayaq.
O, heç mənə baxmadı,
Qonaq gələn uşağın
Əlindən buraxmadı.
Bir az onlara baxdım,
Yanlarında darıxdım.
Səhər lap tezdən idi,
Eldəniz bizə gəldi.
Güldü: ─Gedək oynayaq,
Soruşdum ki, ondan mən.
Hanı bəs qonaq uşaq?
Get onunla oyna sən.
O, duruxub bir qədər,
Dedi onlar getdilər...

SƏNƏM BACIM

Ay mənim Sənəm bacım,
Səni sevənəm, bacım.
Dişin yoxdur bir dənə,
Belədir bizim nənə.

Onun da dişi yoxdur,
Ancaq nağılı çoxdur.
Sən nə nağıl bilirsən,
Nə də ki, danışmağı,
Hərdən bir bacarırsan,
Beşiyindən aşmağı.
Ay mənim Sənəm bacım,
Ay mənim nənəm bacım.

NAHAQ KÜSÜ

Samir qardaşının
Baxmır üzünə,
Cavab vermir onun,
Bircə sözünə.
Qardaşı soruşur:
–Nə etmişəm mən?
Səni heç bir dəfə,
İncitmişəm mən?
Samir deyir futbol,
Oynayanda biz,
Bir yerə düşmədik
Orda ikimiz.
Qapıçı durmuşdun,
O komandada.
Qapıya top vurdum,
Mən bircə anda.
Qoymadın topumu,
Keçsin qapıdan.
Vursaydım olardım,
Mən də kapitan

NƏNƏM GETSİN

Qonaq gəlib dünəndən
Nənəsi Zivərgilə,
Doymayıb söhbətindən.
Nənəsinin qız hələ.

Yanındaca oturub,
Nağıl söylədir ona,
Yoldaşları da qaçıb
Gəldi onun yanına.

Dedilər ki dur gedək,
Oynayaq bizimlə sən
Bir söylə nə vaxtadək
Çıxmayacaqsan evdən?
Tez cavab verdi Zivər!
─Nənəm gedənə qədər.

ZANBAQLAR

Bağçamızda nə qədər
Çiçək açmış zanbaq var
Elə bil ki, günəşi
Qucaqlayıb dururlar.

ONA DƏYMƏ

Elcan bir gün,
Keçən zaman
Zibagilin
Qapısından.

Qız çağırdı
Qardaşını
Tez çağırdı,
Qardaşını.

—Yaşar, gəl dur,
Yanımda sən.
Döyəcəyəm
Elcanı mən.
Yaşar dedi:
—Dəymə ona.
Nə işin var
Çəkil yana!
Təkcə görsə,
Haçan səni
Döyər axı,
Elcan səni.

KƏPƏNƏK UÇDU

Hörüyə gəlmir hələ
Xanımın qısa saçı.
Onun bir sancağı var—
Kəpənək qanad açıb.
Qız istəyir sancağı,
İndi taxsın saçına.
Kəpənəyi qəşəngdir,
Hamı baxsın saçına.

Uşaq güclə sancağı,
Yapışdırdı saçına
Qoşuldu həyətdə o,
Oynayana, qaçana.

Xanım bilmədi sancaq
Düşüb harada itdi.
Deyir: —Yəqin kəpənək,
Uçub bağçaya getdi.

KUKLALARIN BAĞÇASI

─Böyük-kiçik kuklalar,
Bizim bağçada çoxdur.
Axı niyə onların
Ayrı bağçası yoxdur?
─Kuklalarındı bağça
Axı böyüyəndə siz,
Daha bağçaya gəlmir,
Məktəbə gedirsiniz.
─Ancaq kuklalar yenə
Qalırlar bu bağçada.
Sizi də yadlarına
Salırlar bu bağçada.

ANASI MƏNƏM

Kiçik bacımı,
Yedirdən mənəm.
Bir-bir sözləri
Dedirdən mənəm.
İstəyirəm ki,
Düşüm, həyətdə
Çoxlu uşaq var,
Oynayım mən də.
Getsəm dalımca,
Ağlayır tezcə.
Kiridə bilmir.
Nə anam, nənəm, ─
Yoxsa bu bacım
Elə bilir ki,
Anası mənəm?

DÖRD SÖZ

Bizim balaca Xanım,
Gah ağlayır, gah gülür.
Danışmağı bacarmır.
Dördcə dənə söz bilir:
“Nənə”, “baba”, “ana”, “gəl”.
Çığırır axşamədək,
Elə bu dördcə sözü.
Ülviyyə deyir: ─Bacım,
Belə edir ki, özü─
Bildiyi bu dörd söz də,
Yadından çıxar birdən;
Ona görə danışır,
Qorxusundan hər yerdə.

MƏNİM BABAM

Elə bilirsiz babam,
Mehribandır həmişə,
Sağ ol, deyir hər işə?...
Yox...
Yalan danışsan əgər,
Qaş-qabağını tökər
Bir uşağı incitsən,
Qulaqlarını çəkər.
Hər kimin icazəsiz
Maşınını, topunu,
Kuklasını gətirsən,
Gözünə görünmə sən.
Belə-belə işlərdən,
Babamın xoşu gəlməz;
Sənlə danışıb-gülməz.

ƏLCƏYİMİZ OYNAYAR

Übüş dedi: ─Elsun, gəl
Qartopu oynayaq biz.
Elsun qorxdu ki, yox, yox...
Üşüyər əllərimiz.
Bizim evdə bəzəkli
İsti əlcəyimiz var.
Gedək, geyinib gələk
Yoxsa əlimiz donar.
Übüş əlcək geymədi,
─Heç belə oyun olar?
Qartopunu biz ki, yox
Əlcəyimiz oynayar

XƏBƏRÇİLİK ETMİRƏM

Nənəsinin yanında,
Nigar bu gün tək idi.
Oynadı öz-özünə,
Alma, heyva, kök yedi.

Sonra evdə darıxdı,
Qaçıb həyətə çıxdı.
Nənənin gətirdiyi,
Su vedrəsini yıxdı.

Dinc durmadı əlləri,
Yoldu, tökdü gülləri.
Nənəsi bilməsəydi,
Əzərdi şitilləri.

O, qıza acıqlandı;
Gəlib səni döyəcəm.
Gördüyün pis işləri,
Anana da deyəcəm.

Tez çıxdı ləkdən Nigar,
Çığırdı bərkdən Nigar.
Nənə özün demirdin,
Nigar, mənə qulaq as?

Adam yalançı olmaz,
Adam xəbərçi olmaz.
Xəbərçilik etmirəm,
Nənə, sən ki, görürsən.
İndi məndən anama
Özün xəbər verirsən!

ÇƏKMƏ GEYƏN ÇAY

Übüşün çəkməsinin
Bir tayı çayda axır.
Qız qaçır, çəkmə suda
Gah batır, gah da çıxır,

Übüş deyir; ─Bura bax,
A çay, dayan yavaş ax,
Geyib bir tay çəkməni,
Yordun axı sən məni?!
O birini də geysən,
Sən hamını ötərdin...
Sənə çatmaq olardı,
İlim-ilim itərdin!...

"GƏMİ"LƏR

Balaca bir çay axır,
Uşaqlar ona baxır.
Var Günayın cibində,
Həm fındığı, həm qozu.
Uşaqlar yerbəyerdən,
Dilə tuturlar qızı.

Günay qorxma bizimlə,
Oynayaq “gəmi-gəmi”.
Qozu, fındığı suya,
Buraxaq “gəmi” kimi.
Qoy üzsün-üzsün suda,
Fındıq, qoz “gəmi”ləri.
Lap axırda tutarıq,
Qaçıb tez gəmiləri.

Altı fındıq, səkkiz qoz,
Suya buraxır onlar.
Çığrışıb-qaçışaraq,
Dalınca baxır onlar.

Uzaqlaşır bir anda.
Qoz, fındıq üzə-üzə.
Dadlı ləpə daşıyır,
Yumru “gəmi”lər bizə.

ACI DƏRMAN

Bu gün səhər Ramilin
Qulağı ağrıdı bərk.
Dedilər kəsər indi
Gətirin dərman tökək
Ramil də ağladı ki,
─Yox, tamına baxın siz.
Birdən acı dərmanı,
Qulağıma tökərsiz...

KOLEYDOSKOPUN İÇİ

Çox həvəslə baxırdı,
Seyran koleydoskopa.
Həm də çox istəyirdi,
İçindən güllər qopa.

Çıxarıb gül-çiçəyi,
Dəstələr bağlayar o.
Verməyib heç bir kəsə,
Əlində saxlayar o.

Şəkilli kağızını,
Bircə andaca cırdı.
Gözəl koleydoskopu,
Sökdü, dağıtdı qırdı.

Gözlədi ki, içindən,
Çəmən düşə, gül düşə.
Ancaq çıxdı oradan,
Beş-altı rəngli şüşə.

Mənzərəli çəmənlər,
Güllər, çiçəklər hanı?
Koleydoskopu qırmaq
Pərt elədi Seyranı.

LALƏLİ DİVAR

Dostum Ramil, əgər sən,
Bizə gəlmək istəsən,
Evimizi çox asan,
Axtarmamış taparsan.
Bizim divarın üstü,
Lalə ilə doludur.
Laləli divar görsən
Bil ki, evimiz odur.

YEKƏ ÜSKÜK

Übüş tikiş tikəndi
İynəsi var, sapı var
İki barmağına o,
Bir dənə üskük taxar.
Tikmək istəyər ancaq
Üskük barmaqdan çıxar.

KÜSƏNİMİZ OLMADI

A çömçə, çömçə, çömçə,
Düzüldü çoxlu nimçə.
Nimçələr boşdu, boşdu,
Qazanda xörək daşdı
Dur, uzana-uzana,
Özünü sal qazana,
Qulluğunu görək biz,
Yeyək dadlı xörək biz
Gərək işimi bilim,
Tələsdim, yandı dilim
Qazanda xörək çoxdu,
Küsənin payı yoxdu.
Küsənimiz olmadı, ─
Xörəyimiz qalmadı.

BABANIN ATI

Babanın bir atı var
Az qala nalı düşə.
Balaca Pərviz bunu,
Görüb düşür təşvişə.

Çağırır: ─Baba, baba,
Tez bura gəl, ata bax:
Ayaqqabısı indi,
Ayağından çıxacaq.

GÜLLƏR SOLACAQ

Balıncı güllü bacım,
Şipşirin dilli bacım.
Gördük başını qoyub,
Yatır döşəyin üstə.

O, balıncdan inciməz,
Küsməz heç nəyin üstə.
Balıncı atmaz bacım,
Balıncsız yatmaz bacım.
Dedik: ─Balıncın hanı?
Qız qaldırdı yorğanı.

─Soyuq dəyməsin deyə,
İsti yerə qoymuşam.
Yorğanın altda yatsın,
Qoy balıncım bu axşam.
Özü üşüyüb, qorxub,
Balınca soyuq dəyər.
Üstündəki gülləri,
Solar, başını əyər.

KÖMƏK

Nənəsi tikiş tikir,
Xanım saplayır iynə.
Heç bir azca tikməmiş,
Sapı qurtarır yenə.
Nənə deyir: ─A bala,
Uzun sapla iynəni.
Qoy bir az artıq tikim,
Yordum axı mən səni.
Xanım cavab verdi ki,
İstəyirəm, ay nənə.
Tez-tez saplayım iynə,
Çox kömək edim sənə.

GÖZLƏRİM YATIR

Yatır hələ bacılar,
Ramil tezdən oyanır.
Gözünü açа bilmir,
Çarpayıda dayanır.
Çağırır ki, anacan,
Gəl mənə kömək elə,
Özüm durmuşam ancaq
Gözlərim yatır hələ.

TƏLƏ

Gəray qurduğu tələ
Tutdu yekə dələni.
Dələ də qaçırtdı tez,
Quyruğunda tələni
Deyən gərək, ay dələ,
Hara qaçırsan belə?
Axı siçovulundur,
Səninki deyil tələ.

BƏBƏNİN PAPAĞI

Elçingil bir papağı,
Atdılar Gülərgilə.
Papaq doldu qoz-fındıq,
Konfet, paxlava ilə.
Bu bayram axşamında
Yedilər gülə-gülə.
Bəhruz çağırdı: ─Xala,
Bəbə kiçikdir hələ.
Yeriyə bilmir özü,
Papaq götürüb gələ.
Cuppulu papağını
Sən at bizim eyvana

Onu konfet, fındıqla,
Qozla doldursun ana.

GÖRMƏMİŞƏM

Nənəsi dedi: ─Elşən,
Səni boyda olanda
Atan da çox dəcəldi,
Dincəlmirdi bir an da.

Uşaq inanmadı heç.
Nənəsinin sözünə.
Tezcə baxdı heyrətlə
Atasının üzünə.

Dedi: ─Ata, bəs axı?
Heç fikir verməmişəm
Sən balaca olanda
Mən niyə görməmişəm?

NƏNƏMİN KÜPÜ

Nənəmin küpü yekədi,
Küpünün qulpu ikidi.
Deyirəm ki, ay nənə:
Hərdən yada sal küpü
Mən onu xoşlayıram─
Bal küpüdü, bal küpü.

CEYRAN

Qollarını açaraq,
Ceyran fırlanırdı bərk,
Nənə söyləndi ona:
─Boy, başın hərlənəcək.
Ceyran da durub dedi:
─Dayanmışam mən indi,

Baxırsanmı Arzuya,
Bu qoyun, bu quzuya.
Nə ki, gül var, ağac var,
Hələ də fırlanırlar.
Ancaq onların gör bir
Heç başları hərlənmir.

TƏRİŞİN KONSERTİ

Təriş dedi:
─Uşaqlar, siz
Burda durun
Sakit, səssiz.
Oxumağı,
Oynamağı
Xoşlayıram.
Konsertimə
Başlayıram.
Var Tərişin
Gözəl səsi.
Xoşa gəlir
Hər nəğməsi.
O, ağzında
Çalır indi.
Oynamağı
Qiyamətdi.
Uşaqların
Bax biri də,
Oynayırdı
Öz yerində.
Sonra biri
Oynadı bax,
Kim bunları
Saxlayacaq?!
Həvəsləndi
Bu uşaqlar.

Oynamağa
Qoşuldular.
Tərişin də
Çalır ağzı,
Çalır əli.
Gah məzəli,
Gah gülməli,
Gah tar olur,
Gah da qaval.
Çal ay Təriş,
Yenə çal, çal,
Nə yoruldu
Durdu Təriş.
Uşaqları
Oynatmaqdan
Yordu Təriş.

QAÇDILAR ÇƏMƏNLİYƏ

Ana dovşan
Gedib yenə
Yem dalınca.
Gətirəcək
Kələm, yonca.
Balalar da
Evdə qalıb.
Ancaq yaman
Səs-küy salıb,
Danışırlar,
Gülüşürlər.
Oynaşırlar,
Güləşirlər.
Toz-tozanaq
Qalxır göyə.
Onlar bu vaxt,
Başlayırlar

Öskürməyə
─Öhö, öhö,
Ağzımıza,
Burnumuza
Dolan nədir?
Buralarda
Olan nədir?
Evə günəş
Düşür birdən.
Görürlər ki,
Bir zolaq toz
Qalxır yerdən.
Tez qapını,
Pəncərəni
Açır onlar.
Oynamağa,
Güləşməyə
Çəmənliyə
Qaçır onlar.

PİS UŞAQ DEYİLƏM

Şakir gələndə bizə,
Dağıdır ev-eşiyi.
Daş atır itimizə,
Miyoldadır pişiyi.
Dinc durmayır bir an da.
Əl uzadır hər yana.
Anasının yanında,
Söz demək olmur ona.
Bir gün anamla mən də,
Getmişdim Şakirgilə
O, məni görən kimi,
Təşvişlə dedi belə:
─Dibçəkdə çiçəklər var,

Torpağını boşaltma.
Yazıqdır ey... nə olar?...
Toplanıma daş atma.
Səhvini başa düşdü,
Söylədim ki, çəkmə qəm.
Dəymərəm heç nəyinə,
Mən pis uşaq deyiləm.

CÜCƏLƏR

Bizdə çoxlu cücə var,
Tez yatır axşam onlar.
Bir cücə dəcəl-dəcəl
Ayağını oynadar,
Biri cikkildəyəndə,
Hamısını oyadar.
Bir-birinə sıxılıb
Büzüşürlər cücələr.
Yumaq kimi yığılıb
Yatışırlar gecələr.

XANIMIN DİŞİ

Divardan tutub gəzir,
Xanımın bir yaşı var.
Onun ağzında hələ
İki dənə dişi var.
Bu qızın hər oyunu,
Bacısı Übüşlədi.
Bir gün də axşam onun
Barmağını dişlədi.
Übüş ağladı ki, bax
Hey dişləyirsən məni
Dişimin hamısı var
Heç dişləyirəm səni?

NƏNƏMİN GƏNCLİYİ

Nənəmin sandığında
Sən də bax gör nələr var:
Sancaq, daraq, düymələr,
Tikmələr, hörmələr var.

Taxçaların pərdəsi
Çinlidi, büzməlidir.
Xırdaca muncuqlardan
Gülləri düzməlidir.

Qotazlar rəngbərəngdir
Qotazlar iri, xırda.
Gül-çiçəklər yoxsa da,
Ətirləri var burda.

Süfrə, dəsmallarını,
Düyünçədə bağlayıb─
Nənəm yığıb bir sandıq,
Gəncliyini saxlayıb.

HARA QAÇIR EVİMİZ?

Anası ilə Fərhad,
Xalagilə getdilər.
Oturdular, yedilər,
Xeyli söhbət etdilər.

Ana dedi: ─Ay bacı,
Gedək evimizə biz.
Fərhad mızıldandı ki,
Hara qaçır evimiz?

Əmigilə də gedək,
Balıqlarına baxım.
Babam versin yaxama,
Medallarını taxım.

Xalasıgildən bir baş,
Getdilər əmigilə.
Oturdular, durdular,
Vaxt keçdi deyə-gülə.

Ana dedi: ─a bala,
Balıqlara da baxdın.
Baba medallarını,
Verdi yaxana taxdın.

Bəs indi sözün nədir?
Daha gedək evə biz.
Fərhad yenə deyindi:
Hara qaçır evimiz?

Düzdür, bu gün yaxşıdır.
Getmişik xalagilə,
Gəlmişik əmigilə.
Ancaq özün görürsən,

Karusel qalıb hələ.
Ana apardı onu,
Karuseldə yelləndi.
Dedi: ─Fərhad, gedəkmi,

Evimizə biz indi?
Uşaq yenə duruxdu,
Nə desin anaya, o?
Axı getmək istəyir,

Burdan da kinoya, o.
Gülmək tutur ananı:

Heç evə dönməyək biz?
Gedək hələ yoxlayaq,
Bəlkə qaçıb evimiz?
Bu sözləri eşitcək,

Oğlan yaman qorxdu bərk.
Anasının qolundan,
Dartdı, qaçaq evə biz.
Tez ol, tez ol, görək bir,
Yerindəmi evimiz?...

ELMİDAR

Elmidar tez-tez itir,
Elə görürsən gedir.
Gedir heç dayanmır o,
İtmək nədir, qanmır o.

QIŞ GƏLSİN

Hey saralıb, tökülür,
Ağacların yarpağı.
Xəzəl bürüyür yenə.
Yolu, bağçanı-bağı.
Bu üşüyən ağaclar,
Boylanır göyə sarı.
Gözləyirlər qış gəlsin,
Geysinlər qar paltarı.

DİLOTU

Nənəsi deyindi ki,
—A Nərgiz, səhərdən sən,
Elə hey danışırsan
Dilotumu yemisən?
Qız gülərək söylədi:
—Yemişəm qaz ayağı,
Qıcı, yemlik, gicitkan,
Bir də quzu qulağı.

Sən ki, bilirsən, nənə,
Heç yalan deməmişəm.
Hələ bircə dəfə də,
Dilotu yeməmişəm.

FƏRMAN AĞLAMIR

Axşam yenə
Çox yağıb qar.
Sürüşürlər
Şən uşaqlar.
Kiçik Fərman
Sürüşərkən.
Üzü-üstə
Bərk düşərkən,
Özünü tez
Alır ələ.
Qalxır yerdən
Gülə-gülə.
Yıxılsaydı
Başqa zaman.
Ağlayardı,
Çoxdan Fərman.

NATİQ KÜSÜR

Natiqin ad günüdür,
Onun altı yaşı var.
Hamı sevinir, gülür.
Oynayırlar uşaqlar.

Kiçik Natiq küsübdür,
Deyir belə şey olmaz.
Heç mənim ad günümdə,
Dəymir çiyələk, gilas.

KEÇİDDƏN KEÇ

Keçidi qoyub Elçin
Keçir maşın yolundan,
Milisioner əmi də
Tutur onun qolundan,
Deyir: ─Bircə maşın da
Keçiddən keçirmi heç?
Keçmə onun yolundan,
Sən də keçidindən keç.

AY

Dayanmayır, gedir hey
Gecəni yatmayır ay.
Balaca ulduza da
Bəs niyə çatmayır ay?

KƏMƏR

Çox sevir kəmərini
Heç kəsə vermir Ramil
Nə tullamır bir yana
Nə də itirmir Ramil.

Hər səhər duran kimi,
Yoxlayır kəmərini.
Bə'zən şalvar geyməmiş,
Bağlayır kəmərini.

DAVA DAVUD

Toplana da pay verim,
Məstana da pay verim.
Dava Davud çağırdı,
Ona da tez hay verim.

O, əsdi, coşdu yenə,
Hücum da çəkdi mənə.
Guya gec cavab verdim.
Qayıdıb evə girdim.
Dalaşmağa xoşum yox,
Davakarla işim yox.

PULA SATILMIR

Gəldi əsgər qardaşı,
Ramilin də bu axşam.
Uşaq yaman sevindi,
─Sənsiz bərk darıxmışam.

Ancaq niyə sən məni
Orda yada salmadın?
Bu əsgər paltarından
Heç mənə də almadın?

Qardaşı güldü: ─Ramil,
Yamanca deyinənsən.
Bu paltar satılmır ki,
Alım sən geyinəsən.

İndi yalan demirəm
İnan mənim sözümə.
Əsgər olanda pulsuz
Verəcəklər özünə.

GÖYÜN DİVARI

Təyyarəyə minmişik,
Yuxarı qalxıram mən.
Gah yerə baxıram mən,
Gah göyə baxıram mən.

Toxunmaq istəyirəm,
Lap göyün divarına.
O da qalxdı yuxarı
Yaxınlaşdıqca ona.

QOL, QOL

Bapbalaca,
Meydança var,
Oynayırlar,
Bapbalaca
Futbolçular.

Birdən-birə
Meydançaya,
Düşdü pişik.
Nə döndü, nə
Qaçdı pişik.

Uşaqlar bərk
Çığrışdılar,
Bağrışdılar,
Çaşdı pişik.
Axır bir yol,
Seçdi pişik

Düz qapıdan
Keçdi pişik.
Qol, qol!
Qol, qol!
Sağ ol!
Sağ ol!

TEZCƏ SAĞAL

Gəzməyə aparırdın
Məni hər gün, babacan
İndi xəstələnmisən,
Durmursan yatağından.

Baxacağam sözünə,
Ay baba, sağal təki.
Lap iynəni də bu gün
Qoy mənə vursun həkim.

MƏNƏ QALAN

Nə gec dəydi alçalar,
Hələ göydü alçalar.

Göydü-göydü, göy yeyim.
Doyanadək hey yeyim.

Haça budağa çıxdım,
Uca budağa çıxdım.

Yedim, qamaşdı dişim,
Ətəyim doldu, düşüm.

Yapışıb ətəyimdən,
Yavaşca düşürdüm mən

Birdən də yıxıldım bərk
Qolum göyəlcəm oldu.

Mənə qalan bir ətək,
Tumturş göy alçam oldu.

BALIQ QULAĞI

Səpələnib sahilə
Çoxlu balıqqulağı.
Gör nə qədər balığın
Qumda qalıb qulağı.

ÖZÜ BÖYÜSÜN

Lentlərini Mehparə
Saçına bağlayırdı.
Ucları dəyir yerə
Güc ilə saxlayırdı.

Bapbalacadır əli,
İndi necə bağlasın?
Gülmələdir, gülməli.
Yoxsa durub ağlasın?

Ağlamadı Mehparə
Belə düşündü ancaq.
Hündür yerdə bağlasa
Onda əli çatacaq.

Yenə çatmadı əli,
Az qaldı dolsun gözü.
Bəs indi nə etməli?
─Gərək böyüsün özü.

BAŞMAQ

─Bu başmaq niyə
Divarda gəzir?
O biri tayı
Bəs harda gəzir?

—Onu divardan,
Asıbdır nənə.
Dolub başmağa
Gör neçə iynə

QORXAQ KEÇİ

Küçük keçidən kiçik,
Keçi qorxur küçükdən
Keçinin buynuzu var,
Neyçün qorxur küçükdən?!

UN ƏLƏDİ

Əlinə ələk alıb,
Əminə un ələdi,
Ancaq başdan-ayağa,
Özü una bələndi.

İYDƏLƏR

Dedik dəyər iydələr,
Yedik, gördük çiydilər.
Bol-bol günəş düşəcək,
Un torbası şişəcək
Bu torba qızaranda,
İçində un bişəcək.

AĞLAĞAN QIZ

Şəkil çəkdirən zaman,
Püstə birdən ağladı.
Əmi çəkənə qədər,
Ana güclə saxladı.

İndi şəkli göstərib,
Hamıya deyir Püstə.
─Mən ağlamıram, bu qız,
Ağlayır hər şey üstə.

ACIĞA DÜŞƏN ÇƏKMƏ

Axşam çəkməni,
Qoydum bayırda.
Üşüdü, dondu,
Soyuqdan qardan.

O da mənimlə
Acığa düşdü.
Geydim ayağım
Dondu, büzüşdü.

YATAN DOSTLARIM

Oyanıram mən,
Lap səhər tezdən.
Ancaq dostlarım,
Yatırlar hələ,
Vüqar, Aybəniz,
Gülər, Şəlalə.
Səhərin özü
Oyanıb çoxdan.
Şəfəqlər ilə,
Boyanıb hər yan.
Kəpənək qonur
Çiçəyə, gülə.
Mənim dostlarım,
Yatırlar hələ.

AŞPAZIN QAZANLARI

Dağda, düzdə, qaçmışıq
Acmışıq, ay acmışıq...
Aşpazın on qazanı..
Bəs onlar hanı, hanı?
Birinin altı deşik,
Birini itirmişik.
Birində xörək çoxdur.
Bir aydı yeyən yoxdur.
Birinin dibi yanıb,
Yuyulmağa dayanıb.
Birinin dibi paxır,
Biri də çayda axır.
Birində pişik yatıb,
Birini aşpaz satıb.
Biri bütün yağ imiş,
Biri də heç yox imiş.

DƏCƏL TOPUM

Dəcəl topumun,
Rəngi gömgöydü.
Atdım ağaca,
Almaya dəydi.
Qayıtdı geri,
Bir alma ilə.
Alma da göydü
Dəyməyib hələ.
Atsam yenidən
Mən görə-görə,
Aldadıb topum,
Kal almaları
Gətirər yerə.

OYNAMAQ BİLSƏYDİN

Öz kuklasını,
Danlayır Sara.
Göstərir bir bax,
Televizora.
Səni boydadır,
O kuklalar da.
Gör bir nə yaxşı,
Oynayır orda.
Sən də oynamaq,
Bilsəydin əgər,
Televizorda
Göstərərdilər.

NƏNƏMİN YOLUNA YAĞMA

Xanım baxmayır,
Soyuğa, qara.
Tezdən oyanır
Çıxır bayıra.
Süpürür qarı,
Yorulur qolu
Tərtəmiz olur,
Nənənin yolu.
Qar yenə yağır
Keçməmiş bir az.
Xanım söyləyir:
─Belə şey olmaz.
A qar, mənə bax,
Bağ-bağçaya yağ.
Yıxılar nənəm,
Sözümdən çıxma.
Sən təkcə onun,
Yoluna yağma.

ÜLVİYYƏNİN ZƏNGİ

Ülviyyə zəng elədi,
Bu axşam Aynurgilə:
─Alo, alo... Aynurcan,
Yatmayıbsan ki, hələ?
Axtarıb tapmayanda─
Danlama qardaşını.
Oynadıb bacımla o,
Bizdə qoyub maşını.

QARAĞAT

Tinglər böyüyüb çoxdan
Hələ kolsan qarağat,
Özüm dərə bilməzdim,
Yekə olsan, qarağat.

YUXUM

Yuxuda gül görmüşdüm,
Yuxuda gül dərmişdim.
Yuxum açıb əlimi,
Bağda qoydu gülümü.

GÖYÜN ALTINDAYIQ

─Qorxuram bayırda mən,
Şıqqıltı eşidən tək.
Hava tamam qaraldı,
Ay, Gülnar, evə gedək.
─Ulduzu var, ayı var,
Burdan göyə baxırıq.
Biz göyün altındayıq,
Daha nədən qorxuruq?

QƏRZƏKLİ QOZ

Çimnaz çoxlu qoz yedi,
Qozlar qərzəkli idi.
Qaralıb əli-ağzı,
Babası gördü qızı.
Dedi: ─A naz-naz balam,
Naz balam, Çimnaz balam.
Qoy qərzək köynəyini
Tamam soyunsun qozlar,
Payız yağışlarında,
Təmiz yuyunsun qozlar,
Onda qarası qalmaz,
Əlin, ağzın qaralmaz.

BABAMLA KÜRKÜ

Elə bil təndir yanır,
Hava bürküdür, bürkü.
Uzanıb sərin yerdə
Babamla isti kürkü.

SƏRİN KÜLƏK

Hava yaman bürküdür,
Nə yağış, nə külək var.
Yamanca təntimişdir,
Bu istidə uşaqlar.
Bəhanə axtarırlar,
Dalaşmaq üçün onlar.
Gah deyirlər daş mənim,
Gah deyirlər çay mənim.
Gah da uca ağaclar,
Gah da göydə ay mənim.
Birdən hava sərnidi.

Astaca külək əsdi.
Uşaqlar belə yersiz
Mübahisəni kəsdi.
Onlar küləyin üstə,
Nə küsdü cığalladı,
Axı külək hamının
Başını sığalladı.

MƏNİM PAYIM

Yolkanın ətrafında
Gözləyirik bayaqdan.
Axır ki, şaxta baba,
Gəlib çıxdı soyuqdan,
Dedi: indi burdayam,
Sözünüz göz üstədir,
Uşaqların hərəsi
Ondan bir şey istədi.

Kənarda duran Turan,
Dedi var bircə sözüm,
İstəyirəm paylayım
Hədiyyələri özüm.

MƏNİM MAŞINIM DEYİL

Xalası dedi: ─Elçin,
Nə qəşəng maşının var,
Yorulmuşam, gəl məni
Mindirib evə apar.
O, maşını əlinə
Götürüb tezcə dedi:
─Dostum Pərvizindi bu
Evdədir yatır indi.
Durar, maşını tapmaz
Pərviz həşir qoparar.
Gedim oyadım onu
Özü səni aparar.

GÜLLƏRƏ ÇALDI

Tütək çalmaq istədi,
Ramil nənəsi üçün.
Nənə dedi, yatıram,
Sənə qulaq asmağa,
Həvəsim yoxdu bu gün.

O, qaçıb gəldi tezcə,
Anasının yanına.
Çıxarıb tütəyini,
Çalmaq istədi ona.

Ana güldü: ─A bala,
Yaxşı çalırsan, ancaq,
Qulaq asa bilmərəm,
Yoxsa xörək yanacaq.

Ramil gördü bacısı,
Kuklasıyla oynayır.
Öpür, qucaqlayır bərk,
Onu yerə qoymayır.
Çıxarıb tütəyini,
Heç çalmamışdı bir az,
Bacısı acıqlandı:
─Ey, səs-küy salmaq olmaz.
Çığırtma tütəyini,
Çimib, kuklam yatır bəs?
Onu tanıyıram mən,
Bu səsdə yata bilməz.

Toplan da qaçdı getdi,
Məstan da qaçdı getdi.
Bağçada quş qalmadı,
Hamısı uçdu getdi.

Ramil yaman qaldı tək.
Ancaq elə bilməyin

Boş yerə çaldı tütək.
Açılmışdı rəngbərəng,
Bu uçmayan, qaçmayan
Güllərə çaldı tütək.

RÖVŞƏN

Rövşən hey lovğalanıb
Deyir ki, qoçağam mən.
Nə iş desən görərəm
Baxma ki, uşağam mən.
Məktəbə gedən zaman,
Bircə çantanı ancaq,
Özü ilə oxuyan
Bacısı aparacaq.

DADAŞIN DOSTU

Kimlə olursa yoldaş
Tezcə dalaşır Dadaş.
─Məstan dostudur onun
Dalaşmırlar bəs niyə?
─Bir-birinin dilini
Başa düşmürlər deyə.

RƏHİM

Palçığın içində
Dolaşır Rəhim.
Gör necə palçığa
Bulaşır Rəhim.
Üzünü, gözünü,
Batırır Rəhim,
Nənənin işini
Artırır Rəhim.

ÜZƏN TOP

Çaya kiçik daş atdım,
Suyun dibinə batdı.
Mənim yekə topum var,
Üzməyi yaxşı bilir.
Arxın başına atsam,
Üzüb yanıma gəlir.

DARALAN ÇƏKMƏLƏR

Qırmızı çəkmələrim
Daralıb öz-özünə.
Ayağıma gəlməyir,
Hey baxıram üzünə.

Təzə çəkmələrim var,
Atam o axşam alıb.
Balacalaşıb bunlar,
Kiçik bacıma qalıb.

TƏMİZ QAR

—Bir bax necə təmizdi,
Göydən səpələnən qar.
—Bəlkə onu da tez-tez
Göydə çimizdirən var?

XİYARIN ACIĞI

Übüş babasıgildə
Lələri bir-bir gəzdi.
Doyunca xiyar yeyib,
Yaşıl tağları əzdi.
Bir neçə gündən sonra,
Yenə də ləkə girdi.
Tağları əzə-əzə
Bir ətək xiyar dərdi.

Hansını dişlədisə,
Ağzında acı daddı.

Babası görüb dedi:
─Xiyarlar acıqlandı,
Ləkə girib tağları,
Ayaqladın, əzdin sən.
Ona görə xiyarın
Acığını yeyirsən.

DANIŞAN MAŞIN

Mənim maşınım çoxdur
Açarla burulan var,
İp ilə sürülən var
Hissələri açılıb,
Yenə də qurulan var.
Təkəri yerə sürtsən
Öz-özünə gedən var.
Siqnalını basanda
“Bibib, bibib” edən var.
Deyirəm:─ Ata, görən
Bir maşın varmı elə
Evdə tək qalan zaman
O danışsın mənimlə?

HƏLƏ BALACAYAM

Qardaşım sürən maşın,
Sən deyən böyük deyil.
İri yük maşınının
Parasıdır elə bil.
Bir şalbanı üç adam
Güclə qaldırır yerdən
Bu maşınsa aparır
Üç şalbanı da birdən

Özü yükləyən”di bu,
Sürür böyük qardaşım.
Belə maşın sürməyə
Haçan çatacaq yaşım?

QAĞAYILAR KİÇİKDİR

Xalamın qızı
Gələndə bizə
Yaman xoşlayır
Baxsın dənizə.

Bircə balıq da
Dəymir gözünə.
Düşünür o da,
Özü-özünə.

─Qağayıların
Kiçikdir axı,
Özü-özümdən,
Gözü-gözümdən,
Balığı necə
Görüb tuturlar?
Bircə andaca
Göydə udurlar...

HAVA SOYUDU

Qızarmış zoğalları
Ülviyyə dərib yeyir.
Turşudur üz-gözünü,
Nənəsi görüb deyir:
─Ondan yaxşı qax olar
Aparıb günə sərsən.

Qışda, soyuqda, qarda,
Çox ləzzətlə yeyərsən
Ülviyyə zoğalları,
Yığıb tez sərdi günə

Heç bir az oynamamış,
Qayıdıb gəldi yenə,
Dedi, hava soyudu
Qaxları yeyim, nənə!

BACIN KİM OLACAQDI?

İkisini də topun
Xanım oynadır yenə.
Übüş yalvarır, bacı,
Birini sən ver mənə.

Xanım danışa bilmir
Ancaq çığırır bərk-bərk,
Haray-həşir qoparır,
Topları verməyərək.

Yetişmiş zoğallar da,
Düşür ikibir, üçbir
Übüş gedib ağacın
Altında durub deyir:

Zoğalların hamısı
Başıma düşsün mənim
Bacın kim olacaqdı?
Qoy başım şişsin mənim.

DONAN HÖRÜMÇƏK

Bir hörümçək soyuqda
Donub yapışıb tora,

—Belə şaxtada, qarda,
Niyə çıxıb bayıra?
—Tora salıb ovunu,
Yeyəcəkmiş hörümçək.
Yuvadan çıxan kimi
Şaxta da dondurub bərk.

NİGAR

Qardaşını döyən Nigar,
Yeməyini yeyən Nigar,
Heç kəsə vermərəm onu
—Qaqaş mənim, —deyən Nigar.

QƏŞƏNG SARA

Rəfiqəm qəşəng Saradı,
Onun gözləri qaradı.
Külək saçını dağıtdı
Mən daraq verdim daradı.

QONŞU OĞLAN

Qonşu oğlandır Namiq
Qəşəngdir sir-sifəti.
Nə olsun bu uşağın
Çox pisdir xasiyyəti.

Anası hara getsə
Ağlayır dalınca o,
Nə var tökür-dağıdır,
Evdə tək qalınca o.
Hamı deyir gözəldir
Namiqin sir-sifəti.
Heç özünə oxşamır,
Bəs niyə xasiyyəti?

ÇİLLİ XORUZ

Dimdiyi qan,
Pipiyi qan.
Bu dalaşqan
Çilli xoruz
Nə dəlidi...
Xoruzları
Qızışdırıb,
Dalaşdırıb,
Döyüləndə
Qaçan zaman
Gülməlidi.

ÖNLÜK

Önlüyüm var,
Güllü çitdən.
İş görəndə
Geyirəm mən.
Səliqəli
Təmiz qalır
Donum yenə.
İndi heç kim
“Pinti qızsan”
Demir mənə.

QORXDU

Übüş bayırdan gəldi.
Dedi: anacan, mənə,
Su ver içim, qorxmuşam,
Qayıdacağam yenə.
Ancaq suyu əvvəl sən,
Pişiyimə verərsən.

Şıqqıltı gələn zaman
O da yanımda idi.
Pişik məndən kiçikdi,
O lap bərk qorxdu indi.

GÖZLƏRİ FANAR

─Qaranlıqda, bayırda,
Gözləri fanar, pişik.
Qalsa soyuqda, qarda,
Üşüyər, donar pişik.
─Qoy gəlsin evimizə,
Səssiz dayanar pişik.
─Xoruldama, uzan, yat.
Bacım oyanar, pişik!

TAPMACA

Ayağı yox, qaça bilmir,
Qanadı var, uça bilmir.
Dili yox, ağzı vardır,
Özü daim sulardadır.
Qulaqları qumda qalıb,
Tapın adı nədir?

─*Balıq*

GÖYDƏKİLƏRİN GÖYÜ

Göyə baxıb yerdən
"Göy" deyirik biz.
Göydəkilərin də
"Göy"üdür dəniz.

DƏNİZİ OXUYUR

Elə bil dəniz
Kitabdı gömgöy.
Külək də onu
Varaqlayır hey.
Dəniz kitabda
Görəsən nə var?
Hər gün oxuyur
Bu qağayılar?!

BALIQ GƏLMƏYƏN DƏNİZ

Akvariuma tökürük
Yosun, balıqqulağı.
Bir tərəfə yığırıq,
Yaşıl mamır qalağı.

Akvarium da dənizdir.
Balıq gəlməyən dəniz.
Bir də balıq heç yana
Qaça bilməyən dəniz.

DARIXMASIN

Mən də təkəm,
Sən də təksən.
Ay Ülviyyə,
Bizə gəl sən.
Kukla, ayı,
Maşın, toplar,
Gör nə qədər
Oyuncaq var.
Dolub bütün
Künc-bucaqlar.
Gəl oynadaq,
Darıxmasın
Oyuncaqlar.

YELPİK

Yelpiyim
Güllüdü.
Qarmon tək
Dillidi.
İstidən bişəndə,
Lap əldən
Düşəndə,
Yelpiyim
Yel deyir.
Üzümü,
Yelləyir.

ŞİRİNİNİ DƏR

Ülviyyə nar istədi
Tez dərib verdim ona.
Turşutdu üz-gözünü,
Baxan kimi tamına.

Dedi: ─Qoy hələ dəysin,
Bunu tax öz yerinə.
Bax, o biri ağacdan
Şirnini dər mənə.

SUSUZ BALIQLAR

Ceyhunla Şahin bu gün
Duzlu balıq yedilər.
Yeyib qurtaran kimi
Susuzladıq dedilər.
Balaca bacıları
Sevinc burada idi.
Bunu eşidən kimi
Tez qaçıb su gətirdi.

Verdi ki, alın için,
Yediyiniz balıqlar
Yəqin ki, su istəyir
Onlar susuz qalıblar.

HARA QONUR

Dənizdə qağayılar,
Hey uçur uzaqlara
Yorulanda bəs onlar
Görəsən qonur hara?
Baba tez cavab verdi
─Sulara, göy sulara.

DƏNİZDƏ

Dalğalar cərgə ilə
Hey düzülür, gəlir bax,
Çatan kimi sahilə
Aşır kəllə-mayallaq.

ŞƏN MƏLİK

Mələk lap tezdən durub
Oyadacaq quşları.
Gülləri, çiçəkləri,
Axşamdan yatmışları.
Sərçələr uçub gələr,
Gül-çiçək açıb gülər.
Məstanı da oyanar,
Qabağında dayanar.
Tezdən oyanar Mələk
Başlanar sevinc, şənlik.

HAMININ DOSTU

Çox dostlarım var mənim,
Vüqar, Yaşar, Aybəniz.
Gülgəz, Elçin, E'tibar.
Birgə oynayırıq biz.

Ancaq hərdən dalaşır,
Vüqar küsür Gülgəzdən.
Mən hamının dostuyam,
Mən küsmürəm heç kəsdən.

SƏHVİMİ TUTMAYIR

Asif axşam dərsini,
Nənəsinə söyləyir.
Bunu görəndə bir gün,
Atası ona deyir:

—Nənən hərfi tanımır,
Söylə bacına, mənə.
Asif cavab verir ki,
Siz səhvimi tutursuz,
Ancaq tutmayır nənə.

YADIMDAN ÇIXDI

—A Qaçay—bağçada sən,
Söylə nə öyrənmisən?
—Yaxşı nəğmə bilirdim,
Sən mənim huşuma bax,
Gətirəcəkdim evə,
Bağçada qaldı ancaq.

YERİYƏ BİLMƏSİN

Bacım çəkdiyi şəkil
Lap oxşayır dovşana.
Qulaqları uzundur,
Bığ da çəkibdir ona.
İndi də üç ayaqlı,
Bu nədir belə çəkdi?

Maraqlıdır, maraqlı,
Guya bu da pələngdi.
Dedi: belə çəkirəm,
Yeriyə bilməsin o.
Ayaqlarını çəkim,
Dovşanımı yesin o?

VURULSAM ƏVƏZİNƏ

Uşaqlar hayla-küylə,
“Vurdum qaç” oynayırdı.
Afiqi oynamağa,
Qardaşı qoymayırdı.
─Sən hələ balacasan.
Gəlsin Yaşarla Aytən
Onlarla oynayanda,
Tuta bilməzlər səni.
Afiq ağlayır ki, yox...
Oynayıram sənə nə...
Qardaşı da çığırır
─Yaxşı, qalmayacağam,
Vurulsan əvəzinə.

PORTDAQ QARĞIDALI

Nənəm tökdü qazana,
Bir ovuc qarğıdalı.
Saldı ocağın üstə
Pıçhapıç qarğıdalı,

Çiçək kimi açmışdı,
Ağ-ağ qarğıdalılar.
Düz bir qazan olmuşdur,
Portdaq qarğıdalılar.

İKİ SÜSƏN

Mənim bacım Süsəndi,
Dibçəkdə də Süsən var.
Deyirəm evimizdə
İki dənə küsən var.

Kim tanısa söyləyir:
─Süsən elə süsəndi,
Bəs o da Süsən kimi,
Əl dəyməmiş küsəndi?!

NƏNƏMİN YUXUSU

Harda otursa nənəm,
Ordaca mürgüləyir.
Başını asta-asta,
Gah qaldırır, gah əyir.
Söyləyirəm, nənəcan,

Yerinə rahat uzan.
Nənəm öpür üzümdən,
Deyir: ─Ağıllı balam,
Çıxmazdım heç sözündən.
Yerimə gedənədək
Yuxum qaçır gözümdən.

NAZİK PALTAR

Soruşdum ki, babamdan,
Kəpənək qalsa qışa,
Görəsən necə uçar?
Düşsə qara-yağışa.

Babam dedi ki, mənə
Kəpənəyin bir dənə
Napnazik paltarı var,
Qışda uçarsa donar.

BABAM ALIBDIR

Babam alıbdır bizə
Əlimizdəki şarı.
Mənimki qırmızıdır,
Qardaşımınkı sarı.
Hər nə alsa cüt alır.
Dalaşmırıq onda biz.
Babam yaman sevinir
Birgə oynayanda biz.

MEYVƏSİZ MORUQ

Bağçadakı moruğun
Gündə üçü dəyirdi.
Elsevər oğrun-oğrun
Tapıb onu yeyirdi.
Evdə heç kəs bilmirdi
Burda moruq kolu var.

Heç yaxına gəlmirdi,
Ata, ana, uşaqlar.
Bir gün necə oldusa,
Gördü kolu atası,
Dedi: ─Meyvə verməyən
Moruğun nə faydası?
Elsevər də buraya
Vaxtındaca çatmışdı
Yoxsa atası kolu,
Kəsib, əzib atmışdı.

KUKLAMIN ƏVƏZİNDƏN

Yemək yemir Ülviyyə
Anası yalvarır: ─Sən,
Ye, bu bircə tikəni
Nənənin əvəzindən,
Al bunu da, bunu da
Atanın əvəzindən,
Ananın əvəzindən,
Matanın əvəzindən.
Tikələri balaca,
Bax, beləcə-beləcə,
Hamının əvəzindən
Yeyib doyur Ülviyyə
Anasını nə qədər
İşdən qoyur Ülviyyə.
Hamının əvəzindən
Bu axşam da yedi o.
Yenə yemək istədi.
Anasına dedi o:
─Yemək yeyəndə hər gün
Kuklam yadımdan çıxır
Yəqin indi acıb o,
Gör bizə necə baxır
Qoy bir az da yeyim mən,
Kuklamın əvəzindən.

BƏHS

Dürdanə Ülviyyənin
Xalasının qızıdır.
Donu yaşıl, şalı ağ
Çəkməsi qırmızıdır.
Bu qızlar cüt dovşan tək,
Hər yerə cüt gedirlər.
Ancaq axşama kimi,

Yamanca bəhs edirlər.
Biri topu götürsə.
O biri də istəyir.
Biri kukla oynatsa,
“Mənimkidir, ver” deyir.
Biri paltar geyəndə,
O biri də geyir tez.
Biri çörək yeyəndə,
O biri də yeyir tez.

Bir gün çağırdı nənə
─Qəşəngcə sırğanız var.
Gəlin, qulağınızı,
Deşim, taxım, a qızlar.
Nənəsi Dürdanənin
Qulaqlarını deşdi.
Taxdı sırğalarını,
Qız da hoppandı-düşdü.
Ülviyyə qorxdu, nənə
Qulağını deşmədi.
Dürdanəylə bəhs etmək
Heç yadına düşmədi.

FIŞQIRIQ

Ramil fışqırığını,
Evlərində itirdi.
Bacısı Xanım xəlvət,
Tapıb onu götürdü.
Düşdü evə-eşiyə,
Ramilin qışqırığı,
Xanım, səndə olacaq,
Tez ol ver fışqırığı.
Qız bic-bic gülüb dedi:
─Salma haray-qışqırıq.

Harda qoydun görəsən?
Məndə deyil fışqırıq...
Ramil çıxır özündən,
Yenə dönmür sözündən:
─Yox mənim fışqırığım
Gizlənib itə bilməz.
Ya bu gün, ya da sabah,
Səsi çıxmayacaq bəs?...

ELƏ BİLİRDİM

Yuxumdan oyananda,
Gördüm ki, yağış yağır.
Qapımızda, hər yanda,
Balaca çaylar axır.
Elə fikirləşdim mən.
Məktəbə getməz heç kim.
Ona görə yenidən,
Qaçıb yerimə girdim.
Nənəm dedi: ─a bala,
Məktəb yağışa baxmır.
Dur, səni salım yola,
Yağış kəsdi, heç yağmır.

Tez durub hazırlaşdım
Birbaş məktəbə qaçdım.
Oraya çatan kimi
Gördüm müəllimimi.
Ay aman, necə işdi?!..
Hamımızdan balaca,
Gülsəba da gəlmişdi!
Elə bilirdim heç kəs,
Yağışda dərsə gəlməz.

ƏKİZLƏR

Bacıdırlar—
Xəzbər, Əzbər.
Əkiz qızlar,
Əlifbanı,
Bilir əzbər.
Bu qızların,
Əkizlərin
Boyları bir,
Üzləri bir,
Saçları bir.
Sözləri bir.
Donlarını
İkisi də
Cüt geyinir.
Nənələri
Tanımayıb
Hey deyinir:
—Ay şeytanlar,
Mən bilirəm
Bir xalı var
Xəzbərimin.
Üç xalı var
Əzbərimin.
Tez qızların
Xallarını
Sanayır o,
Əkizləri
Xallar ilə
Tanıyır o.

ZƏHRANIN ZƏNBİLİ

Zəhranın zənbilində,
İynəsi, sancağı var.
Qayçı, bəzəkli parça,
Yığıbdı rəngli saplar.
Çıl-çılpaq kuklasını,
Yerləşdirib zənbilə.
Sığsaydı qoyardı o,
Çəkməsini də hələ.
Axşamadək əlində,
Gəzdirir orda-burda.
Ancaq bir gün bilmədi
Zənbili qoydu harda?
Dodağını büzərək,
Qız ağlamaq istədi.
Gördü onun zənbili
Çarpayının üstədi.
Yüyürdü ki, kim qoyub
Buraya zənbilimi.
Kukla da içindədir
Geyinib gəlin kimi.
Götürərək bacısı,
Heç deməyib də ona,
Parçasından önlük, don,
Tikibdir kuklasına.

NƏSİNİN QOZLARI

Qoz götürüb bir köynək,
Təpəyə çıxır Nəsi.
Guya yeyə bilər tək
Yaxın qoymur heç kəsi.
Bir qoz düşüb əlindən,
Qaçdı dərəyə sarı.

Onu gətirsin deyə,
Nəsi bütün qozları
Birdən boşaltdı yerə.
Qozlar təpədən aşdı,
Uşaqların hərəsi
Bir qoz götürdü, qaçdı.

QORXAQ QARDAŞ

Xoşqədəm evə gəlib,
Qardaşına dedi: bəs,
Adam da bacısının
Köməyinə heç gəlməz?
Küçədə itlər məni,
Azca qala yemişdi.
Bilmədim necə oldu?
Yollarını dəyişdi.
Qardaşı sevindi bərk:
—İtləri kim döyərdi?
Nə yaxşı mən yox idim,
Onlar məni yeyərdi.

KİM UDAR

Bu gün nənəmiz bizə,
Şəkərçörək bişirdi.
Hərəmizə bir dənə,
Yağlı kökə düşürdü.
Pəh bizim kökəmizin
Şirinliyi baldı-bal.
Üstündə çoxdu xaş-xaş,
Yumurtası boldu-bol.
Dedim indi, uşaqlar,
Hamımızda kökə var.
Kim tez yesə payını,
Udmuş olsun oyunu,

Balaca Nərgiz oldu,
Birinci yeri tutan.
Həm bu oyunu udan,
Həm də kökəni udan.

YELPƏZLİ

Quşların arasında,
Bir “müğənni” var idi.
Guya ki, “gözəl” səsli,
“Gözəl” nəğməkar idi.
Bəzək-düzək içində,
Tamam itib-batmışdı.
Tel kəsdirib gözünün
Düz üstünə atmışdı.
Təxəllüsü “Yelpəzli”,
Bilinmirdi adı da.
Huşu-başı yox idi,
Söz qalmırdı yadında.
Bir gün necə oldusa,
Konsertə düşdü adı.
Onun bu axşam gərək
Bilinsin istedadı.
Söz verildikcə burda.,
Hamı oxuyur bir-bir,
Doğrudan da bu axşam,
Konsert maraqlı keçir
Bu dəfə Yelpəzlinin,
Növbəsi gəlib çatır
Ayağını, ay aman,
Necə də gözəl atır!
Qanadları rəngbərəng
Baş əyir gələ-gələ,
Mikrofon qarşısında,
Əl çalır gülə-gülə.
Hamı sakit dayanır

O hey, baş əyir yenə
Elə bil baxacaqlar,
Onun baş əyməyinə
Axır bu ona baxdı
Bu dönüb buna baxdı.
Tamaşaçılar daha
Dözməyib bərk darıxdı.
─Əşi, oxusun görək,
─Bəsdir, bəsdir, baş əydin.
─Bəzək, düzəyin gözəl,
─Az qala yerə dəydin.
“Mahnı” bəstələyibdir,
Yelpəzli özü təzə
İndi ifa edəcək,
Bu gün ilk dəfə sizə.
Çalğıçılar başladı,
Yelpəzli də oxudu.
Onun səsi çıxmırdı
Taraq-turaq çox idi.
Hər bənddən sonra yenə,
Yelpəzli baş əyirdi.
Elə bil güclə bizə
Gözəldirmi? ─Deyirdi.
Dinləyənlərin çoxu,
Tutmuşdu qulağını.
Kimi hirsindən yerə
Vururdu ayağını.
Yelpəzli Susan kimi,
Rahat nəfəs aldılar.
Bəziləri sevinib,
Hələ əl də çaldılar,
Yelpəzli dayanmadı,
Əl çaldı, hey əl çaldı.
Çalanlar oturmadı,
Ayaq üstündə qaldı.

O, hələ istəyirdi,
Bir dəfə də oxusun,
Gördü ki, zal bomboşdu,
Quşlar da uçub tezcə.
Yuvasına qonmuşdu.
Yelpəzli pis olmadı.
Belə düşündü ancaq
Bir də konsert olanda,
Birinci oxuyacaq.
─Onda görüm əlimdən,
Hara qaçacaq onlar?!
Mənim gözəl paltarım,
Mənim gözəl telim var!

SƏYAHƏT

Mənim nağılım
Yarı yalandı,
Yarı olanda.
Kim istəyirsə,
Qoy qulaq assın.
İstəməyənlər,
Səs-küy salmasın.
Çox-çox uzaqda
Qara dərə var.
Maşın gətirdi,
Ordan uşaqlar.
Qırıq yerini,
Düzəltdi onlar.
Hara istəsən,
Bax, getmək olar.
Quş tək uçurdu,
Bu böyük maşın.
Yarıb keçirdi
Torpağı, daşı
Uşaqlar yemək,

İçmək gətirdi.
Maşına yorğan,
Döşək gətirdi.
Çalan, oxuyan,
Oynayan da var.
Bir ay yol getsə,
Darıxmaz onlar.
Səhər lap tezdən,
Düşüblər yola.
Belə gəzinti
Həmişə ola.

Yatıb-dururlar,
Yeyib-içirlər.
Dağlar keçirlər,
Düzlər keçirlər.
Yolda bir qoca,
Gördülər onlar.
Dayanıb salam,
Verdilər onlar.
Bir uşaq dedi:
─Gəlin götürək
Bu qocanı biz,
Maraqlı olar,
Səyahətimiz.
O biri dedi:
─Bu, artıq yükdü.
Biri söylədi:
─Necə olsa da,
Yenə böyükdü.
Axır qocanı,
Mindirdi onlar.
Suallar verib,
Dindirdi onlar.
─Əmican, hara
Gedirsən belə?

—Yolun uzaqmı?
Yaxınmı hələ?

—Halal zəhmətə,
Vurulmuşam mən.
Ağır işlərdən,
Yorulmuşam mən.
İndi gəzməyə
Çıxmışam özüm.
Sizin maşını
Görəndə düzü,
Dedim, bunlara
Olaydım yoldaş.
Məni maşına
Mindirələr kaş.
Sağ olun, yolda
Qalmadım, bala.

Maşın düzəldi,
Yenidən yola.
Qoca baxırdı,
Hey sağa, sola
Uşaqlar gedir,
Arxayın rahat.
Birdən qabaqda,
Göründü bir at.
Qoca söylədi:
—Saxla, a bala.
Qoy minsin at da.
Bir tərəfdəcə
Bağla, a bala.
At bizə yolda,
Lazım olacaq.
Ot da gətirsin,
Hərə bir qucaq.
Kimi acıqla,

Kimi sevinclə,
Hoppandı yerə
Ot yoldu tezcə
Bir qucaq hərə.
Mindirdi onlar
Atı maşına.
Hamı yığışdı,
Onun başına.
Sığallayırdı
Biri belini.
Biri qorxurdu
Vursun əlini.

Maşın dayanmır,
Uşaqlar sürür.
Sükanı biri—
Birinə verir.
Ona görə də
Yorulmur heç kəs.
Burda uşaqlar.
İnciməz, küsməz.
Qoca aynadan
Çölə baxırdı.
Dərələr, düzlər,
Su tək axırdı.
Yolda gördülər,
Bir qara kömbə.
Eh, lazım deyil,
Onlara kömbə.
Özlərinin bol
Yeməkləri var.
Bir ay yesələr,
Yenə də qalar.
Qoca ayağa
Durub tez dedi:

—Dayan, a bala,
Mən özüm gedim.
Kömbə çörəyi,
Gətirim gəlim.
Yoruldum daha,
Bir az dincəlim.
Düşdülər yerə,
Uşaqlar yenə
Çox söyləndilər
Bir-birlərinə:

—Bu qoca hardan,
Rast gəldi bizə?
Niyə qarışır
İşlərimizə?
Kaş onu yoldan
Götürməyəydik.
Özümüzlə heç
Gətirməyəydik.
Onlar qocaya
Verdi çörəyi.
Qoca qımışdı:
—Olar gərəyim.
Maşın yenidən
Düzəldi yola.
Belə gəzinti
Həmişə ola.

Qocanın yeri,
İsti, rahatdı.
Başını qoyub
Xorhaxor yatdı.
Bir də duranda
Gördü səhərdi.
Çatdıqları yer,
Gözəl şəhərdi.

Bu şəhəri də
Gəzib keçdilər.
Nahar eyləyib
Su da içdilər.

Qoca da fikir
Verməyir yenə.
Uşaqların çox
Deyinməyinə.

Bir yekə qab su
Götürüb gəldi.
Uşaqlar ona
Baxaraq güldü.

Yamanca tez-tez
Acır uşaqlar.
Yemək üstünə
Qaçır uşaqlar.
Hər gün nə qədər,
Azalır yemək.
Lazımdır bir az,
Az yemək demək,

Günlü bir səhər
Gəlib çıxdılar.
Qarlı bir düzə.
Hara baxdılar,

Gördülər qardı.
Qabağı kəsən
Böyük çay vardı.
Bu çayı maşın

Keçə bilmədi.
Qoca tez atın
Yanına gəldi.
Dedi: ─Uşaqlar,

Bax, indi bu at
Keçirər çaydan,
Bizi bu saat
Çox ehtiyatla
Hərə əlində
Bir şey keçirdi.
Atın belində.
Suya saldılar,
Yeməyi ancaq,
Bu qədər adam
Acmı qalacaq?

Onlara yanğı
Gəldi elə bil.
Bu çayın suyu
İçməli deyil
Nəyə lazımdı
Ac, susuz gəzmək?
Geri qayıtsa,
Gəldikləri tək,
Ölər ac, susuz
Yollarda onlar.
Alsınlar yemək,
Bəs hardan onlar?

Qoca söylədi:
─Axı kömbəm var.
O hamımıza
Doyunca çatar.
İndi maşını
Keçirər bu at.
Gedib çatarıq
Biz evə rahat.

At maşını da
Gətirib gəldi.
Uşaqlar baxıb
Sevinib, güldü.

—Sağ ol, ay baba
—Sağ ol, ay baba
Sən olmasaydın,
Yolda qalardıq.
Çörəyi, suyu,
Hardan alardıq?
Onlar maşına,
Tez doluşdular.
Çörək, su görüb,
Şad olmuşdular.
Uşaqlar yenə,
Oxuyur, çalır.
Qocaya baxıb
Çox razı qalır.

Kim acsa gəlib
Çörək istəyir.
Ya da, ay baba,
Susuzam deyir.
Bu qara kömbə,
Bu quru kömbə
Elə bil baldı.

Kim yedi dadı,
Ağzında qaldı.
Babada su var,
Qara kömbə var
Axır ki, gəlib,
Evə çatdılar.

Uşaqlar dedi:
—Babacan gəl sən,
Atı da götür,
Ayrılma bizdən.
Baba söylədi:
—Yox, yox, balalar,

Mənim də evim,
Nəvələrim var.
Gözləyir onlar.
Daha gedirəm,
Salamat qalın.
Hərdən məni də
Siz yada salın.

TOYA GECİKƏN TÜLKÜ

Baxıb qıyqacı-qıyqacı,
Hara gedir tülkü bacı?

—Vardır balaca xalası,
Bu gün ona toy olası.

Tülkü oynaya-oynaya,
Çox sevincək gedir toya.

Görüb çığrışır çiçəklər:
—Tülkü bacı, gəl bizi dər.

Toyda adın başda sənin,
Ancaq əlin boşdu sənin.

Bir-bir hamımızdan qopar,
Balaca xalana apar.

Tülkü fikirləşdi bir az:
—Yox, əliboş getmək olmaz.

Bir dəstə çiçək bağladı,
Əvvəlcə özü qoxladı.

Sonra tullana-tullana,
Yenə düzəldi yoluna.

Qabağına çıxdı kirpi,
Bu tülküyə baxdı kirpi.

Dedi: ─Bacı, bəs toya sən,
Paltarsizmı gedəcəksən?

Yığım əlvan yarpaqlardan.
Yaxınlardan, uzaqlardan.

Sənə gözəl bir don tikim,
Heyran qalsın baxsa hər kim.

Tülkü sevindi-sevindi.
Var bəzəkli donu indi.

Çiçəkləri rəngbərəngdi,
Donu necə də qəşəngdi...

Gedir nazlana-nazlana.
Tülkülər baxırlar ona.

Dələ də gördü tülkünü,
Kefi kökdü həmin günü.

Qabağıını kəsdi onun,
Dedi: ─Mübarəkdi donun!

Ancaq söylə bəs toya sən,
Papışsızmı gedəcəksən?

Otlardan bir papış tikim,
Heyran qalsın baxsa hər kim!
Tülkü fikirləşdi bir az:
─Yox, papışsız getmək olmaz!

Hazır oldu ot papışlar,
Gör bunlardan kiminki var?

Tülkü sevindi-sevindi.
Papışları da var indi.

Ayaqları rahatdı bax...
Toyda yaxşı oynayacaq.

Gedir sevinə-sevinə,
Gedir xalası evinə.

Göbələklər gördü birdən
Çığrışdılar yerbəyerdən:

—Tülkü bacı, bəs toya sən,
Çətirsizmi gedəcəksən?

Hanı bizdən yaxşı çətir?
Birimizi seçib götür.

İslanmazsan yağış yağsa,
Xoşlayacaq hər kim baxsa.

Tülkü fikirləşdi bir az:
—Yox, çətirsiz getmək olmaz!

Paltarı, papışı qəşəng,
Bir əlində tutub çiçək.

Bir əlində tutub çətir,
Tülkü bacı toya gedir.

Baxır sağa, baxır sola,
Gedir, sığmır sanki yola.

Kaş qanadı ola indi,
Onu toya sala indi.

Haçan gedib çatacaqdı?
Gün də yəqin batacaqdı.

Bərk-bərk qaçır tülkü bacı,
Onun ayrı yox əlacı.

Xalasının toyunda o,
Seçiləcək oyunda o.

Axır ki, xalasıgilə
Gəlib çatdı gülə-gülə,

Yoxdur toyun səs-səmiri,
Tüstülənir ocaq yeri.

Dedilər ki, gecikdin sən.
Xalana toy oldu dünən.

–Bay, nə yaman, pis iş oldu,
Tülkünün gözləri doldu.

Çiçəkləri qoxladı o,
Kövrəlib də ağladı o.

Ağız-gözünü əyirdi.
Oxuyub belə deyirdi:

Nola xala, nola, xala
Toyun bu gün ola xala!

TƏRİŞ GÖBƏLƏK YIĞIR

Göbələyə
Gedir qızlar.
Əllərində
Zənbillər var.

Nənə deyir:
–Təriş bala,
Bəs zənbilin
Ola-ola,
Niyə də sən
Göbələyə
Getməyəsən?

Təriş getdi
Qızlar ilə.
Gəlib çatdı
Deyə-gülə,
Göbələklər
Olan yerə.

Heyrətləndi
Birdən-birə.

─Boy, nə qədər
Göbələk var?
Yığsan neçə
Zənbil olar?
Qızlar gəzir,
Qızlar seçir.
Çoxusuna
Dəymir keçir.
Bu qız isə
Yığır elə,
Zənbil dolur
Göbələklə.
Söyləyir o,
─Ay qızlar, siz
Niyə belə
Tənbəlsiniz?
Mən buraya
Çatan kimi,
Doldurmuşam
Zənbilimi.

Bir az keçdi,
Qızların da
Zənbilləri
Doldu daha.
Hamı hazır
Oldu daha.

Lap qabaqda
Təriş gedir,
Hey sevinib
Şadlıq edir.
Nənə çıxır
Qabağına.

Qız zənbili
Verir ona.
Nənə baxdı
Bu zənbilə.
Baxdı birdən
Çox zənd ilə.
Güldü dedi:
─Ay Tərişcan,
Zənbilinə
Nə yığmısan?
Göbələyin
Çoxu bax bir,
Yeməli yox,
Zəhərlidir.
Tez onları
Seçdi nənə.
Yeməlisi
Çıxdı ancaq
Üç, dörd dənə.

QALMIQ-QULMUQ

Qalmıq-qulmuq adında,
Bir dovşan balası var.
Yeyər axşama kimi,
Qarnı doymaz, ac olar.

Gedir xalasıgilə,
Kələm yeyir, kök yeyir.
Süd də içir ləzzətlə,
Yenə doymadım deyir.

Əmisigilə qaçır,
Bir qucaq yonca yeyir,
Sanki yedikcə acır,
Yenə də verin deyir.

Yumşaq olsun, ya da bərk,
Daş olsun, ya da dəmir,
Çiy, bişmiş bilməyərək,
Ötürür doydum demir.

Yorulub ata-ana,
Yemək verməkdən ona.
Qoca nənə, baba da,
Bircə tikə tapanda,
Verir Qalmıq-qulmuğa.
Deyirlər biz də bunu
Bir göndərək qulluğa.

—Yeyib-yatdığı bəsdir.
Boş-boşuna çox gəzdi.
Yəqin darıxır özü.
İşləsə əgər o da,
Tez doyar qarnı, gözü.
Qalmıq-qulmuğu səhər,
Tezdən oyatdı ana.
İşə gedənə qədər,
Yemək yedirtdi ona,
Ancaq doymadı yenə,

Oyandı baba, nənə.
Dedilər yeməyini,
Götür apar işə sən.
Qalanını da orda,
Nahar vaxtı yeyərsən,
Qalmıq-qulmuq bir aləm,
Götürdü yonca, kələm.
Yeməklərin içindən,
Başı güclə çıxırdı.
Eniş, yoxuş keçəndə
Yükü onu yıxırdı.

Axır ki, gəlib çatdı.
İşlədiyi yerə o.
İşlə tanış olmamış,
Baxdı yeməklərə o.
Dedi: ─Bunları yemək,
Düz bircə günlük işdi.
Özüm işləyəcəm tək.
Tez yeməyə girişdi.
Girişdi, nə girişdi.
Yedikcə qarnı şişdi.
Şişdi, şişdi, hey şişdi.
Şişdi oldu dam boyda,
Qarnı tavanı deşdi.

İşçilər gəlib dedi:
─Bir söylə, bu nə işdi?
Qalmıq-qulmuq göstərdi
Süfrəni gözü ilə.
Zarıdı, ağlamsındı:
─Doymamışam heç hələ...
Bu qarnım şişdi niyə?
Az qalır dəysin göyə.
Müdir də gəlib çıxdı.
Təzə işçiyə baxdı,
Hamı pıçıldaşırdı.
Hamı pıqqıldaşırdı
Dedilər həkim gəlsin,
Həkim gəlsin neyləsin?

Həkim özü gəldi ki?
Həkim hardan bildi ki,
Burda işə düşən var.
Burda qarnı şişən var?
Həkim də resept yazdı,
Onun boynundan asdı.
─Az yeyib, çox işləsin,
Qarnı belə şişməsin.

NƏĞMƏ QAPISI

Meşədə bir
Ev var idi.
Hər tərəfi
Gül-çiçəkdi.
Evin dəmir
Qapısının
Qıfılı yox,
Açarı yox.
Bu qapıdan
Girən də çox,
Çıxan da çox...
Zərbə ilə,
Ya güc ilə,
Açılmayıb
Qapı hələ.
Bircə nəğmə
Oxu ancaq.
Dəmir qapı
Öz-özünə
Açılacaq.
Gözəl səsli
Quşlar ki, var
Gah girirlər.
Gah çıxırlar.

Tülkü getdi
Dovşangilə.
Gördü bura
Gəlib dələ.
Onlar nəğmə
Öyrənirlər.
Tülkü dedi:
–Oxumasam
Olmaz məgər?

Yaxşı, onda
Məni də siz,
Aranızda
Keçirərsiz.
Heç həvəsim
Yoxdur indi.
Oxumaq da
Çox çətindi.
Sizə qapı
Açılanda,
Keçəcəyəm
Bircə anda.
Dovşan, tülkü,
Bir də dələ,
Tutuşdular
Tez əl-ələ.
Gəlib evin
Qapısında
Dayandılar.
Hər tərəfə
Boylandılar.
Dovşan dindi:
–Yox, deyəsən,
Oxumasam
Burdan keçə
Bilmərəm mən.
Dovşan nəğmə
Oxudu, bax...
İndi qapı
Açılacaq,
Səs verirdi.
Dələ ona.
Gəldi tülkü
Lap yaxına.
Hələ nəğmə

Bitməmişdi;
Hələ nəğmə
Yarı idi,
Açıldı tez
Dəmir qapı.
“Açılmıram”
Dəmir qapı.
Dayanmadı
Dovşan, dələ,
Keçib-getdi
Gülə-gülə.
Ancaq tülkü
Keçə bilmir.
Köməyinə
Kimsə gəlmir.
O, çığırır
Birdən-birə.
Quyruğunu
Döyür yerə:
─Kimdir məni
Tutan, burax!
Ay yaramaz,
Utan, burax
Yoldaşlarım
Keçdilər, bax...
İndi qapı
Bağlanacaq.
Budur qapı
Bağlandı ki.
Çöldə təkcə
Qaldı tülkü.
“Əh” elədi,
Çıxdı, getdi
Meşəlikdə
Gözdən itdi.

Dovşangilin
Girdikləri
Ev deyilmiş
Gözəl, qəşəng
Bir bağ imiş.
Nə cür desən,
Meyvələr var,
Yayda, qışda
Gətirir bar.
Gül-çiçəklər
Solmayandı.
Ətri xarab
Olmayandı.
Bulaqları,
Şır-şır axır.
Hara baxsan
Nəğmə yağır.
Dovşan dedi:
–Dələ bacı,
Bu da sənin
Qoz ağacın.
Yaxşı olar,
Çıx başına.
At qozlardan
Qardaşına.
Yığım, sənə,
Saxlayım mən.
Özüm üçün
Dərəcəyəm
Kök, kələmdən,
Nə yaxşı ki,
–Nə yaxşı ki,
Öyrənmişik
Oxumağı.
Heyif tülkü

Görəmmədi
Belə bağı.
Gəzdi onlar,
Yedi onlar,
Sonra nəğmə
Oxudular.
Açıldı tez.
Dəmir qapı.
Açılmıram
Demir qapı.
Qaçdı dovşan,
Qaçdı dələ.
Qaçdı onlar
Gülə-gülə.
Yadlarından
Çıxmır bir an.
Kimi görsə
Söyləyirlər
Həmin bağdan.
Gördükləri
Bağda nə var,
Tülküyə də
Danışdılar.
Tülkü dedi:
─Mənə də siz
Bircə nəğmə
Öyrədərsiz.
Gedim, görüm
O bağı mən.
Həvəsləndim
Sözünüzdən.
Gözəl nəğmə
Öyrəndi o,
Keçə bilər
Bax indi o.

Xəbər çatdı
Böyük şirə.
Qəzəbləndi
Birdən-birə.
Necə-necə?
O qapıya
Vuraram mən
Bircə pəncə.
Oxuyacağam
Yox hələ bir...
Nərildədi,
Guruldadı,
Acıqlı şir
O, qapıya
Gəlib çatdı.
Çatan kimi
Təpik atdı.
Ayaqları
Ağrıdı bərk.
Çığırdı o,
Dalı-dalı
Çəkilərək.
Birdən durdu,
Möhkəm durdu.
Qapıya bir
Kəllə vurdu.
Gözlərindən
Od parladı.
Lap yadından
Çıxdı adı.
Nərildədi
Guruldadı:
–Məgər məni
Görən yoxdu?
Mənə fikir
Verən yoxdu?

Açın... Açın...
Qapını siz,
Pəncəm altda
Əzilərsiz...
Meşələrin
Şahıyam mən.
Güclüyəm mən.
Kimsə çıxmaz
Bir sözümdən.

Uçub gəldi,
Bura arı.
Napnazikdi,
Qanadları.
Nə gözəldir
Oxumağı,
Görəcəkdi
O da bağı.

Keçdi arı
Dayanmadan.
Çığırdı şir,
Bağırdı şir.
Köməyinə
Kimsə gəlmir.
O, qapıdan
Keçə bilmir.
Bunu gördü
Alacəhrə.
Cikkildədi:
-Nahaq yerə
Özünü sən,
İşə salıb
Öldürürsən.
Nəğmə öyrən,
Oxu ancaq.

Qapı sənə
Açılacaq.
Şir düşündü,
Düşündü çox
Gördü ayrı
Əlacı yox.
Vardı gözəl
Səsli quşlar.
Budaqlarda
Oxuşurlar,
Nərildədi,
Guruldadı,
Acıqlı şir
─Quşlar, qanad
Açmayın.
Açmayin.
Quşlar, məndən
Qaçmayın,
Qaçmayın!
Mənə nəğmə
Öyrədin siz.
Sonra uçub
Gedərsiniz.
Quşlar xorla
Oxudular.
Bircə anda
Gözdən itib,
Yox oldular.
Öz-özünə
Mızıldandı
Şir də bir az.
Yox, qapıdan
Keçmək olmaz.
Gəlsin dovşan,
Gəlsin dələ.

Öyrənim mən
Gərək hələ.
Dovşan, dələ,
Bir şir səsi
Eşitdilər.
Qızdırdılar
Üşütdülər.
Əsim-əsim
Əsdi onlar.
Gizli yuva
Gəzdi onlar.
Şir çığırdı:
—Mənə nəğmə
Öyrədin siz.
Qorxmayın siz,
Heç üzümə
Baxmayın siz.
Onlar yaman
Qorxurdular.
Ancaq yenə
Oxudular.
Sonra baxdı,
Onlar şirə,
Şir oxudu
Birdən-birə.
Şirin, gözəl
Səsi varmış,
O da belə
Oxuyarmış?!
Şir oxudu
Neçə dəfə.
Səs yayıldı
Hər tərəfə.
Sevincindən
Şirin gözü

Doldu indi.
O mehriban
O mülayim
Oldu indi.
Yerə düşməz
Şirin sözü.
Açılacaq
Qapı özü.

ŞƏFƏQİ ALMAQ OLMAZ

Səhər günəş
Şəfəqləri
Düşür evə.
Tez yuxudan
Durur nəvə.
–Şəfəqcə qız,
Gəl, oynayaq.
Qəşəngcə qız,
Gəl, oynayaq.
Oynayırlar,
Bax beləcə.
Şəfəq deyir:
–Sabah yenə

Mən gələcəm,
Anam günəş
Çağırır bax...
Getməsəm o,
Darıxacaq.
Çıxıb getdi.
Şəfəqcə qız.
Gözdən itdi,
Qəşəngcə qız.
Nəvə deyir:



─O günəşdən
Gərək alım
Şəfəqi mən.
Axşam-səhər
Bizdə qalsın.
Həmişəlik
Mənim olsun.

Şəfəqcə qız,
Düşüb evə.
Qəşəngcə qız
Düşüb evə.
Oyatdı o
Tez nəvəni.
Dedi: ─Təkcə
Qoyma məni.
Nəvə durur
Yatağından
Görür Şəfəq
Otağında.
Söylədi ki,
─Ay şəfəqcə,
─Ay qəşəngcə.
Tezdən durub
Görməmişəm,
Sənə salam
Verməmişəm.
Gah gəlirsən,
Gah gedirsən,
Niyə belə,
Edirsən sən?
Heç bir kəsə
Mən baxmaram
Daha səni,
Buraxmaram.
Qoy gözləsin

Günəş ana.
Lazım deyil
Şəfəq ona.

Şəfəq güldü
─Düşün, bir az
Heç şəfəqsiz
Günəş olmaz!
Inanmadı,
Nəvə dedi:
─Səndən tutub
Qalxacağam
Göyə indi.
Danışaram.
Günəşlə mən
Qoy əl çəksin
Daha səndən.

Şəfəq qalxdı,
Nəvə qalxdı.
Şəfəq qalxdı,
Nəvə qalxdı.
Onlar göydən
Yerə baxdı.
Yer bir fındıq
Boyda idi.
Daha heç nə
Bilinmirdi.

Nənə gəlib
Girdi evə,
Gördü burda
Yoxdu nəvə.
Quşlar cik-cik
Cikkildəşdi:
─Görmüşük biz

Var nəvəndən
Xəbərimiz.
Dən tök bir az,
Yeyək sonra.
Nə görmüşük
Deyək sonra.
Dayanmadı
Nənə bir an,
Dən çıxarıb,
Hey torbadan
Tökdü yerə.
Təki quşlqr
Xəbər verə.
Yedi quşlar
Yedi quşlar,
Cik-cik edib
Dedi, quşlar:

─Gözləyəcəksən
Bu gecə hələ.
Nəvən günəşin
Şəfəqi ilə,
Göyə qalxırdı
Daha bilmirdik,
Nəyə qalxırdı?

Nəvə, şəfəq,
Çatdı göyə.
Günəş dedi,
─Belə niyə?
Oğlan, sənə
Bircə dəfə
Baxaram mən,
Səni burda
Yandıraram,
Yaxaram mən.

Nə cü’rətlə
Qızımı sən,
Məndən almaq
İstəyirsən?...
Nəvə gəldi
Lap yaxına.
Dedi: ─Əziz
Günəş ana!
Çox sevirəm
Şəfəqi mən.
İstəmirəm
Gecə-gündüz
Çıxsın bizim
Evimizdən.
Günəş gördü,
Bu oğlana
Bata bilməz.
Nə yandıra,
Nə də yerə
Ata bilməz.
Belə qoçaq
Mərd oğlana,
Qıyar axıı,
Hansı ana?
Günəş dedi:
─Ağlını yığ
Başına sən.
Bəxtin çəkdi.
Gəldin mənim
Xoşuma sən.
Ağ buludda
Yatıb dincəl.
Səhər tezdən
Yanıma gəl.
Səni yenə
Səfəqimə

Mindirərəm.
Bir baş yerə
Endirərəm.
Sən hər səhər,
Tezdən oyan.
Pəncərəni
Açıb dayan.
Şəfəq balam
Gələr sizə.
Girər hər gün
Evinizə.
Gəlməyəndə
Ancaq hərdən.
Hay-küy salıb
Darıxma sən
Bil ki, onda,
Biz gəzməyə
Gedəcəyik,
Səni də yad
Edəcəyik.
Buludların
Arasında,
Nəvə yatdı
Düz gecənin
Yarısında
Oyandı o
Səhər tezdən.
Günəş güldü:
—Salam apar
Yerə bizdən.
Özüm ora
Gəlməsəm də.
Yerə düşə
Bilməsəm də.
Orda olur,

Şəfəqlərim.
Qoy işıqlı
Olsun yerim.

Şəfəq düşdü,
Nəvə düşdü.
Şəfəq düşdü,
Nəvə düşdü.
Nəvə düşdü.
Onlar lay-lay
Buludlardan
Ötüşmüşdü.
Nəvə bu vaxt,
Birdən-birə
Düz nənənin
Yanındaca
Endi yerə,
Dedi: nənə,
Bilirəm səhv
Etmişəm mən.
İcazəsiz
Getmişəm mən.
Öyrənmişəm
Şəfəqcə qız
Günəşindi.
Qəşəngcə qız
Bizə baxır
Günəş indi,
Şəfəqini
Almaq olmaz!
Ona evdə
Qalmaq olmaz!

ƏTİRLİ KƏPƏNƏK

Çəməndə əlvan-əlvan
Açanda gül-çiçəklər,
Yığışıb qonağlığa
Uçurdu kəpənəklər.

Bir kəpənək söylədi:
─Məni gözləyin, bir az,
Qonaqlığa gedəndə,
Ətirlənməsəm olmaz.

Kəpənək uçdu, uçdu,
Çəmənliyi dolaşdı.
O, gül-çiçək ətrinə,
Bulam-bulam bulaşdı.

BARIŞARAM

İlqar evə gələndə,
Xala söylədi ona:
─Salam deyərsən məndən,
Evdə bacın Reyhana.

İlqar dedi: ─Bacımla
Küsüşmüşük bu səhər,
Salamını aparıb,
Barışaram birtəhər.

ƏSGƏRLİKDƏN QAYIDIB

Əsgərlikdən qayıdıb
Bu gün qardaşım mənim.
Səhərdən iş görürəm,
Açılmır başım mənim.

Qardaşımçün darıxan,
Təkcə mən deyiləmmiş.
Sevinib qaça-qaça
Məstan, Toplan da gəlmiş.

SƏRİNKEŞ

Taxmışıq biz
Sərinkeşi.
Fırlanmaqdır,
Onun işi,
Bilmərik biz
Isti nədir
Sərinləyir
O həm özü,
Həm də bizi
Sərinlədir.

METRO

Metro yaxşı şəhərdir,
Gediş-gəlişi çoxdur.
Ancaq bizim şəhər tək
Onun göyləri yoxdur.

QARDAŞIMI GÖZLƏYİRƏM

─Evə getmirsən
A Çimnaz bala?
Niyə səhərdən
Baxırsan yola?

─Gözləyirəm mən
Qardaşım Həsən
Bu gün ilk dəfə
Gələcək dərsdən.

GƏZMƏK PALTARI

Ay gəlinciyim,
Sənə don biçim
Yaxası qırçın,
Ətəyi çin-çin.

Tikərəm düymə,
Düyməyə dəymə,
Cibləri qoşa,
Saxlarsan boş ha...
Kəməri uzun,
Bağlaram özüm.

Qolu büzməli,
Gülü düzməli,
Belə paltarı
Geyib gəzməli.

GEDİR GÜNƏŞLİ YAYA

Baharın donu yaşıl,
Geyib onu bağça-bağ
Çiçəkləri, bu donun
Həm qırmızı, həm də ağ.

Rəngbərəng çiçəklərin
Necə gözəl ətri var.
Beləcə bəzəndirib
Bağı, bağçanı bahar.
Gedir günəşli yaya, –
Gedir elə bil toya.

BİKƏ

Bikə, a Bikə,
Boyu bir tikə.
Gəlinciyinə
Don tikə-tikə
Öyrənib indi,
Güllü don tikib,
Özü geyindi.

AY KİMİNDİ

─Ay kimindi?
─Ay mənimdi.
─Yox mənimdi.
─Mən birinci
"Mənim" ─dedim.
─Yox, birinci,
Mən istədim,
Uşaqlar çox,
Ay bir dənə.
Hər kəs getsə
Evlərinə
Tezcə salır
O, hay-haray.
Təkcə mənlə
Bax, gedir ay...

ÇİÇƏK

Mənim yaşımda,
Rəfiqəm Çiçək.
Bağışlamışdı
Dibçəkdə çiçək.
Açdıqca çiçək
Hər qış, hər bahar,
Sanki ad günüm
Həmin gün olar.

YADLARINA DÜŞMƏZ

Vedrələri qoyub yerə,
Danışır Aynur, Ülviyyə.
Bir onlara deyən yoxdur
Tələsmirsiz evə niyə?

Danışırlar kuklalardan,
Danışırlar toplarından.
Məstandan da danışdılar,
Toplandan da danışdılar.

Qurtarmayır söhbətləri.
Su gözləyir ata-ana.
Kaş ki, evə getmək düşə,
Bu qızların yadlarına.

ÜZÜM

Üzümə bax, üzümə,
Baxdı mənim sözümə.
Çağırmışam onu mən,
Birinci mərtəbədən.
Divardan tuta-tuta,
Üçüncüyə çıxıbdı,
Hər mərtəbədə barlı
Çardaq qoyub qalxıbdı.

QARMONLU AVTOBUS

Atamla mən minmişdik
Qarmonlu avtobusa.
Dedim: ─İndi o çala
Oturub qulaq asam.
Ancaq o getdi, getdi,
Yolundan qalmadı heç.
Bir oyun havası da
Qarmonu çalmadı heç.

XƏYALPƏRƏST MURAZ

Bizim balaca Muraz
Xəyalpərəstdir bir az.
Oturub göyə baxır
Bilirsən nəyə baxır?
Keçirir ürəyindən
─Kaş göydə olaydım mən.
─Ay yekə topa bulud,
Buluddan qop, a bulud.
Gəzəndə yavaş-yavaş,
Mən olum sənə yoldaş.
Göydən birgə yağaq biz,
Bağ-bağçaya axaq biz.

ÜLVİYYƏNİN TELLƏRİ

Dağılır üz-gözünə,
Ülviyyənin telləri.
Axşam-səhər saçında
Qalır qızın əlləri.

Bir xalanın yanına,
Onu apardı ana.
Saçını qısa kəssin.
Qızın əli dincəlsin.

TƏMİZKAR PİŞİK

Bizim pişik palçıqda
Sanki addım atmayır.
Görən necə yeriyir?
Ayaqları batmayır?

XALXALA GİRDİ

Xallı qoyunun
Xallı balası,
Hardadır, harda?
A xala, xala,
Xallı qoyunun
Xallı balası,
Girdi xalxala.

KƏKLİK

Bir dayan görək, Kəklik,
Donun mübarək, Kəklik.
Geyib təzə paltar sən,
Forslu-forslu gəzirsən.

Vardır təzə yaylığım,
Gəl başına bağlayım.
Gülşənin darağı var,
Elşənin bayrağı var.

Ülviyyənin çəkməsi,
Dürdanənin düyməsi.
Hamısı da təzədi,
Hamısı da gözəldi.

Ancaq görürsənmi biz,
Forslanmırıq heç zaman.
Bəs donun köhnələndə,
Kimlə oynayacaqsan?

KİRPİLƏR

Elnur axşama yaxın
Bağçada oynayırdı.
Burada gül-çiçəklər
Yamyaşıl otlar vardı.

Otların arasından
Balaca kirpi çıxdı.
Ayağını, başını
Bircə andaca yığdı.

Elnur gördü sevindi
Saldı onu yeşıyə.
Kirpi çıxa bilməzdi,
Daha burdan eşiyə.

Elnur mahnı oxudu,
Kirpidəydi gözləri.
Uşağın nəğməsinin
Belə idi sözləri:

“Daha mənimsən,
A kirpi bala.
Ye, yat burada,
A körpə bala.

Gedə bilməzsən,
Burdan heç yana.
İstəsə gəlsin,
Qoy ata-anan.
A kirpi balam,
A körpə balam”.

Ata-ana kirpinin,
Altı balası vardı.
Onlar axşama kimi
Bir yerdə oynayardı.

Ayrı gəzib oynamaz,
Heç vaxt biri-birindən.
Biri itsə, tez xəbər
Tuturdular yerindən.

Onların oynamağa
Həvəsləri lap çoxdu.

Gördülər kiçik qardaş,
Bəs yanlarında yoxdu.

Beş dəcəl bala kirpi
Yamanca bərk qorxuşub.
Axtardılar nə qədər,
Hər enişi, yoxuşu.

Ancaq qardaşlarından,
Tapmadılar bir soraq.
Dedilər anamıza,
Qaçıb xəbər aparaq.

Ana kirpi yuvanı,
Tərtəmiz təmizləyib.
Burda altı balanı
Hər gecə əzizləyib.

Dadlı xörək bişirib
Balalara o indi.
Gördü beş bala burda,
Bəs biri harda idi?

Cavab verdi beş bala:
─İtibdir qardaşımız.
Oynamağa qarışıb
O gedəndə başımız.

Onu tapmaq üçün biz,
Ana, indi nə edək?
Hansı yeri axtaraq,
Hansı tərəfə gedək?

Ana ağladı bərk-bərk,
Saçlarını da yoldu.
Dedi: ─Balam itən yol,
Bu yana gedən yoldu.

Anası Elnurgili,
Göstərir burnu ilə.

—Yaşıl otlu bağçaya,
Biriniz gedin hələ.

Görün, orda nə edir?
Niyə belə gecikdi?
O, çox dəcəl, çox arıq,
Həm də sizdən kiçikdi.

Qardaşlardan qoçağı
İrəli gəldi bir az.
Dedi: —Ana, ağlama,
Bu iş heç belə olmaz.

Gedərəm, axtararam,
Itirmərəm başımı.
Tez tapıb gətirərəm,
Mən əziz qardaşımı.

Qoçaq qardaş yol getdi,
Nə durdu, nə dincəldi.
Düz birbaş Elnurgilin
Bağçalarına gəldi.

O gördü qardaşını,
Yeşikdə oturmuşdu.
Çox ağlayıb, yorulub,
İndi sakit durmuşdu.

Elnur dala baxanda,
Gördü bu kirpini də.

Tez sevinib yeşiyə,
Saldı bu körpəni də.
Fərəhlə gülə-gülə,
Nəğmə oxudu belə:
—A kirpilərim,
A körpələrim.
Oynayın burda

Lap axşamadək.
Bilirəm indi
Darıxmazsız tək.
Kirpilərim var,
Bax, qoşa-qoşa.
Rahat yeşikdə,
Qaçın o başa,
Qaçın bu başa

Gözlədi ana kirpi,
Bu bala da gəlmədi.
Bircə an olsun belə,
Dayanıb-dincəlmədi.

Evdə qalıb bir qardaş,
Bir də üç bacı kirpi.
Bu itkiyə dözərmi,
Söylə, heç bacı kirpi?
Üçü də bir ağızdan,
Dedilər ki, anacan,
Bu qardaşımız niyə,
Getdi, gəlmədi görən?
Onlardan bizə düzgün,
Varmı bir xəbər verən?
Sən fikir etmə, ancaq,
Biz ki, burada varıq.
Iki qardaşımızı,
Axtararıq, taparıq.
Anası tezcə sildi,
Gözlərinin yaşını.
Dedi: ─Yaxşı yol, gedin,
Sağ-salamat gələsiz.
Yenə öz evimizdə
Oynayasız, güləsiz.
Bir qardaş, üç də bacı,
Tutuşdular əl-ələ,

Qardaşının iziylə,
Çatdılar Elnurgilə.

Elnur bir də gördü ki,
Gəlir dörd bala kirpi.
Girir o kola kirpi,
Girir bu kola kirpi.
Onları da götürüb,
Yeşiyə saldı bir-bir.
Dedi: ─Ay aman, görən,
Bunlar haradan gəlir?
Sevincindən uçmağa,
Qanadları yox idi.
Yeşiyin ətrafında,
Oynayaraq oxudu:
─Altı yumağım,
Altı topum var.
Heyran qalacaq,
Bütün uşaqlar.

Yemək verəcəm,
Su verəcəyəm.
Oynasın onlar,
Mən görəcəyəm.

Uşaqları heç,
Qoymaram yaxın.
Deyəcəm gəlin,
Kənardan baxın.

Hər kim onlara
Toxunsa əgər,
İynəsi batar,
Əlini çəkər.

İynəli toplar.
Yumaqlarım var.

Heyran qalacaq,
Bütün uşaqlar.

Axşam oldu, Elnur da,
Gedib sevinclə yatdı.
Unudub kirpiləri,
Şirin yuxuya batdı.

Axşam oldu, ananın
Balaları gəlmədi.
Ata gələnə kimi,
Dayanıb dincəlmədi.

Yorğun gəlmişdi ata.
İstədi bir az yata.
Gəlib ağladı ana,
Belə söylədi ona:

–Gəlmədi altı gülüm,
Qoy olsun mənə ölüm.
Balalarım hardadır?
Yəqin indi dardadır.
Dur, tez ol, gedək, gedək,
Onlara kömək edək.

Bu sözlərdən sonra heç,
Yata bilərmi ata?
Altı göyçək balanı,
Ata bilərmi ata?

Geyinib bircə anda,
Onlar düşdülər yola,
Eyni izlə bir yerə
Gedibdi altı bala.

Bunlar da o iz ilə
Gəldilər Elnurgilə.
Uzaqdan gördülər ki,
Bağçada bir yeşik var.

Balalar bu yeşikdə
Bircə yumaq olublar.

Ata kömək elədi,
Yeşiyə düşdü ana.
Balaları birbəbir,
Çıxarıb verdi ona.

Sonra da özü çıxdı,
Bu yeşikdən eşiyə.
Dedi: ─Evə tez çataq,
Bu körpələr üşüyər.

Gərək indi onları,
Dalımıza götürək.
Gecə keçir, bir az tez
Yuvamıza yetirək.

Hərəsinin üç bala,
Dalında qaçırdı bərk.
Axır gəlib çatdılar
Yuvaya tövşüyərək.

Onlar bütün sözünü,
Yalanını, düzünü,
Səhərə saxladılar.
Altı balanı bir də,
Saydılar, yoxladılar.
Hamı yerində idi,
Ürəklərdə sevinc var.
Səkkiz kirpi yığılıb,
Bircə yumaq oldular.

Yuxudan duran kimi
Elnur küçəyə qaçdı.
Uşaqlara həvəslə,
Kirpilərdən söz açdı.

Uşaqlar çığrışdılar:
─Gəlin, gedək baxaq biz.
Götürək özümüzə,
Bir kirpi də hərəmiz.

Uşaqların marağı,
Elnura yaman xoşdur.
Ancaq bağçaya gəlib,
Gördülər yeşik boşdur.

Gülüşdülər: ─Ay Elnur,
Kirpilər necə oldu?
Elnur çiynini çəkdi:
Nə oldu gecə oldu...

Dedilər: ─Yaxşı, yaxşı,
Bu qədər yalan olmaz.
Yə'ni altı kirpidən,
Biri səhərə qalmaz?..

Yəqin yuxuda kirpi,
Görünübmüş gözünə.
Biz də lap inanmışdıq,
Bu Elnurun sözünə.

Elə Elnur özü də,
Tamam çaş-baş qalmışdı.
Axı o kirpiləri,
Bu yeşiyə salmışdı?!

Görən bala kirpilər,
Yeşiyi necə açdı?
Onlar haraya getdi,
Onlar haraya qaçdı?

Elnur bunun düzünü
Bu günə kimi bilmir.
Daha bağçalarına,
Bircə kirpi də gəlmir.

DƏCƏL CÜCƏ

Kürt toyuğun,
Cücələri
Sarı, qara,
Qaçır tez-tez
Ora-bura.
Başı tüksüz,
Keçəl cücə.
Oldu yaman
Dəcəl cücə.
Evdə gəzir
Cikkildəyə,
Cikkildəyə.
Evdə gəzir,
Qırıq-quruq
Yeyə-yeyə.

Bir səhər də,
Lap az qala
İsti südə
Düşmüşdü o
İndi çoxdan
Bişmişdi o...

Tez cücəni
Götürdülər.
Ana toyuq,
Olan yerə
Ötürdülər.

Umac verdi.
Ana toyuq,
Su göstərdi,
Ona toyuq,
Yedi, içdi,
Dəcəl cücə.

Başı tüksüz
Keçəl cücə.

Yola, izə,
Baxdı cücə.
Tez aradan
Çıxdı cücə.
Qanadını əyə-əyə,
Gəlib çatdı
Gölməçəyə,

Qurbağalar
Quruldadı:
─Gəl, ay cücə,
Sənə üzmək
Öyrədərik.

Suda gəzmək
Öyrədərik.
İnandı bu
Sözə cücə.
İstədi ki,
Üzə cücə.

─Hop, eləyib,
Düşdü suya.
Üzəcəkdir,
İndi guya.

Qurbağalar,
Gözdən itdi.
Hərəsi bir
Yana getdi.

Təkcə qaldı
Dəcəl cücə.
Başı tüksüz,
Keçəl cücə.

Ah, ürəyi
Sıxıldı ki...
Aman, cücə
Yıxıldı ki.

Boğulmuşdu,
Dəcəl cücə.
Başı tüksüz,
Keçəl cücə.

Otdan tutub,
Güclə çıxdı.
Qanadını,
Çırpdı, sıxdı.
Tir-tir əsir
Cücə indi.
Gedəcəkdir
Evlərinə
Necə indi?!

Qaranlıqda
Qaçan zaman,
Ayağına
Batdı tikan.

Qaçdı, qanı
Axa-axa.
Vaxtı hanı,
Ağlamağa?

Çatdı evə,
Ayağı qan.
Cikkildəmir
Qorxusundan.

Ana toyuq
Danladı bərk.
Yuyundurdu,
Su tökərək.

Qanadıyla
Qurutdu tez.
Dəcəl cücə
Üşüməyi,
Qorxmağı da
Unutdu tez.

Kürt toyuğun
Qucağında
Yatır bütün
Cücələri.
Dəcəlin də,
Həm istidir,
Həm yumşaqdır,
Burda yeri.

Ana toyuq
Yatıb çoxdan.
Ayağının
Ağrısından
Yata bilmir,
Dəcəl cücə.
Başı tüksüz,
Keçəl cücə.

ZÜRAFƏ

Bu meşənin
Meyvəsi bol.
Axşamadək
Yanında ol.

Ancaq ondan
Yeyə bilmə,
Bir kimsəyə,
Deyə bilmə.

Dovşan, kirpi,
Beləcədi.
Boyları çox,
Balacadı.

Nə əlləri,
Çatmır dərə
Nə də külək,
Salmır yerə.

Birdən göründü,
Donu zolaqlı,
Zürafə bacı.
Dovşanla kirpi
Yanına qaçıb
Dedilər: ─Bəs biz,
Səhərdən acıq.

Əlimiz çatmır
Budağı əyək,
Dadlı meyvədən
Doyunca yeyək.
Dayandı burda
Tezcə zürafə.
Boylanıb baxdı.
Gah o tərəfə,
Gah bu tərəfə.
Yaman kövrəltdi
Bu sözlər onu.
Ağaca sarı,
Uzandı boynu.

O bircə-bircə,
Meyvəni dərdi.
Səssiz-səmirsiz
Dovşana verdi,
Kirpiyə verdi.

İTİK TAPAN

Nağıl söyləyim,
İtik tapandan.
Kim nə itirsə.
Soruşur ondan.

Bir balaca qız,
Yaman ağlayır.
İtik tapanı
Yolda saxlayır.

—Ay itik tapan,
Ay itik tapan.
Gözləyir atam,
Bir sor halımı,
Axtar şalımı.
Bilmirəm harda,
O düşüb qalıb?
Görəsən nəyə
İlişib qalıb?

Axtarmaqdan lap,
Əldən düşmüşəm.
Bir bax, istidən,
Necə bişmişəm?

İtik tapan tez
Mayallaq aşdı.
Moruq kolunun
Dibinə qaçdı.

Nəğmə oxudu
—Tapıl-tapıl,
Yağlı kökə,
Güllü kökə
Bişirim.
Tapılmasan

Hisli kökə,
Küllü kökə,
Bişirim.
Çağırdı qızı:
─Sənin qırmızı
Şalın burdadır.
Gəl, verim apar,
Onu qardaşın
Beləcə tapar.

Quzuçu bir gün
Çaldı çox tütək.
Yatdı başını,
Yerə qoyan tək.

Başlı-başına
Qalan quzular.
Düzə mələşmə
Salan quzular.

Getdi, nə getdi,
Çoban bilmədi.
İtdi, nə itdi.

Uşaq açanda
Axşam gözünü.
Tək-tənha gördü.
Düzdə özünü.

Tütəyini tez
Çaldı ki, çoban,
Hər tərəfə səs
Saldı ki, çoban,
Bəlkə quzular

Səsə gələlər.
Onun yerini
Belə bilələr.
Bircə quzu da

Gəlmədi ancaq.
Bu boyda quzu
Harda qalacaq?
─Tütək, ay tütək,
Mənimlə gedək,
Qoy yorsun bizi
Dərələr, düzlər.
Qayalar, dağlar,
Cığırlar, izlər.

Nə düzə, nə də
Dağa çıxıblar.
Elə bil onlar
Yoxa çıxıblar.
Ayağı bütün
Olanda qabar.

Fikirləşdi ki,
Itik tapan var.
Yanına getsə
Yəqin ki, tapar.

İtik tapanın
Keyfi kök idi.
Özü də bu gün
Hələ tək idi.

Çoban utandı
Sözünü desin.
Çaldı tütəyi,
Düzünü desin.

İtik tapan da,
Bərk fikrə getdi.
Dedi: ─quzular,
Nə zaman itdi?
Vaxtını desən,

Taparam indi.
Balaca çoban,
Astaca dindi.
─yaşıl otların,
İçində yatdım.
Gün-günortadan
Keçəndə yatdım.

İtik tapan tez
Mayallaq aşdı.
Xallı təpəyə,
Birbaşa qaçdı.

Nəğmə oxudu:
─Tapıl-tapıl,
Yağlı kökə,
Güllü kökə
Bişirim.

Tapılmasan
Hisli kökə,
Küllü kökə
Bişirim.

Gördü quzular,
Pərən-pərəndir.
Dedi: ─a qardaş,
Çal tütəyini,
Quzularını
Dərəyə endir.
Çoban tütəyi,
Çaldı, nə çaldı.
Quzular onu
Dövrəyə aldı.



─Ay itik tapan,
Ay itik tapan.
Bir çəkməm vardı,
Sarı, dikdaban.
Tapa bilmirəm,
İtib dünəndən.
Nə olar indi,
Onu axtar sən.

Itik tapan tez
Mayallaq aşdı.
Tut ağacının
Dibinə qaçdı.

Nəğmə oxudu:
─tapıl-tapıl
Yağlı kökə,
Güllü kökə
Bişirim.
Tapılmasan
Hisli kökə,
Küllü kökə
Bişirim.

Gözləri güldü,
İtik tapanın.
Dedi: ─ay bacı,
Bu, dikdabanın.
Bir də nə zaman
Tut yeyəndə sən,
Dikdabanını
Geyib gedərsən.

ACI DİL

Bir dil düşüb küçəyə,
Yol boyunca qaçırdı.
Hey deyinə-deyinə
Özünə yol açırdı.

Dilsiz bir dovşan çıxdı,
Bu dilin qabağına.
─Mənim dilim ol, deyə,
İşarə etdi ona.

Dil lovğa-lovğa dedi:
─Bu mənim düz sözümdü.
Sənin ağlın çox gödək,
Qulaqların uzundu.
Ancaq daha nə edim,
Sən məni götürməsən,
Axşama qədər qalsam,
Quruyub ölərəm mən.

Tez qaçdı dovşan burdan,
Bu dil necə acıdır.
Qoy yenə dilsiz gəzim, ─
İstiota bacıdır.

Dil hoppana-hoppana,
Tezcə düzəldi yola.
Lal tülkü görüb dedi:
─Bu dil mənimki ola.

Dil durub ötdü dil-dil:
─Ey, lalın biri lalsan.
Yaxşı olar həmişə,
Elə-belə lal qalsan.

Yerdə qalsam ölərəm,
Ancaq mən axşamədək.
Qoy sənin dilin olum,
Hamıya gəlim kələk.

Tülkü qaçdı, nə qaçdı,
Heç baxmadı dalına.
Öz-özünə söylənib,
Dil düzəldi yoluna:
─Bu nə işdir, ay aman,
Belə şey ola bilməz.
Məni sevmir, istəmir,
Məni götürmür heç kəs.

Yolla qaçan bu dili,
Ayı da gördü indi.
Onun da dili yoxdu,
Ürəyində sevindi.
Dil başlayıb lağ etdi:
─Nə yekəpər ayısan,
Nə eybəcər ayısan.
Deyəsən ayıların,
Ən pisinin tayısan.
Dayanma, götür məni,
Ağzına ötür məni.
Ayı mayallaq aşdı,
Buradan uzaqlaşdı.

Axşama az qalırdı,
Dili bərk dərd alırdı.
Heç kim götürmür onu,
Dil eləmir özünə.
Yanından qaçır birbaş,
Qulaq asan sözünə.

Burdan keçirdi çaqqal,
Lap anadangəlmə lal.
Dil onu görən kimi
Yenə çıxdı özündən.

Dedi: ─Kifirlik yağır,
Çaqqal sənin üzündən.
Ağılsızsan, dəlisən,
Lap üstəlik ölüsən.
Ancaq məcbur olmuşam,
İndi özün görürsən
Quruyub öləcəyəm,
Ağzına girməsəm mən.
Tez ol, qoy dilin olum,
Mənim vaxtım qalıb az.
Dayanma, lap qurudum,
Tez ol, tez ol, yaramaz!

Belə düşündü çaqqal:
Bu dildənsə qalım lal.
O da qaçdı yanından,
Dil yenə də qaldı tək.
Heç kim götürmür onu─
Quruyacaq, öləcək.

Bir gürzə ilan gəldi,
Buraya tənginəfəs.
Qıvrıldı, sevindi bərk
“Səni axtarıram, bəs
Harda qalmısan, ay dil,
Necə olmusan, ay dil.
Sən tək olanda yenə,
Götürməyibdi heç kim.
Edərəm iki dilim,
Olarsan haça dilim.

Tez ol gəl gir ağzıma,
Hələ baxma üzümə”.
O, dili öpə-öpə
Dil elədi özünə.

BÖYÜK KONSERT

Bu gün səhər meşədə,
Bir e’lan asılmışdı.
Rəngbərəng hərflərlə,
Burada yazılmışdı:

“Böyük konsert olacaq,
İşləyir altı kassa.
Konsertə baxmayacaq,
Hər kəs bilet almasa.

Birinci nömrəmizdə,
Həm ağ, həm boz ayılar,
Bir-birindən maraqlı
Göstərəcək oyunlar.

Dələlər və meymunlar,
Doğruçu akrobat tək
Ağac başında, yerdə,
Oyunlar göstərəcək.

Bülbüllər ansamblı”
Bu gün bizə qonaqdı.
Bunların nəğmələri,
Həm şəndir, həm oynaqdı.

Ağacdələn solonu
Nağarada çalacaq.
Birinci mükafatı
Qalib gələn alacaq”.

Səs-küy düşdü meşəyə,
Yığışdılar heyvanlar.
Oxudular e'lanı:
"bu gün böyük konsert var".
E'lanı oxuyan tək,
Uçub dəstəylə quşlar
Bilet alıb kassadan,
Qabaqda oturmuşlar.

Gəlir ayılar, fillər,
Gəlir pələnglər, şirlər.
Əllərində bileti,
Cərgəylə əyləşirlər.
Səssizcə oturublar,
Dələ, dovşan, meymunlar.
Baxacaqlar konsertə
Yaman sevinir onlar.

"Diqqət, diqqət!
Konsertə başlayırıq".
Oynadılar, çaldılar,
Oxudular nə qədər.
Meşəyə səs saldılar.
Baxıb heyvanlar, quşlar,
Sevinirdilər necə.
Onlar gözəl yuxular,
Görəcəklər bu gecə.

DOVŞAN BALASI VƏ KƏPƏNƏK

Çox ərköyündür
Dovşan balası.
Əzizləyirdi,
Onu xalası.
Xətrinə dəyməz,
Dovşanın heç kəs.

Bir səhər dovşan
Oynayırdı tək.
Uçub yanına,
Gəldi kəpənək.
Dedi: ─a dovşan,
Bax, təkəm mən də.
Birgə oynayaq,
Bu göy çəməndə.
Dovşan sevindi:
─Yaxşı, ay bacı,
Gəl, sən məni tut,
Qoy mən də qaçım.
Dovşan hoppanıb,
Qaçdı elə bərk.
Uçub burnuna.
Qondu kəpənək.

Çox-çox sevinib,
Çox-şox güldülər.
Oynaşdılar düz,
Acana qədər.

Sözləşdilər ki,
Səhər də onlar
Gəlib burada
Bir oynasınlar.

Dovşan qaçdı tez,
Xalasıgilə.
Dedi: ─ay xala,
Kaş hər gün belə,
Kəpənək gələ.

Biz də birlikdə,
Oynayaq, gülək

Qanadı xallı
İpək kimidi.
O, çəmənlikdə
Çiçək kimidi.

Kəpənək gəldi
Səhər də yenə.
Dovşan da çıxdı,
Həmin çəmənə.

Çox oynaşdılar,
Çox gülüşdülər.

Axşam öpüşüb,
Yola düşdülər.
Hər gün beləcə,
Oynayırdılar.
Oynamaqdan heç
Doymayırdılar.

Gəlmədi ancaq
Bir gün kəpənək.
Dovşan gözlədi
Düz axşamadək.
Bala dovşanın
Gözlərində yaş
Xalasıgilə
O qaçdı birbaş.
Dedi: ─Xalacan,
Kəpənək görən,
Niyə gəlmədi?
Çox gözlədim mən.
Xalası öpdü,
Onun üzündən.
“Kəpənək çıxmaz

Heç vaxt sözündən.
Darıxma, bala,
O, gələr yenə.
Tezdən çıxarsan
Güllü çəmənə”.

Balaca dovşan,
Yatdı birtəhər.
Bir də ayıldı,
Açılıb səhər.
Tez yemək yeyib,
Qaçdı çəmənə.
Çağırdı: ─dostum,
Cavab ver mənə.
O yana baxdı,
Bu yana baxdı.
Gördü kəpənək
Yenə də yoxdu.
Dünənki kimi
Gözlərində yaş,
Xalasıgilə
O qaçdı birbaş.
Xala, kəpənək,
Yenə gəlmədi.
Ona nə oldu,
Niyə bilmədim?

Dovşan gözlədi,
Payız, qış keçdi.
Böyüdü özü,
Qar, yağış keçdi.

Güllər, çiçəklər,
Açmışdı bir gün.
Çəmən yamyaşıl,
Olmuşdu bütün.

Kəpənəkləri
Bu çiçəklərdən
Seçmək olmayır.
Uçurlar şən-şən.
Dovşan da görüb,
Yaman sevindi.
“Dostum yanıma
Gələcək indi”.
Kəpənəklər heç
Baxmırdı ona.
Uçuşurdular,
O yan, bu yana.

Dovşan hoppanıb
Araya düşdü.
Kəpənəklər də
Tezcə uçuşdu.
Ancaq birisi,
Gecikdi bir az
Dovşan qışqırdı:
“Yox, yox, bu uçmaz.
Mənim xallıca,
Kəpənəyimsən.
Harda qalmısan,
Nə zamandı sən?
Çox gözləmişəm,
İndi gəlmisən.
Mənim yerimi
Yaxşı bilmisən.
Gəl, oynayaq biz,
Həmişəki tək”.
Ancaq buradan.
Uçdu kəpənək.

Dovşan qəmləndi:
—onun xətrinə,

Nə vaxt dəymişəm?
Görəsən ona,
Mən nə demişəm?
Qaçdı tez evə.
Dedi: ─Xalacan,
Kəpənək uçdu,
Mənim yanımdan.
Bax, bir az əvvəl,
Yanımda idi.
Elə bil məni,
Heç görməyibdi.
Xala söylədi:
─Otur, balacan,
Həmin kəpənək.
Axı doğrudan.
Səni görməyib
Onunçün uçub
Fikir verməyib.
Böyüyəndə sən,
Öyrənəcəksən.
Bu kəpənəklər,
Yaşayır ancaq,
Payıza qədər.
Sənin dostun da
Qalıb payızda.
O gördüklərin
Çıxıb bu yazda.

GECİKMİŞ TOXUM

Yeni cücərir
Toxumun biri,
Yaman rahatmış
Deyəsən yeri.

Başqa toxumlar
Cücərən zaman,
Tutub dartdılar
Onun boynundan.

“Dur, oyan, vaxtdır,
Dur, oyan, vaxtdır”.
O da gərnəşib
Acıqla baxdı.

Yumşaq torpaqda
Başını atdı,
Yatdı, nə yatdı,
Yatdı, nə yatdı.

Hər toxum tezcə,
Cücərdi özü.
Torpağın üstdə,
Açıldı gözü.

Yaşıl cücərti
Uzandı tağ-tağ.
Gözəl çiçəklər.
Açdı sarı, ağ.

Çiçəklər oldu
Xırda qarpızlar.
Sonra böyüdü,
Burda qarpızlar.

Bostançı hər gün
Dərir onları,
Dost-tanışlara,
Verir onları.
Gecikmiş toxum
İkicə ləçək.
Çıxıb torpaqdan,
Tağları görcək

Ağlayıb dedi:
─Nə edim indi?
Mənim də tağım
Upuzun olsun?
Sizinki kimi,
Qarpızım olsun?

Qarpız topları,
Dindi yer-yerdən:
─Ancaq bu sözü,
Günəşə de sən.
Əgər istəsə,
Tez boy atarsan.
Tağların olar,
Bizə çatarsan.

İkicə ləçək
Dedi: ─Gəl, günəş,
Dedi: ─Gül, günəş.
Böyüyüm mən də,
Böyüyüm gündə.
Günəş söylədi:
─A ləçək bala,
Niyə qalıbsan,
Hamıdan dala?
Yazda durmadın,
Tənbəllik etdin.
Çox şirin, dərin,

Yuxuya getdin.
Qarpız yetişməz,
Bu gündən belə.
Gərək qalasan
Sən gələn ilə.
İkicə ləçək
Dillənmədi heç.

Bu ləçəkləri
Yellənmədi heç.
Necə çıxacaq
Borandan, qardan?
O gələn ilə,
Qalacaq hardan?

DƏLƏ VƏ ŞEŞƏQULAQ

Darıxmışdı
Dələ lələ.
Bir gün dedi,
Gülə-gülə:
─Şeşəqulaq,
Şeşəqulaq
Gəl dost olaq.

Şeşəqulaq.
Dovşan durdu,
Ayağını
Yerə vurdu.
─Dələ lələ,
Mənimlə sən,
Dost olmaqmı,
İstəyirsən?
Şadam buna,
Bizə gedək.
Bir oturub
Söhbət edək.

Dovşangilə
Getdi onlar.
Oturdular,
Danışdılar.

Dələ evə
Gedən zaman

Dayandırdı,
Onu dovşan.
─Dələ lələ,
Dələ lələ.
Gəl bizə də,
Hər gün belə.

Ancaq tapsan,
Bir az kələm,
Gətirərsən.
Bir az yonca,
Götürərsən.
Başqa yemək
Məndə çoxdu
Bunlardan heç
Evdə yoxdu.
─Gətirərəm,
Dedi dələ.
Görüşdülər,
Öpüşdülər.
Ayrıldılar
Dovşan ilə.

Dələ yenə,
Darıxırdı.
Yola-izə,
Hey baxırdı.
─Nə gələn var,
Nə də gedən.
Görən indi
Nə edim mən?

Aha, tapdım,
Şeşəqulaq
Bir dostum var.

Yəqin indi,
Evdə olar.

Tez otlardan
Papış tikim.
Gedim ona,
Bir baş çəkim.

Üst-başını,
Özü bəzər.
Papışımı
Geyib gəzər”.

Çox sevindi,
Dələ lələ.
Papışları
Aldı ələ.

Yol başladı
Şeşəqulaq
Dovşangilə.
Heç bir azca
Getməmişdi;
Yolu yarı,
Etməmişdi.
Yaman fikrə,
Daldı birdən.
O yadına
Saldı birdən.
Öz dostunun
Sözlərini.
Yerə dikdi,
Gözlərini:
Şeşəqulaq
Kələm, yonca
İstəmişdi,
“Hardan tapım,
Onu indi?
Gedəmmərəm
Yox, mən belə”.

Papışları
Dələ lələ,
Atdı çox-çox
Uzaqlara.
Bilmədi heç
Düşdü hara.
Baxdı sola,
Baxdı sağa.
Qaçıb getdi
Dələlərlə
Oynamağa.

PIÇ-PIÇ NİSƏ

Pıç-pıç Nisə
Nə eşitsə
Pıçıldayır.
Gah bu qızın
Qulağına.
Gah o qızın
Qulağına.

Söz daşıyır,
Ondan buna,
Bundan ona.
Səhər idi.
Gülnaz dedi:
–Bir söz deyim,
Nisə, sənə.
Ancaq demə,
O Süsənə.
Onun topu
Elçindədi.
Arxlarının

İçindədi.
İnanmırsan,
Get, özün bax.
Indi Elçin,
Oynadacaq.

Süsəngilə,
Qaçdı Nisə.
Topdan söhbət
Açdı Nisə.
—Pıçı-pıçı,
Topun hanı?
Xəbərin var?
Pıçı-pıçı,
Elçingildə,
Bəlkə olar?

Süsən güldü;
—Bilirəm mən.
Özüm verdim,
Ona dünən.
Dedim oynat,
Topumu sən.
Sonra yenə
Gətirərsən.
—Pıçı-pıçı,
Aybənizin
Ağ iti var.
Pıçı-pıçı,
Ay Gülnara,
Getmə ora,
Səni tutar.

Pıçı-pıçı:
Ağ it, ağ it
Yaman tutur.
Hop eləyib,
Birdən udur.

Pıçı-pıçı
Kimi görsə
Danışırdı
İtdən Nisə
Ağ iti mən,
Özüm gördüm.
Hələ ona
Salam verdim.
O mehriban,
Həm də qəşəng,
Cumbuludur,
Lap dovşan tək.

–Pıç-pıç Nisə,
İt eşitsə.
Ondan yalan
Danışırsan,
Səni tutar.
Hop eləyib,
Birdən udar.

GÖLDƏ ÇİÇƏKLƏR

Bir göl vardı,
Suyu sərin.
Suyu duru,
Dibi dərin.
Göldə gözəl
Çiçəklər var,

Axşam açar
Səhər solar.
Açan zaman
Qorxur onlar
Hər tərəfə
Baxır onlar.
Həmin gölün
Lap dibində
Qorxunc, dəli
Tufan yatır.
Bir tərəfdə,
Çiçək sevən,
Haçadilli,
İlan yatır.

Göldə tufan
Qopsa birdən,
Əsər qalmaz
Çiçəklərdən.

Onlar suya
Qərq olmazmı?
Bu, ilana
Dərd olmazmı?
Çiçəklərə
Keşik çəkir
İlan hər an.
Doya bilmir
Çiçəklərin
Qoxusundan.

Tufan bilmir
Necə etsin,
Ilan burdan
Çıxıb getsin.
O da azad

Əl-qol atsın.
Bu çiçəklər
Suya batsın.
Tufan dedi:
─İlan qardaş,
Yaxınlıqda
Bir göldə var.
Orda sənə
Yoldaş olar.

Sən get ora.
Çiçəklərə
Keşik çəkim
Burda özüm.
Üstlərində
Olacaqdır,
Hər vaxt gözüm.
Görürəm tək
Darıxırsan,
Ora-bura
Çox baxırsan.

İlan güldü:
─Elə sözü
Demə mənə.
Sözüm yoxdu
Getməyinə.
Çıx özün get.

Fikirləşdi
Tufan bir az:
─axı, mənə
Qalxmaq olmaz.
Çiçəklərin
Ölüb gedər.

Ləçəkləri
Solub gedər.

Yığış, sən get,
Burdayam mən.
Muğayatam
Çiçəklərdən.
İlan gölə
Üzdü birbaş
Gördü yoxdu
Ona yoldaş
Kor-peşiman
Döndü geri.
Bir-birinə.
Dəyən gördü
Çiçəkləri.

Qalxıb tufan
Çiçəklərə
Uddurur qan,
Ləçəkləri
Yolunur hey,
Əzilir hey,
Yaralanmış
Çiçəklərdən,
Su üzünə
Düzülür hey.
Burda yaman
Coşdu ilan.
—Ah, gör məni
Tufan necə
Aldadıbdı!
Çiçəklərim
Açan gecə
Aldadıbdı!
Tez tufanı
Uddu ilan:
Sən demisən

Manə yalan!
Mən də səni
Uddum belə.
Açıb rəng-rəng
Çiçəklərim.
Düzüləcək.
Yenə gölə.

ÇÖRƏK ƏTRİ

Çörək bişirir dovşan,
Üz-gözündən tər axır.
Tülkü, balası ilə
İsti çörəyə baxır.

Dovşan da görən kimi
Tez çağırdı tülkünü.
─Gəlin aparın yeyin
Çörəyimin ilkini.

Tülkü aldı çörəyi,
Ana-bala yedilər.
─Biz doyduq, sənin ağzın,
Şirin olsun,─dedilər.

Bişmiş çörəklər ilə,
Təndirin başı dolur.
Bura gəlir dörd dələ.
Dovşan yaman şad olur.

Onları da çağırır:
─İsti çörək kəsin siz.
Düşübsüz qismət üstə,
Sonra yenə gəzərsiz.

Dələlər deyə-gülə
İki çörək yedilər.



─A dovşan bacı, ağzın
Şirin olsun,─dedilər.

Bu çörəyin ətrini
Kirpilər hardan bildi.
Kol-kosa sinə-sinə
Yeddisi birdən gəldi.

Əl-ayaq açdı dovşan,
Beş-altı çörək kəsdi.
Dedi: ─siz yeyin, doyun,
Nə qalsa mənə bəsdir.

İsti, dadlı çörəyi
Kirpilər də yedilər.
─A dovşan bacı, ağzın
Şirin olsun,─dedilər.

Yeyilir bircə anda.
Bir tərəfdən bişənlər.
Dovşan təntiyir yaman,
─Qismət üstə düşənlər,

Birdən kənardan baxar─
Birdən yadımdan çıxar
Çörək kəsməmiş gedər,
Əməyim olar hədər.

Dovşan isti çörəkdən,
Burdan gedənə verdi.
Burdan gələnə verdi.
Sərçəyə, qaranquşa
Ağacdələnə verdi.

Lap axırdan-axıra
Özünü yada saldı
Ona çörəyin ətri,
Təndir istisi qaldı.

MƏN KÜSMÜŞƏM

Mən küsmüşəm anamdan,
O getmədi yanımdan.
Yağır dümağ, dümağ qar
Qoymadı yeyəm ondan.
Mən anamdan küsən tək
Çəkməm mənlə dalaşdı.
Bağını çəkdim bərk-bərk,
Açılmadı, dolaşdı.

Donuma nə dedilər
Baxmır mənim sözümə.
Çalışıram nə qədər,
Geyilir tərs üzünə.

Mən küsmüşəm anamdan,
Qoy gedim yatım bir az.
Qırmızı, güllü yorğan,
Mənlə küsməz, dalaşmaz.

Yorğanım, ört üstümü,
Yorğanım, ört üstümü,
Ayağım açıq qalır–
Sən də məndən küsdünmü?

Gedim öpüm anamı,
Danışdırım anamı:
Qar yemək istəmirəm
Mənlə barışsın hamı!

QUZUMUN QOTAZI

Quzumuzun boynunda,
Ağ qotazı qoşadı.

Elə zərif, qəşəngdir,
Ağ muncuğa oxşadı.
Bərk bitişib boynuna,
Əl ilə yoxlanmır o.
Bacımın muncuğu tək,
Açılıb-bağlanmır o.

PAPAĞIN BAŞINA

Pərvizin papağı var
Yumşaq, tüklü papaqdı.
Meyvə dolu səbətə,
Papaq hərdən qapaqdı.

Qucağında, əlində.
Saxlayır papağını.
Qoz-fındığı doldurub,
Bağlayır papağını.

Bə'zən görürsən papaq,
Ağacın başındadır.
Ya gülün başındadır,
Ya Pərvizin bacısı
Ya da qardaşındadır.

Papağı papaq kimi,
Oğlan qoymur başına.
Oyun qalmır açmamış
Bu papğın başına.

YUXU

Gündüz məni bir uşaq
Qaçışda ötə bilməz.
Gecə yuxuda ancaq,
Qaçammıram, niyə bəs?

Bu axşam yatan kimi,
Gəldi Süsənbər, Mahir.
Meşəyə çatan kimi,
Qarşımıza çıxdı şir.

Uşaqlar tez qaçdılar,
Şirdən uzaqlaşdılar.
Ayaqlarım qaçmadı,
Sözümə baxmadı heç.

Istədim ki, çığıram,
Səsim də çıxmadı heç.
Yaman qüvvətli idim,
Mən bu gecə yuxumda.

Şiri tez yerə sərdim,
Görün necə yuxumda.
İnanmırsınız mənə?...

Lap gedin, soruşun siz.
Süsənbərdən, Mahirdən.
Bax onda görərsiniz,
Yalan danışmıram mən.

Bacılar

İki bacı var**:**
Biri ağlağan,
Biri güləyən
Biri qəmlidi,
Biri hər vaxt şən.
Ağlağan bir gün
Ağlayıb yenə
Yorulub dedi
O güləyənə:
─Adam bu qədər,
Heç paxıl olmaz,

Gəl əvəzimdən
Ağla sən bir az.
Güləyən güldü:
–Bircə damcı yaş
Axsa gözümdən
Xoşum gəlməyir
Onda özümdən.
Hazır sən mənim
Çıxma sözümdən.
Lap yorulmuşam
Gül əvəzimdən.

Daha nə etsin?
Ağlağan güldü.
Birdən bu gülüş
Xoşuna gəldi.
Gözü ağrımır,
Gözü gülürdü,

Üzü çirklənmir,
Üzü gülürdü.
Görən bacısı
Bu gülüşünü
Alacaqdımı?
Qız əvvəlki tək
Yenə ağlağan
Olacaqdımı?
Güləyən xeyli
Dincəlib gəldi.
Yenə də şən-şən
Oynayıb-güldü.
Ağlağan indi
Yaman sevindi.
Axı bu gülüş
Özündə qalıb,
Onun balaca

Gözündə qalıb.
Ağlamağını
Bilmədi harda
Itirdi bu qız.
Qəşəng uşaqlar,
Gözləyin birdən
Siz taparsınız...

UÇ-UÇ APARMASIN

—Mehriban, bacın pisdi,
Uç-uç aparsın onu.
—Uç-uç aparmasın, yox
Ondadır güllü donum.

—Hərdən bacın dalaşıb
Bəs səni döyür axı?
Nə olsun, sonra öpüb
Ağlama deyir axı!...

BACIM DEYİLSƏN?

Gülnaz xəstələnmişdi,
Ona iynə vurulur.
Uşaq istəməsə də,
Səhər yenə vurulur.
Həkim tapşırıb, olmaz
Ona qızartma yemək.
Qaymaq, kabab, yumurta,
Ya da bozartma yemək.

Acı da, turş da olmaz,
Tamatlı borş da olmaz.
Olar soyutma kartof,
Südlü sıyıq da yesin.
Qatıq içsin hər axşam,
Kişmiş, noğul istəsin.

Həkim icazə vermir,
Həkim buyurmur nəyi.
Gülnaz istəyir yesin,
Elə həmin yeməyi.
Bacısı da bu zaman
Onun başını qatır.
─Bəh, bəh, necə dadlıdır,
Südlü sıyıq, həm qatıq.
Sənin yediklərindən
Heç gör biz istəyirik?
Soyutma kartofundan
"Bizə də ver" ─deyirik?
Uşaq da incik-incik
Dedi: ─Ay bacı, niyə,
İstəmirsən bunları?
Gərək özüm tək yeyəm?
Dadlı, südlü sıyığı,
Kartofları da ye, sən.
Qoy yeməyim qalmasın,
Mənim bacım deyilsən?

DEYƏCƏM

Ay telefon, nə oldu,
Yenə susmusan bu gün?
Darıxıram atamçün,
Darıxıram anamçün.
Özün məni səslədin,
O gün gecə danışdım.
Mən atamla, anamla
Gördün necə danışdım...
Susma, səslən, telefon,
Sən kimi gözləyirsən?
Bəlkə sən atamgilin
Səsini gizləyirsən?

Onlar da darıxırlar
Mənimlə danışmaqçün.
Hamısını deyəcəm,
Atamgil gəlsin bu gün...

TELEFON SOYUQ DEYİL

Səadət xəstələnib,
Bağçaya da getmir heç.
O, axşam lap tez yatır,
Səhər də lap durur gec.
Düz üç gündür uşaqlar
Onun yanına gəlmir.
Qız da darıxır yaman
Evdə durub dincəlmir.

Anasıyla danışır:
─Başım da ağrıyır bərk.
Nigar, Vüsal, Yeganə
Bizə gələydi gərək,
Anası cavab verdi:
─Hava soyuqdu, qardı,
Yoxsa gələrdi onlar
Çox yaxşı uşaqlardı.
Bu sözdən incidi qız:
─Telefon soyuq deyil.
Danışsalar səsləri.
Üşüyəcək elə bil.
Zəng edib danışaram,
Özüm onlarla bir-bir.
Niyə gəlmirlər bizə?
Görüm onlar nə edir?

QIZDIRMAM DÜŞƏCƏK

Səadət hiss elədi,
Ona yaman istidi.
O istilik ölçəni
Anasından istədi.
Anası öpdü, gördü
Qızdırması var qızın.
Qorxdu keçməz bir azdan,
Halı pis olar qızın.

Ana həkim çağırdı,
O gəldi iynə vurdu,
Həkim də gedən kimi
Uşaq yerindən durdu.
Narahat oldu ana:
─Qızım, hələ qalxma sən.
İndi iynə vuruldu,
Axı sən xəstəsən?

Səadət güldü: ─Yox, yox,
Mən niyə xəstə oldum?
Bu istilik ölçənə,
Bir az qızdırmam doldu─
O da hündürə qalxdı,
Həkim də gəldi baxdı.

Sən istilik ölşəni,
Ana silkələ bərk-bərk, ─
Qızdarmam öz-özünə
Lap aşağı düşəcək.

DƏRSİNİ BİLMƏYƏN TONQAL

Nənə yığdı xəzəli,
Tonqal basdı dörd topa.
Belə maraqlı işi
Səadət hardan tapar?
Çubuq aldı əlinə─
Qız tez müəllim oldu.
Tonqalların birindən
Gözünə tüstü doldu.
O, danladı tonqalı:
─Öyrənmədin dərsini?
Eşitmədin yananın,
Heç çırtıltı səsini?
Yanmırsan, bax, beləcə...
Elə tüstüləyirsən...
Yan, a tonqal, bəs “iki”
Almaqmı istəyirsən?
Yan, a tonqal, bu ləkdə
Qalmaqmı istəyirsən?
O biri tonqallara,
Bax, gör necə yanırlar.
Sənin tək tüstüləmir,
Yaxşı alovlanırlar.
Onlar alovlarını,
Hələ artıracaqlar.
Onlar “iki” almayıb.
Onlar ləkdə qalmayıb
Yanıb qurtaracaqlar.
Öyrənirəm dərsimi,
Heç iki almıram mən.
Pis oxuyanlar kimi,
Sinifdə qalmıram mən.

Sən də öyrən dərsini,
Niyə tüstüləyirsən?
“İki” alıb bu ləkdə
Qalmaqmı istəyirsən?

QURDLARIN EVİ

Babam qazır torpağı,
Daraşır soxulcanlar.
Necə nəfəs alırlar
Yerin altında onlar?

Bildim, gördüm qurdların,
Evi yerin altdadır.
Onların yolu, izi
Dərin-dərin qatdadır.

Dedim: ─Soxulcan gərək.
Torpaqda yatsın, dursun?
Qoy gəlib evlərini
Yerin üstündə qursun.
Elşən dedi: ─Bu qurdlar,
Nə bilir ev qurmağı?
Axı bacarmır onlar
Ayaq üstə durmağı...

MƏN DƏ AĞLAYIRAM

Ülviyyə dedi: ─Ana,
Evdə yoxsuz nənə, sən.
Ramil, Xanım kirimir,
Ağlayırlar səhərdən.
Ana dedi: ─A qızım,
Bəs sən harada idin?
Bacını, qardaşını
Niyə sakit etmirdin?

Ülviyyə kövrəldi ki,
Heç kəsə baxmayırdım.
Elə mənim özüm də
Səhərdən ağlayırdım.

BOYUM UZANIB

Bir səhər gəzə-gəzə,
Çıxdıq çiçəkli düzə.
Sarı “boyçiçəyi”ni
Nənəm göstərdi bizə.

Söylədi: ─Bu çiçəyin,
Yaman gözəl ətri var.
Hər kim dərib qoxlasa,
Onun boyu uzanar.

Mən də dəstə bağladım,
Evimizdə saxladım.
Boyum uzansın deyə,
Axşam-səhər qoxladım.
Biləsiz, belə yaxşı,
Ətirli çiçək olmaz.
Axı, deyəsən mənim.
Boyum uzanıb bir az...

MƏNİ GÖRDÜMÜ?

Oxuyub-oynayırdı
Televizorda bacım.
Qəşəng idi paltarı,
Sığallı idi saçı
Ekranın qabağında
Yaman sevincək idim.
Görən məni gördümü,
Ona əl də elədim...

BİRCƏ DƏFƏ

Ay itlər, ay pişiklər,
Ay quzular, qoyunlar.
Sizi gözlər çöl-bayır,
Sizi gözlər oyunlar.

Ya boş yerə qaçırsız,
Ya hoppanıb-düşürsüz.
Ya ağaca dırmaşır,
Ya torpağı eşirsiz.

Bir-birinizə bə'zən.
Hirslənib durursunuz.
Ayağınızı tez-tez,
Yerə də vurursunuz.

Ananız bircə dəfə,
Papış geydirir sizə.
Onlar da heç cırılmır,
Yaxşı ki qalır təzə.

Univermaqda rəng-rəng,
Papışlar, çəkmələr var.
Ancaq ki ananızı,
İçəri buraxmazlar.

Cırılsa papışınız,
Ayaqyalın qalarsız.
Bilmirəm təzəsini,
Siz, heç hardan alarsız.

NECƏ YUSUN?

Dırnağı rəngli Gülnaz,
İşlər olub dolaşıq.
Fincanlar çirkli qalıb,
Boşqablar da bulaşıq.

Görən qıza nə olub?
Bu qız kimlə dalaşıb?
Tökülüb stol üstə,
Şəngəl, bıçaq, həm qaşıq.

Pozulub səliqəsi,
Ev-eşik də qarışıb.
Çıxmır Gülnazın səsi,
Kimlə küsüb-barışıb?

Cuppulu dırnaqları,
Qırmızı nar dənəsi.
İşə buyura bilmir,
Bu gün qızı nənəsi.

Necə iş görsün axı?
Necə yusun qab-qacaq?
Dırnaqlarının rəngi
Bir andaca qopacaq.

ONDAN AL

Çimnazın çəkməsinin
Sarısı var, ağı var.
Geydiyinin düyməsi,
Evdəkinin bağı var.
Çəkələklərinin bir bax,
Muncuqları rəngbərəng,
Səndəlinin üstündə
Açıb qırmızı çiçək
Samirənin səndəli,
Kəpənəkdir elə bil.
Çimnaz deyir, ay ana,
Mənimki ondan deyil.
Xatirə, Nigar, Günay,
Ayağına nə geyir...
Uşaq hay-həşir salıb,

Ana, bundan al, ─ deyir.
Qızın xasiyyətini,
Uşaqlar bilir indi.
Kim ayağına təzə,
Ayaqqabı geyindi─
Yaxın gəlmir Çimnaza,
Qaçır onun yanından.
Qorxurlar ki, deyəcək
─Ana, mənə al ondan.

QAYÇI GÖRƏN İŞ

Bu Ramilin
Dırnağı yox.
Uşaqları
Cırmağı yox.
Dırnağını
Necə yeyir?
Gündüz yeyir,
Gecə yeyir.
Bunu özü,
Bilmir düzü.
Ana deyir,
Nənə deyir:
Dırnağını
Yemə deyir.
Neyləyib ki,
Dişi ona? ─
Hey, gördürür,
Qayçı görən
İşi ona.

ÜZÜKLƏR QOYMUR

Nazli qizdıTəranə,
Ərkəsöyün baladı.
İş buyurdum görmədi,
O, başını buladı.

Hara getsələr gərək,
Dayı, əmi, xalalar.
Qızın xoşuna gələn
Hədiyyələr alalar.

On barmağı var onun
Üzüklüdür onu da.
Sancaqları rəngbərəng,
Parıldayır donu da.

Çığrışıb-bağrışaraq,
Oynaşırlar uşaqlar.
Yumşaq qumun içində,
Qaynaşırlar uşaqlar.

Təranə gəlmir yaxın,
Durub kənardan baxır.
Qorxur ki, üzükləri
Qırılar düşər axı!

Uşaqlar top oynayır,
Qız yenə gəlmir yaxın.
Boş deyil barmaqları,
Necə oynasın axı?

Üzüklər də gözəldir,
Həm yaxşıdır oynamaq.
Qızın xoşuna gəlmir,
Bir tərəfdə dayanmaq.

Onun barmaqlarında
Üzükləri var axı?
Qoymur qızı oynasın
Durub kənardan baxır...

GÖZÜ “DÜYMƏ”

Xanım təzə donunu
Geydirir ayısına.
Əl-qolunu burur bərk,
Az qalır qolu sına.

Oturdur çarpayıda
Öpür, sevir, oxşayır.
Evdə baxıb deyirlər:
─Ayın sənə oxşayır.

Xanım küsür inciyir:
─Bunun gözü “düymə”di.
Heç ağzı da yoxdur ki,
Yemək verdim yemədi.

MUŞTULUQ İSTƏYİRƏM

Anam demişdi mənə,
Qardaşın gəlsə haçan,
Birinci xəbər versən,
Muştuluq alacaqsan.

Qardaşım gələn kimi,
Tez xəbər verdim özüm.
Anam da konfet verdi,
Əlində qaldı gözüm.

Dedim: ─Ana, axı sən,
Niyə konfet verirsən?
Mən bunu neyləyirəm,
Muştuluq istəyirəm!

QRİP KİMƏ KEÇSİN

Xalamın fincanında
Adil axşam çay içdi.
Çox oturdu yanında
Ona da qrip keçdi.

Adildən Aybənizə,
Sonra Aytənə keçdi.
Aytəndən də Pərvizə
Axırda mənə keçdi.

Heç kəs mənlə oynamır,
İndi lap qalmışam tək.
Qorxurlar ki, qripim,
Onlara da keçəcək.

Mən də fikirləşirəm
Bəs bu necə olacaq?
Yanıma gəlmir heç kim,
Qrip məndə qalacaq?!

GÖZLƏ, YATIRAM

Bağçadaki uşaqlar
Tezcə yuxuya dalır.
Yata bilməyir Ramil,
Eləcə oyaq qalır.
Çarpayı qonşusu da
Axır yumur gözünü
Uşaq da fağır-fağır

Ona tutur üzünü.
Deyir: ─Yatma, nə olar,
Məni də gözlə hələ.
Bax yuxum gəlir indi,
Gözüm yumulur elə.

ƏRİK

Ərik, ərik, ay ərik,
Çiçəyini dərmərik.
Dəstə bağlayıb ya da
Yolub yelə vermərik.

Gözlərik dəyənədək,
Bar budaq əyənədək.
Şirələnib yumşalıb,
Nənəm də yeyənədək.

PAPIŞ ALIN

Gülşəni apardılar,
Gəzməyə əmimgilə.
Əmimin bir oğlu var,
Yeriyə bilmir hələ.
Əmim göz vurub bizə,
Belə dedi Gülşənə:
─Apar öz evinizə,
Bəbəni verdim sənə.
Gülşən də tez uşağın,
Ayaqlarına baxdı.
Çiynini çəkdi, ─Axı...
Ayaqqabısı yoxdur.
Siz ona papış alın,
Mən də tutum əlindən.
Belə ayağıyalın
Apara bilmərəm mən.

DARALAN ÇƏKMƏLƏR

Qırmızı çəkmələrim
Daralıb öz-özünə.
Ayağıma gəlməyir
Hey baxıram üzünə.
Təzə çəkmələrim var,
Atam o axşam alıb.
Balacalaşıb bunlar,
Kiçik bacıma qalıb.

GÜNƏŞ ÜÇÜN

Səhər gedirəm,
Bağçaya özüm.
Günəş də gedir,
Qamaşır gözüm,
Axşam yenə də
Tək gəlirəm mən.
Günəş boylanır
Başımın üstdən
Gedib-gəlirik,
Beləcə hər gün.
Nəğmə oxudum
Mən günəş üçün.

NƏRGİZ

Nərgiz pianinoda
Guya ki, mahnı çalır.
Ancaq pianino da
Qışqırıb hay-küy salır.
Deyir: ─Niyə mahnılar
Heç sözümə baxmayır.
Gizlənibdilər onlar
Mən çalanda çıxmayır.

Öyrənəndə yerini
Evə səs salacağam.
Mahnıları birbəbir
Sizinçün çalacağam.
Bircə mahnı da hələ
Öyrənə bilməyib o.
Axşama kimi elə
Çığırır pianino.

“MAŞIN”I YEDİ

Yaşar ip taxıb sürür,
Qarpızın qabığına:
─Bibib... yol verin, ─deyir.
Kim çıxır qabağına.
Yorulsa da yenə o,
Gedir o yan-bu yana.
Baxmır dalınca gələn,
Quzuya, ya qoyuna.
Bir də gördü əlində,
Sürdüyü ancaq ipdi.
Dedi: ─Görən nə oldu?
“Maşın”ım harda itdi?
Demə onun dalınca
Gələn qoyun ac imiş.
Bir ucundan dişləyib
“Maşın”ı xırt-xırt yemiş.

YAXŞI NƏNƏDİ

Nənəsinin şəklini
Çəkdi dəftərə Xanım.
Sonra da cırdı onu
Nahaqca yerə Xanım.

Ramil heyfsiləndi ki,
Kağız cırmağa nə var...
Nənə yaxşı nənədi,
Adam nənəni “cırar”?

“QA-QA”DIR SALAMLARI

Bağçamızın yolunda
Dənlənir beş dənə qaz.
Keçəndə yanlarından
Salam verməsəm olmaz.
─Salam, qazlar, salam!
─Qa-qa, qa-qa.
─Salam, qazlar, salam!
─Qa-qa, qa-qa.
Uzun boyunlarını
Uzadır mənə sarı.
Danışa bilmir onlar,
“Qa-qa”dır salamları.

AÇARI AXTARMIR

Evlərinin açarı
Bayaq Gülnazda idi.
Hardasa itirdi o,
Tapa bilməyir indi.
Qorxub deyir açarı
Təki Məstan görməsin.
Anam gələnə kimi,
Evimizə girməsin.
Tanıyıram onu mən:
Dağıdır ev-eşiyi.
Qız açarı axtarmır,
Güdür hələ pişiyi.

QONAQDI

Samirə, al kuklamı
Qucağında saxla sən.
Lap istəsən lentini,
Aç yenidən bağla sən.
İncimərəm, küsmərəm,
Heç bircə istəyindən.
Al bu tikiş maşınım,
Tut, fırlat dəstəyindən.

Nəyim var, qoy oynatsın.
O bizdə qonadı bəs.
Xətrinə dəysəm əgər,
Qorxuram bir də gəlməz.

QAPINI BAĞLA

─Ay açar, gözəl açar,
Qapımızı bağla bərk..
Onu açma heç kimə,
Biz gedib-gələnədək.
Kuklam, ayım, dovşanım,
Qutunun içindədi.
Qoymuşam, bax, burada,
Qapının küncündədir.
Qapı açılsa birdən,
Həyətə çıxar onlar.
Görüb iti, pişiyi,
Uşaqdı, qorxar onlar.

İNDİ DƏ SİZƏ YAĞIR

Yağış kəsəndə Übüş,
Getdi nənəsigilə.
Yağdı yenə də yağış,
Evə girməmiş hələ.

Uşaq dedi: ─Buna bax,
Bayaqdan bizə yağır.
Mən bura gələn kimi,
İndi də sizə yağır.

KUKLA BACIM

Mənim bacım kukladı,
Qucaqda gəzir o da.
Özü gözünü açır
Ancaq yatıb doyanda.

Kuklam isə yatacaq
Mən yadıma salmasam.
Özü açmaz gözünü,
Qucağıma almasam.

QAR DƏRİRƏM

Übüş soyuqdan,
Əsirdi tir-tir.
Yenə də evə
Getmək istəmir.
Burnu oxşayır
Qırmızı turpa.
Gəzir ağacdan,
Qar çırpa-çırpa.
Qar tökülür, o,
Gülür ürəkdən.
Deyir ağacdan
“Qar dərirəm” mən.

QORXUDACAQ

Ülviyyənin dayısı
Evə gələndə axşam,
Söylədi ki, maşını
Küçədə saxlamışam.

Qız küsmüşdü bayaqdan,
Tez qaldırdı başını.
Dedi: ─İndi it gəlib,
Qorxudacaq maşını.

BAYRAM AXŞAMI

Bizim həyətdə
Bayram axşamı,
Sevinib-gülür,
Oynayır hamı.

Mən də şarımı,
Uçurtdum göyə─
Ulduzlar tutub
Oynatsın deyə.

Ancaq ulduzlar
Baxsın sözümə:
Qaytarsın yenə
Şarı özümə.

NECƏ İÇƏR

Timov olmuşam bu gün,
Başım da ağrıyır bərk.
Kuklam səhərdən bəri
Yerindəcə qalıb tək.

Onun yanına getsəm,
Qorxuram timov keçər.
Ağzını aça bilmir
Dərmanı necə içər?...

DOLU AY

─Ata, göy nə yaxındı!
Bax, kəsik ay ordadı.
Bəs o gecə gördüyüm
O dolu ay hardadı?...

YUMAQLAR

Cırıldayır
Cəhrə yenə
İp əyirir
Zəhra nənə.

Ağ qoyunun
Ağ yunudur
Yumaqlar.
Yumaqları
boyamaqçün
Qaynadılır,
Boyaqlar.

Boyaq üçün
Zəhra nənə
Ot yığar.
Bu otlardan
Nə cür desən,
Rəng çıxar.

Ip sərərək
Çal-çəpəri
Bəzəyər.
Çəpərimiz
Əlvan açmış
Gül-çiçəyə

Bənzəyər.
Gün qurudar,
Bu rəngbərəng
İpləri.
Yumru-yumru
Yumaq olar,
Hər biri.
Əlvan rəngli

Topdu, topdu
Yumaqlar.
Nənəm mənə
Əlcək, corab
Toxuduqca
Bu yumaqlar
Sevincindən
Oynaqlar...

GÜL OXUYURAM

Ülviyyə balacadır,
Məktəbə getmir hələ.
Həvəslə girir bağa,
Baxır çiçəyə, gülə.

Çağırırıq, evə gəl.
Nənə səni istəyir.
Kitab oxuya bilmir,
“Gül oxuyuram,” ─deyir.

MƏNİM QOLUM

Ermənilər dinc durmur,
Bombalayır kəndləri.
Həyətdəcə Vüqara
Dəydi güllənin biri.

Ayılanda bilmişdi,
Itirib bir qolunu.
İndi heç kim ovudub,
Kiridə bilmir onu.

Oyananda qışqırır,
Ağlayır, inildəyir.
Uşaq,─mənim qolum
Yerinə qoyun, ─deyir.

QIRMIZI PAPAQ

Nənəgilə gedirəm,
Qırmızı papağım var,
Yəqin qorxub nağıldan,
Yaxın gəlmir canavar.

KÜSƏN LƏLƏK

Bəzəkli, gözəl quşdan
Küsüb qopdu lələyi.
O yerə düşən kimi,
Cücə tapdı lələyi.

─Oy... nə qəşəng lələkdi!
Qanadıma taxım mən.
Elə bil ki, çiçəkdi,
Axşam-səhər baxım mən...

Lələyi qanadına
Taxa bilmədi ancaq.
Yerə atıb qaçdı o:
─Yox, bu məni yoracaq.

Gözəl, bəzəkli lələk,
Parıldayırdı par-par.
Düşünürdü: üstümdə
Dava salacaq quşlar.

Boz bir sərçə götürdü,
Bu lələyi özünə.
Tez taxıb qanadına,
İstədi ki, bəzənə.

Onun da qanadında
Lələk durmadı ancaq.

Sərçə də atdı, qaçdı:
─Yox, bu məni yoracaq,
Lələk fikirləşirdi:
─Cücənin özü nədi?
Sərçənin özü nədi?
Mənimlə bəzənməyi
Heç biri istəmədi.
─A quşlar, gözəl quşlar!
Hardasınız gəlin siz,
Mənim kimi gözəli
Heç vaxt tapa bilməzsiz.
Bər-bəzəkli quş qondu.
Düz lələyin yanına.
Qaldırıb dimdiyiylə
Diqqətlə baxdı ona:
“Lələklərim gözəldi.
Bu da qəşəngdi ancaq.
Qoy taxım qanadıma
Mənə çox yaraşacaq”.
Lələk yenə durmadı.
Quş taxdıqca düşdü o.
Bu quş da bezdi, uçdu,
Bir yanda büzüşdü o.

Lələk xeyli qəmləndi:
─Kimi bəzəyim indi?
Uçmaqçün darıxıram,
Quşlara hey baxıram.
Nahaq küsdüm qanaddan,
Nahaq qopdum qanaddan.
Özüm uça bilmirəm,
Daha çıxmışam yaddan.
Birdən əsdi bərk külək.
Uçdu göyə bu lələk.
Lələk oldu küləyə,

Yaman düşdü kələyə.
Elə bilirdi külək
Dayanmayacaq bir də.
Uçacaq hey uçacaq,
Bu küləklə bir yerdə.

Şimşək çaxdı, bərk çaxdı.
Yağış yağdı, bərk yağdı.
Kəsdi, əsmədi külək.
Onu axtardı lələk,
Ancaq tapa bilmədi,
Hər tərəfi su idi.
Yağış bərk yağdı, yağdı.
Şimşək bərk çaxdı, çaxdı.
Bəzəkli gözəl lələk
Suyun içində axdı...

TOPUMU ATMA

Başımı qatma, qatma,
Topumu göyə atma.
Top gedib göydə qalar,
Onu ordan kim salar?

Görürsən, külək əsmir
Yağış da yağmır hələ.
Topum göydə qalanda,
Onlar gətirib gələ...

ZƏNCİROTU

Çöldə zəncirotunun
Çiçəkləri sarıydı.
Bə'zisinin başında,
Ağ tük papaq var idi.
Birdən sərin meh əsdi,
"Papaq"lar göydə gəzdi.

ÜŞÜYƏRİK

Ilhamə fəvvarəyə
Sevinclə baxır, baxır...
Deyir: ─ata, sulara
Elə bil ki, qar yağır.
Gəl, burada dayanaq,
Getməyək ora yaxın.
Paltosuz, papaqsız
Üşüyərik biz axı?...

GOMBUL YEKƏ

Yığışıb
Uşaqlar
Murazın
Başına.
Baxmırlar.
Kuklaya,
Ata,
Maşına,
O elə
Həvəslə
Uydurur
Özündən.
Guya ki,
Bir dənə
Gop yoxdu
Sözündə.
─Gombul, yekə
Bir çəyirtkə.
Qıçlarını
Çəkə-çəkə.
Bağ-bağçanı
Dolaşırdı.
Kimi görsə

Dalaşırdı.
Bir gün durdu,
Durdu, durdu,
Çil xoruza
Kəllə vurdu.
Yazıq xoruz
Quqquldadı.
Düz on dəfə.
Səsi düşdü
Hər tərəfə.
Gombul, yekə,
Bu çəyirtkə
Qıçlarını
Çəkə-çəkə,
Pişiyin də
Üstə cumdu.
O gözünü
Bərk-bərk yumdu,
Haradansa
Çıxdı sərçə.
Çəyirtkəyə
Baxdı sərçə.
Bircə anda
Tutdu onu.
“Hop” elədi,
Uddu onu.
Yoxsa hələ
Bu çəyirtkə,
Qıçlarını
Çəkə-çəkə,
Xoruzları
Döyəcəkdi,
Pişikləri
Yeyəcəkdi.
İnanmırsız?

Məndə yalan
Olmaz, olmaz.
Başınızı
Qatdım bir az.

“ŞİRİN OĞLAN”

Bizim bu şən Qalibin,
Deyib-gülən Qalibin
Qıvrım-qıvrım teli var.
Gör nə şirin dili var.
Hamı oxşayır, sevir,
Nənə də konfet verir,
Baba da konfet verir.
Bağrına basıb ana,
Söyləyir ki, oğluna:
─Bir de görüm, axı sən
Niyə belə şirinsən?
Konfetləri göstərir,
Qalib tez cavab verir:
─Çox konfet yediyimdən
Bax şirin olmuşam mən.

TİKANLARIN YUVASI

Bağ-bağçada qardaşım,
Baxmır tikana, daşa.
Soyunub ayağını,
Qaçır o baş-bu başa,
Saymaq olmur neçədir? ─
Üçdür, beşdir, altıdır.
Elə bil tikanların.
Yuvası qardaşımın
Ayağının altıdır.

DÜZƏLDİ İŞLƏR

Übüşün iki dişi
Laxlayır neçə gündü.
Qız qoymur çıxartsınlar,
Saxlayır neçə gündü.
Bu dişlərin altından
Xırdaca dişlər çıxdı.
Onlar iri dişləri
Bir azca dala sıxdı.
Mızıldanıb dedilər:
—Əyri dişlər, burdan siz,
Çıxıb getməlisiniz.
Tərpəndi əyri dişlər:
—Çox rahatdı yerimiz,
Nahaq gəlmisiz bura,
Getmirik heç birimiz.
Tamam korlandı işlər,
Büzüşdü xırda dişlər.
Onlara pay çatmırdı
Dişləsinlər, kəssinlər.
Əyri dişlər qoymurdu,
Mer-meyvəni əzsinlər.
Əlindəki heyvadan
Übüş bir dişdək aldı.
Iki tərpənən dişi
Meyvəyə batdı qaldı.
O, tulladı heyvanı:
—Sənin iki dişin var,
Sənin yekə dişin var.
Qoy səni yesin onlar.
Übüşün ağzındakı
Sevindi xırda dişlər.
Onlar kəsir, dişləyir,
Düzəldi burda işlər.

ATLI LOBYA

Babam bir ləkə baxıb,
Dedi: ─ay mənim balam,
Atlı lobyalar çıxıb.
Gərək gedib "at" alam.
O, tez qarğı gətirdi
Haradansa bir qucaq.
Birini mənə verdi,
Güldü: ─Qalanına da
Lobyalar atlanacaq.

BABAM KİM OLAR?

Babası dedi: ─Elçin,
Məni məktəbə apar.
Oxuyub-yazmaq üçün
Yamanca həvəsim var.
Elçin cavab verdi: ─Yox!
Məktəbdə oxuyanda,
Dərsə gedib-gələrsən
Babam kim olar onda?

SƏN KİRİMƏSƏN

Ramil gəldi tələsik
Ülviyyənin yanına.
Dedi: ─Bacı, bir bax sən
Ayağımın qanına.
Qız baxdı, gözlərindən,
Yaş axdı gilə-gilə.
Hələ çox ağlayardı,
Qardaşı tutdu dilə:
─Ağlama bacı bəsdi,
Daha sağaldı yaram
İndi sən kiriməsən
Bax mən də ağlayaram.

ÖZÜM SÜRÜM

Yük maşını alıbdı
Ata Ramilə axşam.
Deyir: ─Bu sürücüyə
Mən təəccüb qalmışam.
Sükanın arxasında
Nahaqca oturubdu.
Tərpənmir əl-qolu da,
Sakit, səssiz durubdu.
Sürə bilmirsə əgər
Düşsün aşağı görüm;
Dayansın bir tərəfdə,
Maşını özüm sürüm.

BİRCƏ ƏJDAHA VARDI

Gah “div” oldu, gah “qartal”
Kinodan gələn bacım.
Gah döndü “əjdaha”ya,
Dedi: ─Tez olun, qaçın
Bərəldəcək gözünü,
“Adam, badam” deyəcək,
Əjdaha acıb yaman
İndi sizi yeyəcək,
Nənə danladı onu,
Az oyna, bəsdi daha.
Gecə gəlib yuxuna
Girəcəkdi əjdaha.
Qız dedi: ─Qorxma, nənə,
Baxdığımız kinoda
Bircə əjdaha vardı,
Öldürdülər onu da...

GÜNƏŞDƏN QORXAN

Topumu yerə atıb
Mən oynadım qartopu.
Yağaraq lopa-lopa,
Tez gizlətdi qar topu.
Ha axtardım tapmadım,
Dedim: ─Niyə itdi o?
Mən buraya atmışdım,
Görən hara getdi o?
Günəşi görən kimi,
Topumu göstərdi qar.
Mən gəzəndə vermirdi,
Bax, adam belə qorxar!

GÖYDƏN DÜŞƏN QIZ

Hərdən nənə
Deyir mənə:
─Mənim balam
Göydən düşüb
“Göy zənbillə”.
Tez baxıram
Mən zənbilə.
Bizdə qəşəng,
Göy zənbil var.
Kiçik bacım
Güclə sığar.
Yəqin elə
Bacım boyda
Olanda mən,
Bu zənbillə
Düşdüm göydən.

RAMİLİN QUZUSU

Quzusunu gətirib
Güllüyə saldı Ramil.
O, yeyəndə gülləri
Heyrətdə qaldı Ramil.
Dedi: ─a quzu, dayan.
Bir özünü saxla sən.
Məgər anan deməyib,
Gülü yemə, qoxla sən?!

KÖTÜK YIXDI

Ramil kötüyə çıxdı,
Kötük də onu yıxdı.
Uşaq ufuldandı ki,
Bu halın dözülməzdi.
Kaş ki, ağac olaydın
Tutardım budağından,
Yıxılıb əzilməzdim.

BALIQ OVU

Yuxudan durdu Pərviz
Əl atdı tilovuna.
Çağırdı bacısını─
Gedək balıq ovuna.
İki güllü vedrəni
Götürdü bacı-qardaş.
Hovuzun düz yanina
Gəldilər onlar birbaş.
Bacısı bilirdi ki,
Hovuzda yoxdu balıq
Demə Pərviz hovuza,

Axşamdan salıb hələ.
Oyuncaq balıqları
Bu gün “balıq” ovuna
Gəlib bacısı ilə.

GÜLÜN MEYVƏSİ

Açmışdı güllərimiz,
Dərmədik onları biz.
Quruyub töküləndə
Olmadı xəbərimiz.
Bir gün gördük güllərin,
Yumru meyvələri var.
Dedik ki, qoy yetişsin,
Onda ləzzətli olar.
Gözlədik düz qışadək
Onlara əl dəymədi.
Döndülər tağalağa–
Yetişmədi, dəymədi.

GÖYÜN İŞIĞI

Xalası Səadəti
Evlərinə apardı.
Oynamağa gecə də
Qızın həvəsi vardı.
Xalası qoymadı ki,
Qızım, gəl, daha yataq.
Oynayarsan səhər sən.
Bayır qaranlıqdı, bax.
Uşaq tez pəncərədən,
Qaranlıqlara baxdı.
Gördü doğrudan göyün
İşığı keçib, yoxdu.
O, danışıb-dinmədi.
Girib yerində yatdı.

Səhər üzünə düşən,
Günəş onu oyatdı,.
Çığırdı: ─Ay can, ay can.
Keçib bizim işıqlar
İndi göyün işığı
Gör necə yanır par-par...

DƏCƏL QUZUM, DƏCƏL PITRAQ

Qıvrım yunlu
Quzunu mən,
Çəmənlikdə
Otarıram.
Kola-kosa
Qaçır bə'zən
Tezcə onu
Qaytarıram.

Dəcəl quzum,
Dəcəl pıtraq,
Onlar hardan
Tapışdılar?
Bu dəcələ,
O dəcəllər
Məndən xəlvət
Yapışdılar.

ATIM QABAQDA

Gəlmişik bu gün
Karuselə biz.
Hərlənmək üçün
Var həvəsimiz.

“Atım” qabaqda,
Yorulmur, yatmır.
Bacım heç ona
“Maşınla” çatmır,.

OYNAMIRAM, UŞAQLAR

Kuklamı günün altda
Qoyub getmişdim bağa.
Uşaqlarla birlikdə
“Gizlənqaç” Oynamağa.
İndi gəlib görürəm
Onun qızdırması var.
Kuklam xəstələnibdir,
Oynamıram, uşaqlar.

UÇAĞAN CÜCÜ

Gecə işıqda
Uçağan cücü
Məni dişləyib,
Qaçağan cücü,
İşığa doğru
Uça-uça sən,
Arxası üstə
Yerə düşürsən.
Səni üzü üstə
Mən döndərməsəm,
Uça bilmirsən.
Evinizə də
Qaça bilmirsən.
Sənin ki, mənsiz
Keçməyir işin,
Bəs niyə sözə
Baxmayır dişin?...

FUTBOL OYNADI

Ramil topunu,
Oynadıb durdu.
Sonra da onun.
Üstə oturdu.
Top altdan çıxdı,
Ramili yıxdı.
Yastıq elədi,
Ramil topunu.
Başının altda
Qoyan tək onu,
Top yenə qaçdı
Boş qaldı yerdə.
Uşaq istədi,
Götürsün bir də.
Stul eləsin,
Yastıq eləsin.
Top qaçdı, getdi
İndi neyləsin?
Stul olmadı.
Axı topdu, top
Bunun ki, adı.
Tapıb uşaqlar,
Futbol oynadı.

CƏZAMI ÖZÜM VERİM

Bu gün yenə, ana can,
Baxmamışam sözünə.
Hirslənib heç əziyyət
Vermə daha özünə.
İndi özüm-özümü
Danlayıram o ki var.
Əlim döyər üzümü,
Görərsən, bərk ağrıdır.

Acıqlanma, ana can,
Sən hirslənmə, ana can.
Bu gün bərk döyüləcəm,
Bu gün bərk danlanacam.

QARĞANIN QOZU

Bir qarğa uçan zaman
Qoz atmışdı Qaraya.
Qaranı tez uşaqlar,
Almışdılar araya,

Dedilər necə qozdu
Gətir sındırıb görək.
Qara da istəyirdi
Özü qırıb yesin tək.

Ona görə dedi tez:
─Bu qarğanın qozudu
Saxlayacağam onu
Qarğa gələnə kimi
Görmürsüz nə uzundu.

GOP ALI

Bu gün yenə
Danışırmış gop Alı.
Guya yeyib
Düz bir vedrə gavalı.
─Vedrə tutur
Səkkiz dənə gavalı
Deyən axı
Eləmirmiş gop Alı.

DANIŞA BİLMİR

─Niyə ağlayır
Bacım görəsən?
─Pis söz danışdı
Onu vurdum mən.
─Heç mənim bacım
Pis söz danışar?
Onun ki, hələ
Bircə yaşı var.

BƏHANƏ

Nərgiz öz kuklasını
Qucağına alacaq.
Deyəcək kuklam indi,
Sizə mahnı çalacaq.
Əlindən tutub Nərgiz
Mahnı çaldırır ona.
Həvəslidir bu gün qız
Səs yayılır hər yana.
Həvəsi qaçır hərdən
Qalmır Nərgizin sözü.
Söyləyir nə edim mən─
Çalmır kuklamın özü.

PÜSTƏ

Uşaqlar dəstə-dəstə
Səhər bağçaya gedir,
Ancaq balaca Püstə,
Yaman dəcəllik edir.
Ağlayır ki, evdə tək,
Kuklamla qalım özüm
Səhərdən-axşamadək

Oyuncaqları düzüm.
Püstənin qardaşları,
Dostları, yoldaşları,
Tutuşurlar əl-ələ,
Oynayıb gülə-gülə
Bağçaya çatır belə.
Şer, mahnı, nağıllar,
Oyunlar öyrənirlər.
Bütün günü həvəslə
Hey onlar öyrənirlər.
Püstə bir gün oynayıb,
Yamanca bərk darıxdı.
O gah içəri girdi,
Gah da eşiyə çıxdı.
Dedi: ─Bu gün, ay nənə,
Lap uzun gəldi mənə.
Bəs uşaqlar bağçadan
Qayıdacaqlar haçan?
Yenə verib əl-ələ,
Oynayıb gülə-gülə,
Uşaqlar dəstə-dəstə
Bağçadan qayıdanda
Yaman sevindi Püstə.
Bir az keçdi hamı,
Gəlin oynayaq deyə
Yığışdılar küçəyə.
Kimi mahnı oxudu,
Kimi şer söylədi,
Danışmayan yox idi.
Püstə oxumaq bilmir,
Püstə oynamaq bilmir.
Uşaqlar şənlik edir
Püstə danışıb-gülmür.
Peşiman olub necə
Qoy keçsin bircə gecə

Bağçaya gedər Püstə.
Onda gəl sən bu qızdan
Oxusun, mahnı istə.
Oynasın, oyun istə.

SƏHƏRƏ QALSA

Şəngülüm, Şüngülümü,
Söyləyir axşam nənə.
Nağıl yarımçıq qalır
Yuxusu gəlir yenə.
Qurtarmamış sözünü
Nənə yumur gözünü.
Aytən doluxsunur ki,
Arxasını danış sən.
Anası acıqlanır:
─Yat, səhər söylədərsən.
Qız deyir: ─Ana, yox, yox,
Nənəm söyləsin indi.
Şəngülüm, Şüngülümü,
Axı canavar yedi.
Cırsın onun qarnını,
Keçinin buynuzu var.
Səhərə kimi qalsa
Ölər yazıq balalar.

BACIMIN YUXULARI

Yuxudan duran bacım,
Yuxusunu danışır.
Azı çıxır yadından,
Çoxusunu danışır.
Bir gün görür yuxuda,
Kuklası yayma yeyir.
Gözünü qırpa-qırpa,
Qıza da nəsə deyir.

Bir gecə də görür ki,
Ağacda qarpız bitib.
Bir səhər tezdən durur:
“ Məstanım yoxdur, itib”.
Bir gün görür bağçada,
Hər yan güldü, çiçəkdi,
Axı indi bahardı.
Bu yuxu yox─gerçəkdi...
Hey danışır, danışır,
Yuxular uzun-uzun.
Yuxular danışmaqdan
Çaşır özü də qızın.
Yuxu görmür, danışır,
Yuxudan duran kimi.
Gündüz gördüklərini
Yuxuda görən kimi.

HƏKİM YATIB

Pişik gecə qorxmayır
Ağaca dırmaşır bax...
Sürüşəcək ayağı,
İndicə yıxılacaq.
“Pişt”, “pişt”! Pişik düş yerə.
Sözə baxmır o, neyçün?
Dəcəllik eləməsin,
Ağacdan yıxılar o
Ağrıyar qolu, qıçı...
Həkim də yatıb indi,
Kim gəlib bağlayacaq.
Yaralansa bu pişik,
“Miyhamiy” ağlayacaq.

SAAT YUVA

Bapbalaca bir quş var
Bu saatın içində.
O çıxıb xəbər verir,
Yarım saat keçəndə.
Ancaq dəni, suyu yox.
O necə yaşayır bəs
Saatı həyətə mən,
Qoydum ki, a quş, çıx, gəz.
Mən getdim oynamağa,
Ye, quşlarla bir az sən.
Sonra “saat yuva”na,
Yenə gəlib girərsən.

HEÇ OLMASA

Çoxmərtəbəli bina,
Yamanca hündürdü bax...
Üçüncü mərtəbədən
Ata alıb dörd otaq
Pillələri necə də,
Sevinclə qalxır Anar,
Qaçıb tez-tez eyvandan,

Həyətə baxır Anar,
Nənəsi zarafatla
Deyir: ─Ay Anar bala,
Bir otaq bizə verin.
Birində olsun xala
Əminə, bibinə də,
Otağınız çatacaq.
Onlar gəlib sabahdan
Daha sizdə yatacaq.
Anar çox fikirləşdi.
İndi necə yox desin?

O, əmini, xalanı,
Bibini istəməsin?
Cavab verdi xeyli gec:
─Hamınız evimizdə
Eybi yox, gəlin, olun
Çoxdu onsuz ev bizdə.
Axı bu xalamgilin,
Beş dənə otağı var:
Nənə, heç olmasa qoy
Bizdə qalmasın onlar.

ANAMIN YANINDAYAM

Anasının dalınca,
Übüş çıxdı bayıra.
Unudub üşüməyi.,
Hey baxır yağan qara.
Nənəsi çağırır: gəl,
Sənə soyuq olacaq.
Həkim iynə vuracaq
Yenə də o günki tək
Übüş evə gəlmədi,
Cavab verdi: ─Ay nənə
Anamın yanındayam,
Heç soyuq dəyməz mənə.

DƏLƏNİN DİŞLƏRİ

Qoz-fındığı dişimlə
Sındırıb yeyirəm mən.
Atam qoymur deyir ki,
Heyifdir dişlərindən.
Onlar tezcə tökülər,
Uşaqlar sənə gülər.

—Bəs niyə dələlərin,
Xarab olmur dişləri?
Qoz-fındıq sındırmaqdır,
Axşamadək işləri.

BABAMIN AĞACIDI

Qonublar budaqlara,
Civildəşir sərçələr.
Qızarmış gilasları,
Yeyir, deşir sərçələr.
Götürüb səbətimi
Gilas dərmir sərçələr.
Babamın ağacıdı,
Mənə vermir sərçələr.

MƏN DƏ ÖZÜMÜNƏM

Gülnar üzüm
Yeyir, yeyir.
Kiçik Elcan
Ona deyir:
—Üzümündən
Yeyim bir az...
Qız çığırır:
—Olmaz, olmaz!
Özümündü—
Anam alıb!
Oğlan deyir:
—Yaxşı onda,
Boş dayanıb,
Bax bir yanda.
Qoy maşını
Sürüm bir az.
Qız çığırır
—Olmaz, olmaz!

Özümündü─
Atam alıb!
Elcan durur.
Görüb birdən,
Qolsuz kukla
Qalıb yerdə.
İstədi ki,
Götürsün o.
Qolunu da
Gətirsin o.
Bitişdirər,
Qolsuz qalmaz.
Qız çığırır.
─Olmaz, olmaz!
Bacımındı.
Oğlan burda,
Pərt olur bərk.
Belə deyir
Hirslənərək:
─Onda elə.
Mən də mənəm!
Atamınam,
Anamınam,
Nənəminəm!
Özümünəm.
İndi sənin
Nə ananın
Üzümünə,
Nə atanın
Maşınına,
Nə bacının
Kuklasına
Heç hansına,
Heç hansına,

Əl dəymərəm.
Oynamaram!
Heç yanında,
Dayanmaram!

“HOP” ELƏDİ

“Hop-hop” hoppanaq,
Hoppanaq, ay hoppanaq.
Hoppandılar arx üstən,
Kamal,Aybəniz, Püstə.
Balaca Übüş hələ,
Hoppana bilmir arxdan.
“Hop-hop” elədi, ancaq,
Dayanmadı bircə an.
Keçdi arxın içindən,
O, hoppana bilmədi.
Ayağı batdı suya.
Sevindi “hop” elədi.
Onun da hoppanmağı
Bax belədi, belədi.

QARĞA GÖNDƏRSİN

Qarğalar uçur göydə,
Ramil çığırır birdən:
─Gözləyirəm səni mən,
Qarğa boynunu uzat.
Qarğa, mənə bir qoz at.
Xanım çağırır ki, yox,
Heç boynunu uzatma,
Heç mənə sən qoz atma.
Qanadını şappıldat,
Qarğa, mənə çanta at.
Məktəbə gedim özüm,
Hər gün oxuyum, yazım.

Ülviyyə də qışqırır:
─A qarğa, qar-qar qarğa.
Mənim çantam var, qarğa.
Haradadır tap göndər,
Mənə də bir top göndər.
Qarıldaşdı qarğalar,
Qırıldaşdı qarğalar:
─Daha nə istəyirsiz?
Daha nə sözünüz var?
Ancaq heç dayanmadı,
Uçub getdi qarğalar,
Gözdən itdi qarğalar.

YADDAN ÇIXAN

Dilarə nənəsiylə,
Gəzməyə hazırlaşır.
Qız geyinir, daranır.
Sevinci aşır, daşır.
Qucağına götürür.
Dolmuş şarı, kuklanı
Doldurub zənbilinə
Taxta atı, toplanı.
Onun velosipeti
Hazır durur qapıda.
Dilarəni gözləyir
Göy zolaqlı topu da.
Uşaq hey qaça-qaça
Axtarır künc-bucağı
Bəlkə yadından çıxıb
Qalar bir oyuncağı.
Nəvəyə baxıb-baxıb.
Birdən dillənir nənə:
─Gəzməyə aparmaqçün
Yaddan çıxmayıb heç nə

Yadından çıxıb qalan
Qızım bir iş var, ancaq
Bu qədər oyuncağı
Görən kim aparacaq?...

“XORUZ” SAMOVAR

Ay gözəl Xoruz, səni
Gör nə hala salıblar.
Banlayırdın elə bərk
Gur səsini alıblar.

Vızıldayıb astaca,
Baş oynadansan, “xoruz”.
Samovar olub indi,
Çay qaynadansan “xoruz”.

YIXILMAYAN BEÇƏ

Toyuqlar hində yatır,
Ancaq çil-çilli beçə
Hinə yaxın gəlməyir,
Ağacda yatır gecə.

Yuxulu-yuxulu o,
Yıxılmayır ağacdan.
Toyuqlar oyanmamış,
Yerə düşür o başdan.

İYNƏDƏN QORXUB

Göygözlü kuklam
Yeməyir körək.
İynə vurum mən
Bu axşam gərək.
Qoy eşitməsin

Kuklam bu sözü.
Belə deyirəm,
Yalandan özüm.
Yaman qorxacaq,
İynəni görsə.
Yeyəcək tezcə
Ona nə versəm.

XALI

Xallıdı
Xalamın
Xalısı.
Xalını
Toxuyub
Xalamın
Xalası.

BAŞINI İŞLƏT

Velosiped sürür bərk,
Samir baxmır heç yana.
Qabağını kəsərək,
Belə dedilər ona:

─Dayan, ay oğlan, dayan!
Başını da işlət sən
Dəyib daşa-divara,
Xəndəyə düşməyəsən.

Uşaq dedi: ─Ayağım,
Yaxşı işləyir, baxın...
Burda başı işlətmək,
Nəyə lazımdır axı?

O, yaxşıca işlətdi,
Ayağını doğrusu.
Yıxıldı, uzun çəkdi,
Qol-qıçının ağrısı.

BAKI DURUR

Bakını güllələdi
Gecə Sovet ordusu,
Dinc xalqa zülm elədi
Gecə Sovet ordusu.
Radio, televizor
İşləmədi neçə gün
Qəm-kədər içindəydi
Azərbaycan büsbütün.
Televizor yenidən
Verlişini verəndə
Tələşlı, həyəcanlı,
Bakını göstərəndə.
Sadiq sevindi yaman
Sadiq çığırdı: ─Ay can!
Elə bil ki, dünyanı
Bağışladılar ona:
─Bakı durur, ay ata,
Bakı durur, ay ana!
Yaxşı-yaxşı baxın siz,
Bakı durur, Bakı var.
Adamları görürəm,
Nə yaxşı sağdı onlar.

QORXURAM Kİ

Arif tez-tez
Su vururdu
Üz-gözünə.
Gözləri də

Yumulurdu
Öz-özünə.
Ata-ana
Dedi ona:
–Yuxun gəlir.
Yat, bala, sən.
Oyanarsan
Səhər tezdən.
Arif cavab
Verdi belə:
–Keçəcəyəm,
Təzə ilə,
Qorxuram ki,
Yatsam birdən
Köhnə ildə
Qalaram mən.

MƏN OLMASAYDIM

–Əmi lək suvaranda,
Yanına qaçdım tezcə.
Mən də suyu arxlardan
Əlimlə açdım tezcə.
Düzdür, o yekə belə,
Gücüm də çatmır hələ.
Lək su içib doyanda
Deyirdim ki, suyu kəs!
Hey qaçdım ora-bura
Kömək etdim sənə bəs?
Paltarım batdı suya,
İslandım sənin kimi
Mən olmasaydım əgər
Sən nə edərdin, əmi?

AYNA VƏ SONA

Qapılarını
Süpürdü Ayna.
Ona baxaraq
Süpürdü Sona.
Gülsənəm nənə
İş görə bilmir:
Öz qapısını.
Süpürə bilmir.
Onun qapısı,
Zibilli qaldı.
Bunu yadına
Nə Ayna saldı
Nə Sona saldı.
Külək əsəndə,
Yayıldı zibil.
Qapılarını,
Süpürməyiblər,
Qızlar elə bil.

ÖZÜ DÜZƏLDİR

Bəzəkli kubiklərdən
Toyuq düzəldir Nigar
Toyuğun başı tülkü,
Gülməli görkəmi var.
Dəvənin xortumuna,
Şirin qanadına bax.
Şələ quyruqlu sərçə
Görən necə uçacaq?
O, özü bilə-bilə,
Hər şey düzəldir belə,
Ağlağan bacısı var—
İstəyir bir az gülə.

AYAĞI BİTƏCƏK

Ermənilər tanklarla,
Hücuma keçdi yenə.
Bizimkilər yaxşıca
Cavab verdi düşmənə.
Qorxmaz, igid əsgərdir,
Gülbənizin əmisi.
Döyüşdə ayağına
Dəydi düşmən gülləsi.
Çarpayıda yatır o,
Yamanca qorxur uşaq.
Təkqıçlı əmisinə
Dəhşətlə baxır uşaq.
İnana bilmir buna,
Gözləri dolur yaşla.
Qızcığaz atasına
Deyir böyük tələşlə:
─Ata, tez sağalacaq?
Çoxmu qalacaq belə?
Əmimin bu ayağı
Bir də bitəcək, elə?
Qəhər boğdu atanı,
Nə söyləsin o indi?
Göynədi ürəyində,
─Bitəcək, bala, ─dedi.

DİVARA DIRMAŞANLAR

Oyuncaq tanklar ki, var,
Burular, hey burular.
Rahat gedər düz yolda,
Kiçik təpə aşar o.
Gücü yox yarıb keçsin,
Divara dırmaşar o.

İndi bu tanklar kimi,
Qurulubdu daşnaqlar.
Azərbaycana tərəf,
Burulubdu daşnaqlar.

Onların düz yolu yox.
Təpə də yox aşmağa.
Yazıqlar başlayıblar,
Divara dırmaşmağa.

ƏNCİR

Ləzzətli əncir yedim,
İçi şirəylə dolu.
Elə bil ki, ağacda
Qalıb mürəbbə olub.

TOPUM

Tək bir əlimə sığır,
Balaca, sarı topum.
Yerə vuranda qalxır
Məndən yuxarı topum.

GÜNƏŞ DÜŞÜRÜM

Nə durmusan, ay Ziba,
Bir qarğı tap ver mənə.
Çıxım damın üstünə,
Günəş düşürüm sənə.

CIRCIRAMA

Mənim qəşəng, bəzəkli,
Bir cırcıramam vardı.
Əlimdən qaçan kimi,
Sərçə alıb apardı.

YAXŞI DARAQ

Darayıram saçımı,
Vardır iki darağım.
Biri lap xırdacadı,
Biri yekə darağım.
Yekə daraq, yekədiş.
Elə yaxşı görür iş.
Yolmur, yolmur saçımı
Ona mən nə edim ki,
Dolaşığı açılmır?...

Xırda daraq, xırdadiş,
Bu da belə görür iş.
Balaca ola-ola
Darayır yola-yola.
Saçımı bir dəfə də
Qoymur dolaşıq qala.

NECƏ GÖSTƏRİM?

Ayılar armud yığır,
Ayılar bal daşıyır.
Bir ayı da kənarda
Hey başını qaşıyır.
Bu ayı “məşhur” rəssam,
Donqul-dunqul ayıdır.
Bilməyənlər bilsinlər,
Sabah onun toyudur.
Ən gözəl əsərini
Çəkibdi bir yaşında,
O zamandan oturur
Məclislərin başında.
İndi bu donqul-dunqul,
Böyüyüb yaşa dolub.

Indi bu Donqul-dunqul
Yaraşıqlı gənc olub.
İclaslar, yığıncaqlar,
Hər gün onu gözləyir.
Uca-uca kürsülər
“Gəl-gəl” deyib səsləyir.
Böyük-kiçik ayılar,
Ona “hörmət” bəsləyir.
Yerli-yerində olur,
Acıqlanıb-gülməyi.
Var yaxşı danışığı,
Gözəl nitq eləməyi,
Səhnədə görünən tək,
Ona bərk əl çalırlar.
Hər yığıncaqdan sonra.
Neçə qulaq “qalır kar”
Gözəl rəssamlar çoxdur,
Ayılar arasında
Donqul-dunquldan yoxdur,
Ayılar arasında.
Təltiflər, mükafatlar
Çatır Donqul-dunqula.
Şərəfli yüksək adlar
Çatır Donqul-dunqula.
Hansı əsərləri var?
Nə iş görüb deyirsiz?
O ki, “məşhur” rəssamdır,
Məgər siz bilməyirsiz?
O məşhur rəssam çəkib.
Bir yaşında bir əsər,
İşin adı belədir:
“Yağış yağar, yel əsər”.
Nə dərin əsərdi o,
Nə də ki, mö’cüzədi.

Nə lap köhnədən köhnə,
Nə də ki, lap təzədi.
Kürsülərdən, kürsüyə,
Çəkdilər bir yaşından.
Alqışları tökdülər,
Sağdan, soldan, başından,
Şəkil çəkməyə bir an.
Onun vaxtı qalmayır.
Şəkil çəkmək lazımdır,
O yadına salmayır.
Gəzir boş-bekar ancaq,
Gəzir illərdən bəri,
Rəssam ayıların hey
Açılır sərgiləri.
Söyləyir Donqul-dunqul;
─Mənim bir əsərim var,
Min dəfə, milyon dəfə,
Görüb bütün ayılar
Qarşıdadı məqsədim,
Dünyada görmədiyim,
Hər bir meşəni gəzmək...
Heç bir ayı getməyən,
Yerlərdən çiçək üzmək...

Bu gün toydu meşədə,
Məşhur rəssamın toyu.
Qoy gəlsin Donqul-dunqul
Görünsün gözəl boyu.
Özünü dartıb gələn,
Məşhur rəssama baxın.
Yazıqdı şişib-şişib
Partlaya bilər axı...
Deyin, öz toyundasan,
Deyin, özünə gəlsin.
Deyin, bu əziz gündə,

Bir gözəl nitq eləsin.
Məşhur rəssam istəmir
Öz toyunda danışmaq.
Nə lazımdır adəti
Pozub həddini aşmaq.
Nə çoxdur dostlarının,
Yoldaşlarının toyu.
Şəkillər ki, çəkməyir
Nitq eləyir il boyu.

Toydan sonra xanımı,
Donqul-dunqula dedi:
─Bir mənə də göstərsən
Əsərlərini indi.
Nişannılı olanda,
Aparmadın sərginə
Gətir qoy evdə baxım,
Orda-burda, fərqi nə?

Donqul-dunqul dayandı,
Fikrə getdi bircə an.
Gözlərini bərəltdi
Köpük daşdı ağzından?
─Nə danışırsan, balam,
Ağlın itibdir məgər?
Heç məşhur rəssam olan,
Oturub şəkil çəkər?
Gəldi qulaqlarına
Min-min zaldan alqışlar:
─Gözəl ayılar mənə,
Gözəl güllər bağışlar.
Yox, yox, vaxtım nə gəzir?
Oturub şəkil çəkim?
Xahiş edirəm məni
Təhqir etməsin heç kim.

Ömrümü boş-boşuna
Verməmişəm yelə mən.
Dünya meşələrini
Gəzəcəyəm hələ mən.
Qulağımda gurlayır,
Alqış səsləri yenə.
Ancaq neynim, əzizim,
Necə göstərim sənə,
Ən gözəl çıxışlarım
Sözlərim dalda qalıb.
O kürsülər, səhnələr
Alqışlar zalda qalıb.
Getməyib qulağımdan,
Alqış səsləri yenə,
Ancaq neynim, əzizim,
Necə göstərim sənə?!

QUCAĞIMDA GƏTİRİM?

Sahil gəlir
Emingilə.
Görür dostu
Yatır hələ.
Çığır-bağır
Salır ki, dur.
Maşınım da
Qapınızda
Təkcə durur.
Gəl, onu sür,
Dayanma sən,
Yorulanda,
Evimizə
Gətirərsən.
Ancaq, qaqaş,
Açarını

Burma onun.
Təkərini
Qırma onun.
Pedalını
Bərk-bərk basma..
“Siqnal”ına
Qulaq asma.
Rulunu çox
Əymə, əymə.
Güzgüsünə
Dəymə, dəymə.
Tez yerindən
Qalxır Emin,
Ona mat-mat
Baxır Emin.
Deyir, dayan,
Dayan, Sahil.
Mənə maşın
Lazım deyil.
Söylə necə
Götürüm mən?
Onu sizə
Qucağımda
Gətirim mən?
Çox ağrıtma
Başımı sən,
Sür, özün get
Maşını sən.

XALLI CIRCIRAMA

Bacı-qardaş cırcırama,
Yaşayır mehriban, şən.
Heç zaman ayrı gəzmir
Onlar biri-birindən.

Qardaşın qanadında,
İki qoşa xalı var.
“Xallı” deyə çağırır
Onu cırcıramalar.
Xallı bir az ərköyün,
Bir az da lovğa idi.
Bütün günü özünə
İşi sığal verməkdi.
Bacısı qardaşını
Əzizləyir həmişə.
Hələ göndərmir onu
Ağır, ya yüngül işə.
Bir səhər bacı ancaq
Yuxudan oyandı gec.
Yerindən durmağa da
Taqəti olmadı heç.
“Xallı” uçub gətirdi,
Cırcırama həkimi.
Xəstəyə çiçək tozu
Yazdı o baxan kimi.
“Xallı” qanad açaraq
Uçdu çiçəkli düzə.
Hər çiçəkdən, hər otdan
Toz yığdı gəzə-gəzə.
Rast gəldi qayıdanda
Əlvan rəngli bir gülə.
Dedi özü-özünə
“Burda bir az mürgülə”.
Gülün ləçəyi üstə
Ayağını uzatdı.
Bacı çıxdı yadından,
Yuxusu gəldi yatdı.
Bu zaman bir qız gəlib
Həmin gülü qopardı.

Özü boyda bir qızın
Ad gününə apardı.
“Xallı”yuxuda idi.
Xəbəri yox heç nədən.
Ayılanda düşündü:
“Görən haradayam mən?
Nə çox yatıb qalmışam,
Tez durum evə qaçım
Görən indi nə edir
Məni gözləyən bacım?”
Başını qaldırıb o
Baxdı o yan-bu yana.
Gördü fikir verən yox
Gülün içində ona.
Qanadlarını açdı,
Birbaş həyətə uçdu.
Bu həyətdə nə qədər
Əlvan gül var, çiçək var.
Buranı tanımir bəs
Başqa cırcıramalar?
“Bacım sağalan kimi
Gəlib burda gəzərəm.
Gül-çiçəyin içində
Üst-başımı bəzərəm”.
Xallı evə çatanda
Günəş çoxdan batmışdı.
Bütün günü işləyən
Cür-cücülər yatmışdı.
Xəstə cırcıramanı
Fikir, xəyal almışdı
O, qardaşından ötrü
Çox nigaran qalmışdı.
“Xallını” görən kimi
Boynunu qucaqladı.

Kövrəlib birdən-birə,
Hönkür-hönkür ağladı.
Dedi: ─Əziz qardaşım.
Yorulub əldən düşdün.
Çiçək tozu yığanda
Yəqin istidən bişdin.
Gəl uzan, dincəl, bir az.
Boylanma belə gendən.
Çiçək tozunu indi
Yeyib sağalaram mən.
“Xallının” danışmağa
Qalmadı bircə sözü.
Yollarda səpələnib
Yığdığı çiçək tozu.
Qaçıb yerinə girdi.
Yumdu bərk-bərk gözünü,
Bacısından gizlətdi
Qanadıyla üzünü;
Dedi kaş gətirəydim.
İndi çiçək tozunu...

BAŞ TÜLKÜ

Tülkü İbazın,
Ağır yükü var.
Yaxınlıqda da,
Nə bir çaqqal var,
Nə bir tülkü var,
Kömək etsinlər,
İbaza bir az.
Onu yerdən tək
Qaldırmaq olmaz.
İki şaqqa ət,
Bağlayıbdır o,
Pələng babaya

Saxlayıbdır o.
Çatdıra bilsə,
Payı pələngə,
Böyük mükafat
Alacaq bəlkə?
Burdan keçirdi,
Cüt bacı tülkü.
Onlar gördülər
İbazı, yükü.
Dedilər: ─Niyə
Durmusan burda?
Gözəl boynunu,
Burmusan burda?
O hıqqıldadı:
─Yol üstəsiniz.
Kömək edərsiz.
Necə gözəldir,
Qara gözünüz.
Mələhətlidir,
Şirin sözünüz.
Necə də gözəl,
Daranmısınız,
Siz kömək üçün
Yaranmısınz.
Bu bağlamanı
Asın boynumdan,
İki şaqqa ət,
Ağırdır yaman.

Bacılar yükü
Qaldırıb yerdən,
Onun boynundan,
Asdırır birdən.
İbaz boynunu,

Aşağı əydi.
İki şaqqa ət
Lap yerə dəydi.
O, ufuldadı:
─Qırıldı boynum,
Əzildi boynum,
Yoruldu boynum,
Bacılar buna,
Dözə bilmədi.
Tülkünün halı
Çox ağır idi.
Hər şaqqanı bir
Bacı götürdü.
İbaz ortada
Elə ötürdü:
─Öldüm, ay aman!
Qırıldı boynum,
Əzildi boynum,
Yoruldu boynum,
Bacılar dedi:
─Darıxma, indi
Bizim üçün də,
Axı çətindi...
Onlar beləcə,
“Ah” “uf” etdilər.
Onlar beləcə
Xeyli getdilər.
Bir hündür yerdə
Dayandı İbaz.
O yan, bu yana
Boylandı İbaz.
─Hamıdan gözəl
Gözlü bacılar.
Hamıdan şirin,
Sözlü bacılar,

Daha qayıdıb
Gedə bilərsiz.
Çox sağ olun siz.
Bacılar dedi:
─Biz axıradək,
Elə-beləcə,
Edərik kömək.
İbaz qorxdu: ─Yox,
Daha gedin siz.,
Mən də çatmışam,
Çox gözəlsiniz!...
Belə tə'rifdən
Xoşlandı yaman
Yorğun bacılar,
Qaçdı durmadan.

Mağaradadı,
Pələng yaxında.
Tülkü çatacaq
Ona bir anda,
Yükünü güclə
Götürdü İbaz,
Onu pələngə
Gətirdi İbaz.
Pələng tez yedi
Yeyən tək dedi:
─Çox dadlı ətdi.
Ləzzətli ətdi.
Bəs yoldaşların,
Haraya getdi,
Çağır onları,
Bura gəlsinlər,
Oturub yaxşı,
Bir dincəlsinlər,
İbaz boynunu

Aşağı əydi.
Pələngin sözü
Xətrinə dəydi.

─Elə bilirsiz,
Onlar da mənə
Kömək eyləyib?
Yox, ancaq sizə
Salam söyləyib.
Pələng çox heyrət,
Etdi bu gücə.
─Bu qədər əti,
Gətirdin necə?
Tülkü qımışdı:
─Soruşmayın siz.
Bu güc hardandır?
Sonra bilərsiz.
Pələng söylədi:
─İndi de görüm,
Bəs əvəzində,
Sənə nə verim?
İbaz baş əydi,
Quyruq buladı:
─Ay pələng qağa,
İşim belədi:
Mən yaxşılığı
İtirmirəm heç.
Payı əvəzçün
Gətirmirəm heç.
Bu söz pələngin,
Gəldi xoşuna.
Sığal da çəkdi,
Onun başına.
Belə əmr verdi o:
“Baş tülküsən bu gündən.

Ömrünün sonunadək,
Bu ad ilə yaşa sən”.
Bütün tülkülər,
Əmri eşitdi.
Pıqqıldaşdılar:
─Bu necə işdi?
“İbaz Baş Tülkü”
Xoşbəxtliyə bax!
Bu yüksəkliyə
Çətindi qalxmaq.
─Gücü pələngi
Heyrətə salmış.
Adı özünün,
Gücünə almış.
Hamı istəyir,
Tülkünü görsün.
Baş əyib ona,
Bir salam versin.
Baş Tülkününsə
İşi lap çoxdu,
Yeyib-yatmaqdan
Boş vaxtı yoxdu.
Cüt bacıların,
Bir arzusu var,
Buna hələ də
Çatmayıb onlar,
Deyir: ─Ölsək də,
Olmaz dərdimiz.
Bir dəfə görsək,
“Baş Tülkü”nü biz.
Boyu-buxunu,
Çox yekədimi?
Yoxsa bizim tək
Bir tülküdümü?
Hər halda gücü

Hamıdan çoxdu.
Ona tay olan
Bir tülkü yoxdu,
Baş Tülkü burdan
Keçirdi bir gün.
Qaçıb gəldilr
Tülkülər ona
Salam verməkçün.
Cüt bacılar da
İbazı gördü.
Ona ürəkdən
Salam da verdi.
Tülkü hamıyla
Görüşdü, getdi.
Cüt bacılarsa
Çox heyrət etdi:
─Tanımadı bəs,
O niyə bizi?
Xəbər almadı,
Heç kefimizi,
Sözün doğrusu
Belədi axı?
Onun gücünə
Bələdik axı?
Deyirəm: ─Bacı,
Biz tülkülərdən,
Doğruçu gücü
Olanı yoxdur.
İndiyədək heç
Öz gücünə ad
Alanı yoxdu.

GÜNAHIM ÖZÜMDƏDİR.

Tapşırdılar dovşana,
Getməsin heç bir yana,
Qutudan evləri var,
Onu oğurlayarlar.

Dovşan xeyli oturdu,
Sonra ayağa durdu.
Unutdu evi tamam,
Dedi: yaman acmışam.

Axı indi neyləyim?
Çiçək dərim, kök yeyim.
Kim nə deyəcək mənə?
Gəlib gözlərəm yenə.

Meşəyə qaçdı dovşan,
Lap uzaqlaşdı dovşan.
Kəpənəklə oynadı.
Gül-çiçəklə oynadı.

Tapır yeyir meyvə o.
Yada salmır evi o.
Yedi, doydu, oynadı.
Birdən sanki oyandı,

Şəklədi qulağını,
Cütlədi ayağını,
Gözünü yumdu, açdı.
Meşədən evə qaçdı.

Həyətə girdi, baxdı,
Qutu evləri yoxdu.
Evi oğurladı kim?
Axı niyə görmədim?

Burda olsaydım özüm,
Yumulmazdı heç gözüm.
Haray-həşir salardım.
Evimizi alardım!

Oturdu damın üstə,
Sərçələr başı üstə.
Cikkildədi cik-cirik,
Biz yerini bilirik.

Tülkü aldı dalına,
Baxmadı sağ-soluna.
Apardı evinizi,
Bayırda qoydu sizi.

Cik-cirik, cik-cirik,
Cik-cirik, cik-cirik,
Ata-ana gəldilər.
Gözlərini sildilər.

Ev yerində yox idi.
Yükləri də çox idi.
Yığmışdılar bir aləm,
Çiçəkli yonca, kələm.

Dindirdilər balanı:
–Qutu evimiz hanı?
Bala qırpdı gözünü,
Lap itirdi özünü.

Elə bil ki, lal idi,
Bir söz deyə bilmədi.

–Harda idi gözlərin,
Yalan olsa sözlərin,
Cəzan ağır olacaq.
Düzünü de, sən ancaq.

Ağladı bala dovşan:
─Fikirləşim qoy bir an.
Yalan deyil sözlərim,
Onda mənim gözlərim,

Gül-çiçəyə baxırdı,
Kəpənəyə baxırdı.
Atası hirslənərək,
Çığırdı yamanca bərk:

─Qulaqların yox idi?
Bəlkə işin çox idi?
Eşitməyiblər məgər?
Harda idi cütcələr?

Yaşını sildi dovşan:
─Fikirləşim qoy bir an
Diksinirəm hər səsdən,
Eşitmişəm bu gün mən.

Quşların nəğməsini,
Xoşlayıram səsini.
Batmayıb qulaqlarım,
Yatmayıb qulaqlarım.

Qulaqları yelləndi,
Ana dovşan dilləndi.

─Qoy qalsın qulaqları,
Söyləsin ayaqları,
Haralarda gəzirmiş,
Başımıza gəldi iş.

Bilsən onda nələr var?
Günahkardı ayaqlar!
Sevindi bala dovşan
─Düzdü, düzdü ana can!

Ayaqlarım apardı,
Yoxsa nə işim vardı.
Mənim çəməndə, düzdə.
Qalardım evimizdə.

Kim cür’ət edib axı,
Günün-günorta çağı
Apardı evimizi.
Bayırda qoydu bizi.

Atası gəzdi, gəzdi
Yaxşı bir çubuq kəsdi.
Dedi: ─A dovşan bala,
Günahkar ola-ola,

Ayaqlarına bax bir...
Heç utanıb eləmir.
Bir çubuq çəkdi ona,
Dovşan hoppandı yaman.

Anasını çağırdı:
─Oy ayağım ağrıdı.
Ana, atamı qoyma,
Qulağıma dəyməsin,

Ayağımı döyməsin.
Günah nə ayağımda,
Nə də ki gözümdədir.
Çubuq yaman yandırır,

Günahım özümdədir,
Özümü döyməsin o.
Xətrimə dəyməsin o.
Tülküdədir evimiz,
Gedək onu alaq biz.

HARDA PAXIL VAR

Alma ağacı
Kiçikdir hələ.
O, axşam-səhər
Yalvarır yelə:
—Əsmə, yel bacı.

Əsmə, yel bacı.
Altı almam var.
Böyüsün onlar.
Budaqlarımı
Qoy əysin onlar.

Onun sözündən,
Çıxmayır külək.
Çoxdandır əsmir,
Nə yavaş, nə bərk.
Almanın biri
Böyük, qırmızı.
Oldu ağacın
Ən gözəl qızı.

Bu qəşəng alma,
Bu gözəl alma.
Baxıb özünə
Öyünür yaman:
Yumru toppuşam,
Böyük koppuşam
Bəlkə günəşdən,
Aydan qopmuşam?

Bir baxın ətrim
Gedir hər yana.
Sizdən çox məni
İstəyir anam.
Bu ana ağac

Dilləndi tezcə,
Yarpaqları da
Yeləndi tezcə:

─Çox istəyirəm.
Hamınızı mən.
Seçmirəm sizi
Bir-birinizdən.

Dadlı, ləzzətli,
Ətirlisiniz.
Bir-birinizlə
Dalaşmayın siz.

Qırmızı alma,
Hirsindən əsdi.
Anasının da
Sözünü kəsdi.

─Yox, yox, o biri,
Almaları sən.
Məni boyda yox,
Az istəyirsən.

Anası onun,
Yarpaqla sığal
Çəkdi başına.
Dedi: ─Ay Cığal,

Oxşa bacına,
Ya qardaşına.
Gözəl almasan,
Qəşəng almasan,

Ancaq ki, bir az
Paxıl olmasan...
Beş alma hər gün
Böyüyürdülər,

Bir-birləriylə
Öyünürdülər.
O deyir ki, sən
Daha gözəlsən.
Bu deyir ki, sən
Daha gözəlsən.

Qırmızı alma
Xəstələnmişdi.
Ona nə oldu?
Görən nə işdi?

Çox fikirləşir,
Bu ağac ana.
Ancaq bir dərman
Tapmayır ona,

Qırmızı alma
Salır hay-həşir:
─Anacan... nəsə...
Qarnımı deşir.

Gözəl yanağım,
Tərtəmiz idi.
Pis-pis yaralı,
Xallıdı indi.

Ana da onun
Kəsdi sözünü.
Danladı xeyli
Xallı üzünü.

Sənə dedim ki,
Az danış, ötmə,
Sənə dedim ki...
Paxıllıq etmə?..

Paxıllığını
Qardaşın, bacın,

Hamımız bildik.
Qarnında da qurd,

Əmələ gəldi.
Nə zaman ki, sən,
Paxıl deyildin.
Onda çox gözəl,

Çox qəşəng idin.
Paxıllıq etmə,
Axı dedim mən?!
Sənə de, necə,
Kömək edim mən?..
Heç danışmamış
O, birdən-birə.
Qopub budaqdan,
Bərk dəydi yerə.

Gördülər tamam.
Çürük almadı.
Heç kim götürüb,
Dişdək almadı.

Qurd da buradan,
Qaçdı ki, görsün, –
Harda paxıl var,
Qarnına girsin.

RƏNGLİ QUYRUQLAR

Bir tülkü yuvasına,
Gətirmişdi hər cür rəng.
Həvəslə quyruğunu
Bəzəmişdi rəngbərəng.

Burnunu dik tutataraq
Meşədə gəzirdi o.

Çiçəklərə, güllərə,
Baxmayıb, əzirdi o.

Quyruğu günün altda,
Parıldayırdı par-par.
Belə bəzəkli quyruq
Meşədə kiminki var?!

Görənlər heyran-heyran,
Bu tülküyə baxırdı.
Bəzisinin ağzının
Lap suyu da axırdı.

Tülkü dedi: ─Sizin də
Quyryğunuzu rəng-rəng
Rəngləyirəm ancaq ki,
Pay gətirəsiz gərək.

Tülkülər qaçıb tezcə,
Biri toyuq gətirdi.
Biri çörək, biri ət,
Biri quyruq gətirdi.

Dedilər: ─ tez ol, görək,
Quyruğumuza rəng çək.
Hey artırdı buyruqlar.
Rənglənirdi quyruqlar.

Bir yandan gəlir paylar,
Ucalır iri taylar.
Quyruqlar rəngbərəngdi.
Ağ, boz, ala-bəzəkdi,
Bərbəzəkli tülkülər
Əlvan rəngli tülkülər.

Deyir: ─Bir yerdə gəzək.
Bizik dünyaya bəzək

Daha bizim quyruqlar
Adicə quyruq deyil.
Rəngi, bəzəyi itməz,
Ötüb-keçsə neçə il.
Onlar beləcə bilir,
Onlar sevinir, gülür,
Gözəl quyruqlarıyla
Gözəlcə oynayırlar.

Baxmaqdan doymayırlar.
Birdən hava qaraldı,
Meşəni duman aldı.
Göydə şimşəklər çaxdı.
Heç bir azca keçməmiş
Selləmə yağış yağdı.

Daha da bərk sevindi,
Qorxuşmadı tülkülər.
Tələsib yuvalara
Axışmadı tülkülər.

Dedilər yaxşı oldu,
Yağışda çimərik biz.
Yuyulub-təmizlənər,
Tüklərimiz tər-təmiz.

Onlar yağışın altda
Yuyundular o ki var.
Bir də gördülər tamam
Rənglənib yaşıl otlar.
Quyruqların bəzəyi
Bircə andaca itdi.
Quyruqların bəzəyi
Yağış suyunda getdi.

Çığrışdılar tülkülər:
Bağrışdılar tülkülər

─Fırıldaqçının biri,
Yaman sarıdı bizi.
Aldadıb başımızı
Aldı yeməyimizi.

Tez yığışıb gəldilər
Tülkünün qapısına.
Vurdular daş-ağacla,
Az qaldı qapı sına.

Biri çağırdı: ─Tez ol,
Quyruğumu ver mənim.
Biri bağırdı: ─Tez ol,
Toyuğumu ver mənim!

Biri dedi: ─Ver əti!
Balalarım ac qalıb.
Sənin insafın hanı?
Yeməyə möhtac qalıb.

Tülkü kefdə, damaqda,
Gülməkdə, oynamaqda.
Yeyib gələn payları,
Əritmişdi tayları.
Çıxdı bayıra tülkü.
Baxdı bayıra tülkü.

─Məndən nə istəyirsiz?
Mənə siz nə deyirsiz?
Yağış yağanda gərək,
Əvvəldən görəydiniz,
Yuvaya girəydiniz.
Çığrışdılar tülkülər,
Bağrışdılar tülkülər.
─Bir dayan, ay fırıldaq,
Bilə-bilə bunu sən,
Axı nə üçün bizə,

Əvvəldən deməmisən?
Onlar tülkünün üstə,
Cumdular birdən-birə,
Quyruğunun tükünü,
Didib-tökdülər yerə.
Dedilər cəzandı, çək!
Sən bizə gəldin kələk.
Alabəzək tükləri,
Göydə gəzdirir külək...

İKİ SAHƏ

Şumlandı iki sahə,
Yaxın qonşu idilər.
Baxıb bir-birlərinə
Onlar çox sevindilər.

—Sabahın xeyir, qonşu!
—Sabahın xeyir, qonşu!
Gəlib bizi əkərlər,
Qayğımızı çəkərlər,

—Ay qonşu, arxayın ol,
Suyumuz, şirəmiz bol.
Sahələrin birində,
Düzüldü kombayınlar.

Bütün gün axşamədək,
Toxum səpdilər onlar.
O birisi sahəni
Görən yoxdur elə bil.

Axı onlar buranı
Dincə qoyublar bu il.
Acıqlandı, qaraldı,
Bu sahə hirsləndi bərk:



—Dincəlmək istəmirəm
Məni əksinlər gərək!
O sahə əkilmədi,
Acığı tez soyudu.

Yuxusu da gəlirdi
Başını yerə qoydu.
Fikirləşdi, düşündü,
Hələ xeyli yatacaq.

Üç-dörd gün düz-əməlli,
Yata bilmədi ancaq.
Axı bu kimdir belə?
Qıdıqlayır qarnını,

Gah böyrünü, başını,
Qulağını, burnunu?
Gözünü açdı sahə,
Baxdı o yan-bu yana.

Görsün yatdığı yerdə,
Kim mane olur ona.

Demə alaqlar gəlib,
Cücərir öz-özünə.
Qoymurlar yuxu getsin
Bu sahənin gözün.

Toxum əkilən tərəf
Yamyaşıl yaşıllaşır.
Gecə-gündüz oyaqdır,
Sevinci aşıb-daşır.

Deyir: —Cücərtilərim
Hələ lap körpəcədir.
Mənə dincəlmək olmaz,
Onlar incə-mincədir.

Qoy bu yaşılcıqlarım
Böyüyüb versinlər bar.
Qabaqda günlər çoxdur,
Yatıb-dincəlmək olar.

Qonşu dincəlməlisən,
Niyə oyandın axı?
İşin çox olacaqdır,
Durarsan yazqabağı.

Boş sahə göstərdi ki,
Sən bax, bu alaqlara.
Mən onların əlindən
Bilmirəm qaçım hara?

Bu sözləri eşidib
Çığırdılar alaqlar.
Əyib ağızlarını
Bağırdılar alaqlar;

─Də'vət nəyə lazımdır?
Biz özümüz gəlmişik.
Özümüz cücərmişik,
Lap yaxşı eləmişik!

Heç səni qoyarıqmı,
Yatmağa bircə an da?
Quruyub ölərik biz
Sən dincəlib-yatanda.

Harada bitiriksə
Çıxarıb tez atırlar.
Öz xoşuna qalanda,
Bizi böyüdən olar?

Yaşıl sahə çağırır:
─A qonşu bir mənə bax...
Görürsənmi burada
Qalmayıb bircə alaq?

Onları çıxarıblar,
İndi rahatdır yerim
Mən suyumu, şirəmi
Yaşılcıqlara verim.

Sənsə fikir eləmə
Yaza kimi dözərsən.
Qoynunu ürəyincə
Dən cücərdib bəzərsən.

Onlar mənimkilər tək
Yaşılcıqlar olacaq.
Heç səndə qalmayacaq,
Bircə dənə də alaq.

BİR OVUC TAXIL

Bir kənddə bir
Kəndli varmış.
Kasıb-kasıb
Dolanarmış.
Yazda əkər,
Qışda yeyər.
Allah, özün,
Yetir deyər.

Bu il taxıl
Az olmuşdu.
Yaya hələ
Çox qalmışdı.
Kəndli görür,
Uşaqları
Ac qalacaq.
Toxumluq dən,
Qalıb ancaq.
Üyütdürür,
Onu kəndli.

Evə qoyur,
Unu kəndli.

Yer şumlayır
Kəndli yenə.
O həsrətdir
Bircə dənə.
Kömək edən
Kimsəsi yox.
Bircə dolu
Kisəsi yox.
Şumladığı
Yerə baxır.
Üz-gözündən
Hey tər axır.
Hamı-hamı
Zəhmət çəkir,
Yer şumlayır,
Taxıl əkir.
Bu kəndliyə
Deyirlər: ─Sən,
Nə əkirsən?
Nə edirsən?
Kəndli dinir
Gözü yaşlı:
─Nə edim mən
Başı daşlı;
Gecə-gündüz
Dərd çəkirəm,
Qəm çəkirəm.
Torpağa da
Dərd əkirəm,
Qəm əkirəm.

─Necə-necə?...
Bu torpaqdan

Dərd göyərər,
Qəm göyərər.
Aləm bilər,
Onda bizə
Bəs nə deyər.
Gəl eləmə
Belə işi.
Dayan, kişi,
Dayan, kişi.
Dərdi, qəmi,
Əkmə yerə.
Bir ovuc dən.
Versin hərə.

Taxıl gəlir,
Ovuc-ovuc
Kisəni aç.
Heç utanıb
Çəkinmə sən.
Çox da deyil,
Bir ovuc dən.
Torpağını
Əkir kəndli
Qayğısını,
Çəkir kəndli.

Biçiləsi
Olub zəmi.
Sünbül-sünbül,
Dolub zəmi
Kəndli necə
Sevinir bərk...
Taxıl biçir
Axşamədək.
Neçə gündür,
Dincəlməyir.
Daha yerim

Yoxdur deyir.
Dolub evim,
Həm anbarım.
Yerdə qalır
İndi barım.
Ay mənim, əl,
Tutanlarım,
Köməyimə
Çatanlarım.
Gəlin taxıl
Aparın siz.
Qoy şən olsun.
Evləriniz.

Boş kisələr,
Dolu gedir.
Hamı yaman
Şadlıq edir.
Bərəkətli
Oldu taxıl.
Anbar-anbar.
Doldu taxıl.
Dedilər bəs
Nə yaxşı ki,
A kişi sən,
Yerə dərd, qəm
Əkməmisən.
Günü qara
Eyləyərdik.
Dərdi, qəmi,
Neyləyərdik?...
Heç dözməzdi
Ürəyimiz.
Onu necə
Yığardıq biz?

ÇOXDU KARANDAŞLARIM

Çoxdu karandaşlarım,
Nə rəngdə istəsən var.
Çoxdu vərəqlərim də,
Çoxdu quşlar, heyvanlar.

Lap birinci çəkirəm,
Qoy burda qaçsın keçi.
Bu-başı, bu-saqqalı,
Yox əşi, keçi neyçün?
Qoy çəkim mən quzunu,
Quzunun buynuzunu.
Ay aman, nə çəkirəm?
Keçi deyil, qoç deyil,
Quzuda buynuz olar?
Görməmişəm elə bil.
Heç quzu da çəkmirəm,
Beləcə qalsın onlar.
Çoxdu karandaşlarım.
Çoxdu quşlar, heyvanlar,
Vərəqlərim də çoxdu.
Xarab oldu ikisi.
İndi sərçə çəkərəm,
Lap gələr cikkiltisi.
Ay... yay... yay...
Sərçə yaman çətindi,
Heç çəkə bilmirəmmiş.
Bayaqdan çalışıram,
Çəkdiyim siçan imiş.
İlana da oxşayır.
Görəsən bəs bu nədir?
Vərəq çox, karandaş çox
Eh, hər nədir, hər nədir.
Bir dovşan da çəkim tez,

Qulaqları yepyekə.
Dovşan quşa oxşadı.
Qaranquş çəkim bəlkə...
Vərəq çox, karandaş çox.
Quşlar heyvanlar çoxdu.
Ancaq şəkil çəkməyə
Daha həvəsim yoxdu...

ÖZÜ BİLMƏYƏN MÜƏLLİM

Nərmin oyuncaqlara
Keçirdi hesab dərsi.
Danışır öz-özünə
Evi bürüyür səsi:
─Dovşan, ayağa dur sən.
Mənə deyə bilərsən,
Birin üstə gəlsən bir
Cavabı neçə edir?
Dovşanın əvəzindən
Qız özü cavab verir:
“Birin üstə gəlsən bir
Müəllim, “iki” edir.
─Sağ ol, a dovşan bala.
Sağ ol, a dovşan bala.
Bu gün sən “beş” alırsan,
Həmişə belə ola.
─A vedrə, lövhəyə gəl,
Cavab ver olma tənbəl.
Doqquzdan altı çıxsan
Yerdə neçəsi qalar?
Cavabını düz tapan
Dovşan kimi “beş” alar.
Vedrənin əvəzindən
Qız cavab verir yenə.

Sevinclə “beş” də yazır
Onun gündəliyinə.
Ay ütü, neçə edir,
On beş üstə gəl səkkiz?
Yamanca fikrə gedir,
Cavabını bilmir qız.
Acıqlanır ütüyə
Bərk qışqırır ütüyə.
─Dərsi bilmirsən niyə?

Öyrənmirsən bəs niyə?
Sualı çətin idi.
Nərmin hay-həşir saldı.
Cavab verə bilmədi
“İki”ni ütü aldı...

ŞİR ÜZR İSTƏMƏDİ

Günün qızmar vaxtında,
Şir əyləşdi taxtında.
Çağırdı heyvanları,
Bərk danladı onları:
Axmaqsınız, gicsiniz,
Dəlisiniz, bicsiniz,
Dönüş yox işinizdə,
Kəsər yox dişinizdə,
Axı pələng kimdir, kim?
İcazə vermədiyim,
Lazımsız işə gedir,
Özbaşınalıq edir?
Məni vecinə almır,
Heç məni saya salmır.
Pələng olduğu bəsdi!
Heyvanlar qorxdu, əsdi
Dilləndilər yer-yerdən:

—Kim çıxar bu əmrdən?
Ağzından köpük daşdı,
Şir daha da bərk coşdu.
—Bu gündən ölənədək,
Dovşanlıq etsin pələng!
Pələng elə sarsıldı,
Baxdı o yan-bu yana.
Sanki bu zaman ölüm,
Hökmü oxundu ona.
Burda şirlər, pələnglər,
Burda ayılar çoxdur.
Şir padşahın sözünə,
E'tiraz edən yoxdur.
Ağız-ağıza verib
Ulaşdılar çaqqallar:
—Bu əmrdən çıxmağa
Kimin ixtiyarı var?
Dovşanlıq etsin pələng,
Ona bu hələ azdır.
Möhtərəm Şir, bilirsiz,
O necə yaramazdı...
Xoşhallandı, şişdi Şir.
Ləzzətlə gərnəşdi Şir.
Baxdı gözünün altdan,
Şirlərə, pələnglərə.
Gördü hamı sakitcə,
Başını əyib yerə.
Tülkü durdu ayağa.
Quyruğunu buladı.
Dedi: —Bilin, bu pələng,
Pələng deyil bəladır.
Böyük Şir düz söyləyir.
Dovşanlıq etsin indi.
Susdu şirlər, pələnglər.
Nə danışdı, nə dindi.

Baxdı “təqsirkar” Pələng
O biri pələnglərə.
Gördü onlar tərpənmir,
Durub baxırlar yerə.
Xoşhallandı, şişdi Şir.
Ləzzətlə gərnəşdi Şir.
Sözümün qabağında
Söz deyəmməz heç bir kəs.
Əmrim yetsin yerinə,
Sabaha qala bilməz!
Nərildədi, bu pələng,
Guruldadı, bu Pələng.
─Dillənin, ay yoldaşlar,
Danışın, ay qardaşlar!
Heç belə də iş olar?
Pələng dovşanlıq etsin,
Mərdlik, güc, qüvvət itsin.
Xoşhallandı, şişdi Şir.
Ləzzətlə gərnəşdi Şir.

─A pələnglər, a şirlər
A tülkülər, çaqqallar.
A dələlər, dovşanlar,
Cavanlar, ağsaqqallar,
Nə danışır bu Pələng
Ləp məni elədi dəng!
Dovşan, dələ dindilər
Sanki şirə döndülər!
─Ay qağa, nədir qəsdin,
Dovşanın nəyi pisdi?
Kələm, yonca yeyərsən,
Kök də verin deyərsən.
Xoşhallandı şişdi Şir,
Ləzzətlə gərnəşdi Şir.



—Pələnglər niyə susur?
Danışmırlar heç axı?
Eşitmirlər sözümü?
Gözləri hara baxır?

Bu sözləri deyən Şir,
Cavabı gözləyən Şir.
Qorxurdu ancaq bir az.
—Yox, birdən demək olmaz...

Bu şirlər, bu pələnglər
Mən deyəni deməzlər
Əmrimə baş əyməzlər.
Acizəm bax onda mən.
Gücsüzəm bax onda mən.
Onlar dursa qəsdimə,
Onlar düşsə üstümə
Deyərəm “bağışlayın”
Səhv etmişəm, yoldaşlar.
Böyük, kiçik hamının,
Böyük, kiçik səhvi var”.
Ürəyində qorxan Şir,
Qurtarmamış sözünü
Pələnglər “Günahkara”
Bərəltdilər gözünü.
—Bala, get cəzanı çək,
Səndən olmaz heç pələng.
Ağılla, həm qeyrətlə
Dovşanlığını elə.
Xoşhallandı şişdi Şir
Ləzzətlə gərnəşdi Şir.
Bağışlayın demədi,
O üzr istəmədi.
Burda dəyişdi rəngi,
“Dovşan” olan pələngin.

Heç keçmədi bircə an,
Gözləmədi həkimi.
Gözlərinə doldu qan,
Öldü o, pələng kimi!

ƏLİNİN BELİ

Əlinin əli kiçik,
Əlinin beli kiçik.
Əli hələ belini
Götürməyib əlinə.
Qorxur yorar əlini,
Tərs-tərs baxır belinə.
Deyirlər ki, Əli, sən,
Bu beli istəmirsən, –
Ver qonşumuz Orxana,
Kənardan dur bax ona.
Onun əli sevinər,
Sənin belin sevinər...

ƏMİR

Yekə Oğlandır Əmir
Hələ də əmzik əmir.
Bir gün arxdan keçəndə
Əmziyi suda axdı.
Uşaq onun dalınca
Dayanıb xeyli baxdı.
Hərdən arxı görəndə
Əmzik istəyir Əmir.
Deyirik suda qalıb,
İndi balıqlar əmir...

YAĞIŞ

Yağış yağdı
İri-iri.
Təmiz yudu
Hər bir yeri.
Külək əsdi,
Dedi:bəsdi!
İri yağış
Tezcə kəsdi.
Yağış yağdı
Xırda-xırda.
Gölməçələr
Düzəlmişdi
Orda-burda,
Külək əsdi
Dedi: bəsdi!
Xırda yağış
Dayanmadı.
Yorulanda
Özü kəsdi...

BACIMIN BALINCI

Bir üzü
Qırmızı.
Bir üzü
Narıncı.
Balaca
Bacımın
Balaca
Balıncı...
Girdədir
Həmişə
Yerdədir.

Bu ona,
O buna
Atacaq
Balıncı.
Məstana
Tullayın
Üstündə
Yatacaq
Balıncın...

KÜSƏN GÜLLƏR

Hirslənəndə
Sevda durur
Güllü-güllü
Vedrəsini
Yerə vurur.
Qızdan küsüb
Qaçır güllər.
Kəmalənin,
Şəlalənin
Vedrəsində
Açır güllər.

YELLƏNCƏK

Iki-iki oturub
Yellənirdi uşaqlar.
Kamal kənarda durub
Qucağında heyva, nar.
Növbəsi gələn zaman
Yelləncəkdə oturdu.
Çox ağır olduğundan
Yoldaşı göydə durdu.

Süsən dedi: ─Kamal, sən,
Heyvanı, narı bölsən
Bizimlə yeyə-yeyə
Sən də qalxarsan göyə...

MIZILDANAN QIZ

Bir iş desən
Nazlıya sən
Mızıldana
Mızıldana
Görəcək o.
Çağıranda
Mızıldana
Mızıldana
Sənə cavab
Verəcək o.
Konfet, alma,
Versən ona.
Alacaqdır
Mızıldana
Mızıldana...
Ay uşaqlar,
Əl vurmayın:
Qıza ancaq...
Mızıldanıb,
Mızıldanıb
Ağlayacaq...

VERMƏRƏM

Deyirəm:
─Ay Kərəm,
Ya nənə,
Ya baba

Ya bəbə,
Seç götür
Birini.
Nənənin
Yanında
Bərkidib
Yerini,
─Vermərəm
Vermərəm
Söyləyir
Tez Kərəm:
Mənimdir
Nənə də
Baba da...
Bəbə də

OYUN

Gizlənpaç oynayırlar
Axşam bizim uşaqlar.
Gözlərini yuman da,
Qaçıb gizlənən də var.
Lakin kiçik Reyhanı
Heç kəs tapa bilmədi.
Nə qədər gözlədilər
O, yenə də gəlmədi.
Evlərinə gedəndə
Baxıb gördülər Reyhan
Çarpayıya uzanıb
Yuxuya gedib çoxdan.
Yorğanının altında
Oyunu unutmuşdu.
Yerinə girən kimi
Onu yuxu tutmuşdu.

YORULMURAM

Bu gün yenə səhərdən
Qarmon çaldım o ki var!
Yığışdılar başıma
Böyük-kiçik uşaqlar.
Bir-birinin dalınca
Düzülürdü mahnılar.
Qarmonumun dilindən
Süzülürdü mahnılar.
Nə qədər çaldımsa heç
Yorulmadım bir an da.
Ancaq tez yoruluram
Özüm təkcə çalanda...

İŞIQFOR

İşıqfor papağını
Basıb gözünün üstə.
Maşınlar keçir bir-bir
Yanından dəstə-dəstə.

İşıqforun işığı
Baxmır yağışa, qara.
Gecə-gündüz düzgün yol
Göstərir maşınlara.

YAXŞI OYUNÇU

Oyun vaxtı Rasimi
Hərə çəkir bir yana.
O deyir bizlə oyna,
Bu deyir bizlə oyna!

Uşaq qalır arada
Heç bilmir ki, nə etsin,

O tərəfəmi getsin?
Bu tərəfəmi getsin?
Həmişə qalib gəlir
Rasim oynayan dəstə.
Ona görə davadır
Gündə Rasimin üstə...

BAHAR

Şaxta, boran dalda qaldı,
Hər tərəfdə əridi qar.
Çiçək açar bu gün, sabah
Tumurcuqdur hələ bahar...

DURAN QATAR

Kupeyə girən kimi
Yuxusu gəlir deyə
Gecə qatarla getmək
Heç istəmir Ülviyyə.
Özü də bu qatara
Söyləyir yatan qatar.
Deyir: ─atacan, məni
Duran qatarla apar.
Duran qatar yatmayır
Həmişə gündüz gedir
Ülviyyə pəncərədən
Durub tamaşa edir...

YAĞIŞ KƏSƏR

Yağış yağır
Hava təmiz!
Göy açıq
Nənəm dedi:

—Yağışdan tut,
Göyə çıx!
İnandı bu
Sözə Lalə.
Nənəmə tez
Dedi belə:
—Heç yağışdan
Tutub göyə
Çıxmaq olar? —
Yağış kəsər,
Adam yarı
Yolda qalar...

TÜLKÜ

Tülküyə bax,
Tülküyə,
Çıxıb min bir
Oyundan.
İndi gəzir
Xalamın
Paltosunun
Boynunda...

AY

İşıqlıdır bu gecə
Ağ bulud ötür lay-lay.
Göyün yerə açılan
Pəncərəsi olub ay...

QARQIZ

Şaxta babanın
Vardı Qarqızı.
Onun yanağı
Güldən qırmızı.
Günəşi görmür
Haçandı Qarqız.
Ondan gizlənib
Qaçandı Qarqız.
Bir səhər ancaq
Darıxdı Qarqız,
Parlaq günəşə
Çox baxdı Qarqız...
Baxa-baxa da
Əriyirdi o.
Çəmən boyunca
Yeriyirdi o.
Əriyib tamam
Su oldu Qarqız.
Açdı çəməndə
Bənövşə, nərgiz...

ŞİRİN KONFET

Yolkanın budağından
Konfet azalır bir-bir,
O dəqiqə bildim ki,
Bu bacımın işidir.
Dedim: ─Bacı, niyə sən
Bu konfeti yeyirsən?
Bacım güldü:
─Yolkanın
Konfeti şipşirindi.

Qoy qoparım sənə də,
Ye bax ona bir indi...
Sonra da biz yenidən,
Budağa konfet düzək.
Rəngbərəng bəzək-bəzək.
Budaqlar dolsun, yeyək,
Şipşirin olsun, yeyək!

ŞABALID

Baxçamızda şabalıd
Çoxlu “kirpi” gətirdi.
Ancaq tikanlarını
Yetişəndə itirdi...

QURBAĞA

Hey hoppanıb gəzirsən,
Elə “qur-qur” dur
Sözün.
Axı, nədən qorxdun ki
Kəllənə çıxdı
Gözün?!

GÖBƏLƏK

Bağçamızda bir lək var,
İçində göbələk var.
Biz ki onu əkmədik
Dibinə su tökmədik?

Bəs onu kim becərdi,
Yəqin əmib günəşdən,
Güc alaraq torpaqdan
Öz-özünə cücərdi...

QIŞ AXŞAMI

Nənəmgilə gedirik
Biz üşüyə-üşüyə.
Ulduzlar da soyuqdan
Qorxub çıxmır eşiyə...

SARMAŞIQ

Sarmaşır
Ağaca
Sarmaşıq.
Dırmaşır
Ağaca
Sarmaşıq.
Uzanır
Hər yerə
Sarmaşıq.
İncədir,
Zərifdir
Ləçəyi.
Rəngbərəng
Şeypurdur
Çiçəyi...
Başını
Şeypura
Salacaq
Arılar
Vızhavız
Şeypuru
Çalacaq
Arılar...

DARIXMIŞAM

Çıxmayıb günəş bu gün,
Günəşi çağırmaqçün
Qapısı yox keçim mən,
Barısı yox aşım mən...
Yerdən günəşə qədər
Telefon da yoxdur heç
Bəs necə danışım mən?!

MARAQLI NAĞIL

Nağılların sonunda
“Üç alma” düşür göydən.
Bircə dəfə də ondan
Yeməmişəm hələ mən.
Qardaşımın nağılı
Yaman maraqlı idi.
Almaları göydən yox
Çıxıb ağacdan dərdi...

ŞƏFƏQ

Qapqara qızdı Şəfəq,
Əl çəkməyir dənizdən.
Hamıya da söyləyir
“Gündə qaralmışam mən...”

KÖKƏ

Nənə kiçik Mələyə
Bişirdi yağlı kökə.
Dedi əziz nəvəsi
Kökəni yedi bəlkə...
Uşaq kökə alan tək
Toplan gəldi yanına.

Quyruğunu buladı
Bir az da versin ona...
Kökəsindən tez kəsdi
Toplana atdı Mələk.
Toplan onunla gəzdi
Kökə qurtaranədək...

QATARLA GEDİRİK

Qatarla gedirik biz
Şəhərə, əmimgilə.
Açıqdır pəncərəmiz
Ordan baxıram çölə.
Səbətimiz doludur,
Alma, armud, üzümlə.
Bir pəncərə ulduz, ay
Qonaq gedir bizimlə...

NƏ DEYİM?

Bəzəkli tütəyimi
Bağçamıza gətirdim.
Başım qarışan kimi
Onu salıb itirdim.
Bir də gördüm yoldaşım
Bəkirdədir tütəyim.
Özü bilir mənimdir,
Vermir.
Ona nə deyim?!

KOPPUŞ

Nənəm oturub-durub
Hey yedirir Gündüzü.
Elə bil arı vurub
Necə koppuşdur üzü...

DƏNİZDƏKİ BALIQLAR

Bizim akvariumda
Balıqlar rəngbərəngdir.
Tökürük yem də, qum da,
Onlar yaman ürkəkdir.
Səs eşitcək bir anda,
Künc-bucaqda üzürlər.
Şüşəyə əl vuranda
Qaçıb yemək gəzirlər.
Vaxtında təzələyir
Sularını da atam.
Onları əzizləyir
Qoymur birini tutam...
Dənizdəki balıqlar
Hərdən yadıma düşür.
O qədər suları var,
Bəs onu kim d

OYUNCAQ TELEFON

Oyuncaq telefonu
Evdə qurub uşaqlar.
Bir-birinə baxmayıb
Söhbət edirlər onlar.
Azər əlində dəstək
Danışır Sevda ilə.
Qız bu yana baxan tək
Söylədi gülə-gülə.
─Ay yalançı, dayan bir,
Danışırsan elə sən.
Səs gələn ip qırılıb
Bəs necə eşidirsən?!

VAXTIM QALMADI

Sevər bibisi ilə
Şəhərə gedən zaman
Bacısına baxan tək
Yolda dayandı bir an.
Gülümsündü: ─bacıcan,
Sənsiz lap darıxacam...
Neçə gün, neçə gecə
Sevər özü bilmədi
Günlər keçirdi necə...
Çox oynadı, çox gəzdi,
Bir gün geri qayıtdı.
Səhər lap tezdən idi,
Bacısını oyatdı.
Öpüb dedi. ─bacıcan,
Demə qardaşım məni
Yadına salmadı heç.
Darıxmağa bircə an
Boş vaxtım qalmadı heç...

XALAMIN OĞLU

Xalamın oğlunu mən
Evimizə gətirdim.
Qorxurdu itimizdən
Alabaşdan ötürüm.

Dedim: ─ay Rövşən, qorxma,
Tutan deyil itimiz.
Ona acıqla baxma,
Belə öyrətmişik biz.

Axşam hay-küy qoparıb
Rövşən çörək yemədi.

Dedim səni aparıb
Itə verərəm indi.
Bunu eşidən Rövşən
Dönüb üzümə baxır:
Söyləyir, bəs ay Gülşən,
İtiniz tutmur axı...

QUZULAR

Çəməndə
uzanıb
Göy otlar
Quzular.
Bunları
Hey otlar.
Atıla-
Atıla
Gəzərlər
Quzular.
ən yumşaq
otları
üzərlər
Quzular.
Bəzən də
Yan-yana
Düzülüb
Oynaşar
Quzular.
Qoyunlar
gələndə,
cərgəsi
pozular,
qaynaşar
quzular.

TELLİ

Yanıma gəlib telli,
Danışdı dilli-dilli.
Dedi: ─Bilirsən nə var?
Yaman paxıldır Anar.
Dünən vermədi mənə,
Oynatmağa topunu.
Tez qaçdı evlərinə,
Sən də dirdirmə onu.
Züleyxaya bax hələ,
Söz danışır yalandan.
İndi buraya gələr,
Sən də küsərsən ondan.
Dedim: ─Telli, dayan bir
Paxıl, yalançı kimdir?
Tutuquşu kimi sən,
Söylədin bu sözləri.
Heç danışa bilərsən,
Burada olsa özləri?

ƏSGƏR OLAM

Mən yolda əsgər gördüm,
Dayanıb salam verdim.
Dedim mən də Əsgərəm,
Ancaq yaman istərəm,
Böyüyüb sənin kimi,
Özüm də əsgər olam,
Çoxlu medallar alam.

SOYUQ

Qapımızı açanda,
Soyuq içəri doldu.
Evimiz bircə anda
Bayır tək bumbuz oldu.

Sobanı yandıranda
Şaxta sakitcə getdi.
Nə üçün isinmədi,
O niyə belə etdi?!
Atam dedi: ─Ay bala,
Tənbəli güdər soyuq.
Zəhmətdən qorxanları
Tapıb üşüdər soyuq.

“BALACA GÖZ”

Haraya gedirəmsə,
Deyirlər bu sözləri:
“Çox qəşəng qızdır, amma,
Balacadır gözləri”

Yetişmiş meyvələri,
Birinci görən mənəm.
Bacımın çəkməsini,
Tez tapıb verən mənəm.

Şkafda hər nə varsa,
Görəcək mənim gözüm.
Gecə də olsa, bağdan
Dərərəm alma, üzüm.

İtəndə mən tapıram
Nənəmin iynəsini,
Babamın eynəyini,
Anamın düyməsini.

Ay əmilər, xalalar,
Var sizə bircə sözüm:
İndi özünüz deyin,
Balacadırmı gözüm?

ZƏRGÜL

Bacım gəlinciyinə
Özü ad qoyub; Zərgül,
Niyə baxırsan mənə, ─
Deyir: bir danış, bir gül.
De, yuxun gəlirmi! Hə?..
Qoy yerini düzəldim.
Dünən döşək tikmişəm.
Yorğanın da gözəldi,
Gör nə qəşəng tikmişəm.
Di gəl, öpüm üzündən,
Çıxmayasan sözümdən.
Axşam oldu yat, zərgül,
Oyananda danış, gül.
O heç yatmamış bir az,
Bacım saata baxıb,
Deyir: dur, yatmaq olmaz,
Səhərdir, günəş çıxıb.
Zərgüllə oynamaqdan
Nə yorulur, nə doyur.
Görürəm ki, bayaqdan
Gah deyir, axşamdır, yat,
Gah deyir səhərdir, dur.

ULDUZLAR

Əmim boruları,
Qaynaq edəndə,
Qaçıb tez yanında
Dururam mən də.
Qığılcım ulduzlar,
Oynaşır yaman.
Baxanda gözlərim
Qamaşır yaman.

Əmimin gözündə
Yekə eynək var,
Toxunub eynəyə
Qaçır ulduzlar...

SOYUQ GƏLMƏZ

Sərçələrin
yuvasının
Qapısı yox,
bacası yox.
Bərk qar yağır
hava soyuq...
Bir az keçmədi qapı
düzəldi qardan.
Daha soyuq içəri
dolacaq hardan?

İLK MƏKTUB

İlkinin də qardaşı
Əsgər gedib bu payız;
Məktub gələnə kimi,
Yaman darıxırdı qız.
Məktuba İlkin necə,
Səssiz qulaq asırdı...
Əsgər qardaşı təkcə,
Ona belə yazırdı:
“Öpərsiniz İlkini,
Hamınız əvəzimdən,
Məktubumun ilkini
İlkinə yazıram mən”.
Bir bacısı yalandan
Öpməmişdi İlkini,
Qız da küsmüşdü ondan,
Danışmadı o günü.

“PİŞİ”

Nənəm “pişi” bişirir,
Bişənləri düşürür.
Pişik də gözləyir,
“Pişi”ni bişsin.
Pişik də gözləyir,
Xəlvətə düşsün.
Başım qarışan kimi,
Pişik yedi “pişi”ni,
Pişik yedi beşini.
Pişt, pişt! ─dedim pişiyə,
Pişik qaçdı eşiyə.
Pişik qalsın eşikdə,
Qoy üşüyə-üşüyə.

RÖVŞƏNİN DİŞİ

Rövşənin muncuq kimi,
Xırdaca dişləri var.
Fındığı da, qozu da,
Dişinə salıb qırar.
Bilirəm bunu yəqin,
Ya çox, ya az qıracaq,
Onun dişini bu gün,
Fındıq, ya qoz qıracaq.

QAR ÜZƏ BİLMİR...

Qar yağdı,
Ağartdı,
Hər yeri.
Yolları,
Evləri,
Düzləri.
İstərəm

Ağarsın,
Dəniz də.
Ancaq ki,
Qar üzə
Bilməyir–
Tez batır
Dənizdə.

KUKLA BOYDA QIZ

Xumar qarayanızdır
Şirindilli bir qızdır.
Mavigöz kuklası var,
Kukla boydadır Xumar.
Bağçaya gedir bu qız
Kukla evdə qalır tək.
O, darıxır Xumarsız
Bağçadan gələnədək.

Nə olsun ki, Xumarın
Kukla boyda boyu var,
Oxuyur kuklasına,
Gözəl-gözəl mahnılar.

KƏSDİ AĞRISI

Bu gün yenə də
Ağrıyıb dişim.
Ağlamaq olub
Səhərdən işim.
Yanıma gəldi,
Rəfiqəm Gülnaz
Gəlinciklərlə
Oynadıq bir az.
Ağrıyan dişim
Çıxdı yadımdan.

Dedim: ─ay Gülnaz,
Getmə yanımdan...
Niyə səhərdən
Gəlmirsən ki, sən
Ağrıyan dişim
Kəssin bax belə
Mən də səninlə
Oynayam, güləm.

GÜLLÜ

Bir qız vardır─
Adı Güllü.
Səliqəli,
Şirindilli.

Bir gün Güllü
Kuklasına
Paltar tikdi.
Don nə böyük,
Nə kiçikdir.
Geyinən tək
Kukla birdən
Cana gəldi.
Qəşəng qıza
Baxıb güldü:
─Güllü bacı,
Güllü bacı,
Şirin-şəkər,
Dilli bacı...
İş ver mənə,
İş ver mənə.
Kömək edim,
Mən də sənə.

İndi kukla
Güllü ilə,
İş görürdü.
Çox həvəslə.
Kukla dedi:
─Güllü bacı,
Şirin-şəkər,
Dilli bacı,
Bu oyuncaq
Dovşan ki var,
Ona da tik,
Təzə paltar.

Budur, köynək
Dovşana nə
Yaxşı oldu!
Cana gəlmiş,
Dovşanın da
Sevincindən
Gözü doldu:
─Güllü bacı,
Güllü bacı,
Şirin-şəkər
Dilli bacı,
Gəlir hər cür
İş əlimdən.
Qoyma işsiz
Darıxım mən.
Fikirləşib
Güllü yenə,
İş tapırdı
Hər birinə.
Güllü bağa
Çıxdı onlar
Güldana gül,
Yığdı onlar.

Baş çəkdilər.
Çiçəklərə.
Su tökdülər
Dibçəklərə.

Güllü paltar
Tikib yenə,
Geydirmişdi
Ördəyinə.
Canlanmışdı
Taxta ördək...
Kukla, dovşan
Qışqırdılar:
─Çaya gedək!
─Çaya gedək!
Keçirərəsən
Çaydan bizi.
Seyr edərik
Meşəmizi...
Adladılar
Gülə-gülə,
Bu sahildən
O sahilə.
Dolandılar
Düzü, yalı.
Şənləndilər
Bütün yolu.

Güllü, sətin
Şalvar tikdi
Gözəl rezin
Xoruzuna.
Çox yaraşdı
Şalvar ona.
Xoruz tezcə
Quqquldadı

Bircə ağız:
─Mənim işim
Budur yalnız...
Güllü bacı
Dedi: ─Xoruz,
Sən bir çala
Qazacaqsan.
Tum salacaq
Ora dovşan.
Kukla onu
Basdıracaq.
Ördək arxdan
Su açacaq.
Acıqlanmış
Xoruz durdu.
Dimdiyini
Yerə vurdu:
─Necə? Necə?
Bu nə işdir,
Ən çətini
Mənə düşdü?-
Kukla, dovşan,
Bir də ördək...
Dedilər: ─Di,
Soyun görək!
Hər nəyin var!
Tez xoruzun
Paltarını
Çıxartdılar.

Xoruz dönüb.
Oldu, ancaq
Yenə rezin
Bir oyuncaq.

CIRTDANIN KÖKÜ

Ala dovşanın
Dəcəl, davakar,
Cırtdan adında
Bir balası var.
O, balasına
Sarı kök alır.
Cırtdan da gündə,
Yeyib kökəlir.
Bugünkü kökü
Lap yekədir ki!..
Bu kökü Cırtdan,
İplə bağladı.
Yeməyib onu,
Hələ saxladı.
Yoldaşlarını
Aldatsın deyə.
Dalına atıb,
Çıxdı küçəyə
Kökünü qoydu,
Düz yola dovşan.
Qaçıb gizləndi,
Tez bala Dovşan.
Bir Dovşan burdan,
Bağçaya gedir.
Əli cibində
Zümzümə edir.
O, kökü görüb,
Dayandı bir an.
Ağzı sulandı,
Dedi: ─ay aman,
Nə iri kökdür?
Nə sarı kökdür?
Şirinlikdə də

Yəqin ki, təkdir?
Götürsün onu
İstədi yerdən.
Cırtdan tez çəkib
İpini birdən,
Güldü, ha güldü:
—Yeyə bilməzsən,
Mənim şipşirin,
Sarı kökümdən.
Dovşan durmayıb,
Yola düzəldi.
Sonra qışqırdı:
—Bağçadakı kök
Daha gözəldir!
Orada şirin,
Kök yeyirəm mən.
Yerdəki kökü
Neyləyirəm mən?

Durub yenə də
Gizləndi Cırtdan.
Bir cüt məktəbli,
əkiz dovşanı
Gözlədi Cırtdan.
Onlar da kökə,
Yetişən zaman
Qışqırışdılar:
—aman, ay aman,
Nə sarı kökdür?
Nə iri kökdür?
Şirinlikdə də
Yəqin ki, təkdir?
İstədi biri,
Götürsün yerdən,
Cırtdan tez çəkib

İpini birdən
Güldü, ha güldü:
─Ay əkizlər, siz,
Bu yekə kökü,
Yeyə bilməzsiz.
Məktəbə qaçdı,
Əkiz qardaşlar.
Qışqırışdılar:
─Çantamızda bax,
Öz kökümüz var.
O yerindəcə,
Gizləndi yenə.
Aldatmaq üçün,
Gəlib-gedəni.
Gözlədi yenə.
Cırtdanın başı,
Qarışdı birdən

Qarışqalara.
Yoldan keçənin,
Biri bu ara,
Kökü ipindən,
Qopardı gizli...
Cırtdan bilmədi
Apardı gizlin
Cırtdan düşündü:
─Məktəbdən gələn,
Məktəbə gedən,
Qəşəng kökümə,
Baxmayır nədən?
O, tez yerindən,
Hoppanıb qalxdı,
Bir ipə baxdı,
Bir yola baxdı.
Gözünün yaşı,

Sel kimi axdı.
─Ay qəşəng köküm,
Ay iri köküm,
Ay sarı köküm,
Ay şirin köküm.
Aldadıb məni,
Kim yedi səni?
Yüyürdü evə,
Dedi: ─Anacan,
Kökü aparıb,
Kim isə yoldan.
Hamının qəşəng,
Iri kökü var.
Kimi bağçada,
Kimi məktəbdə,
İndi kök yeyir,
Bütün uşaqlar...
Kimlə oynayım?
Bəs mən nə edim?
Anacan, daha
Məni də yazdır,
Məktəbə gedim.

KİM DÜZ OXUDU?

Bir varaq tapdı
Məstan həyətdən.
Sevindi:"bunu,
Oxuyaram mən."
Miyoldayıb o,
Çox səs-küy saldı.
Toplan varağı
Əlindən aldı:
─Səhv oxuyarsan,
Qulaq as mənə.

İndi oxumaq,
Öyrədim sənə.
“Ham”, “ham” ─eləyib
Hürdü o bir az.
Məstan qışqırdı:
─Heç zaman belə
Oxumaq olmaz!
O, buna dedi
Bu, ona dedi
─Sən səhv oxudun.
─Sən səhv oxudun.
Çox mübahisə,
Etdilər onlar.
Durub varağı
Oxutmaq üçün
Getdilər onlar,
“Qar”, “qar” edirdi,
Qarğa balası.
Dərsə gedirdi,
Qarğa balası.
─Varağı ona
Verərik indi.
Kim düz oxuyur?
Görərik indi.
Onlar dedilər:
─Ay bala qarğa,
Nə yazılıbdır
Gör bu varağa?
O qarıldayıb.
Çox höccələdi.
Sözləri qırıb,
Lap heç elədi.
Məstan söylədi:
─hə mənim kimi,
Oxudu qarğa.

Toplan söylədi:
–Mən də beləcə
Oxuyan zaman,
Heç yanımızda
Yox idi qarğa.
Çox mübahisə
Etdilər onlar.
Yazını bir də,
Oxutmaq üçün
Getdilər onlar.
Bülbül balası,
Oxuyurdu dərs.
Yaxınlıqda da,
Yoxdur heç bir kəs.
Məktəbə gedir
O da bu ildən.
Özü də yaman
İtidir dildən.
Yazır, oxuyur,
Həvəslidir o.
Eşidirik biz,
Xoş səslidir o.
Varağı ona
Verərik indi.
Kim düz oxuyur?
Görərik indi.
Tez bala bülbül,
Gözəl səsiylə,
Öz həvəsiylə
Oxuyub durdu.
Ona bir xeyli,
Məstan əl vurdu,
Toplan əl vurdu.

ŞƏKİLLİ KİTAB

Atası kitab
Aldı Sevincə.
Qız bunu görüb
Oldu sevincək.
Alması, narı,
Dovşanı da var.
Sanki canlıdır
Rəngbərəng quşlar,
Şəkillə dolu
Bütün vərəqlər.
Uşaqlar gəlib
Bir-bir vərəqlər.
Birisi dedi:
Almalı vərəq
Xoşuma gəlir.
Gəl onu cıraq.
Mızıldandı qız:
—Yox, yox, cırmaram
Bircə vərəq də.
Gör nə gözəldir
Alma vərəqdə?..
Uşaq istədi,
Küssün Sevincdən.
O da qışqırdı:
—Yaxşı, getmə sən.
Kitabda şəkil,
Onsuz da çoxdur.
Nə bilinəcək
Alması yoxdur?
Sevinc qoparıb
Vərəqi verdi.
Bu zaman onu
Yoldaşı gördü.
O da söylədi:



—Armudlu vərəq
Xoşuma gəlir.
Onu da cıraq.
Bunu eşitcək,
İndi hər vərəq
Qorxub yer-yerdən,
Dindi hər vərəq:
—Ay qız, nə olar,
Sən, cırma bizi.
Bir-birimizdən,
Ayırma bizi.
Xoşdur, rahatdır,
Burda yerimiz,
Cırılsaq əgər
Nə olarıq biz?
Kitabın yaşla,
Dolub gözləri.
Sevinc eşetmir
Bəs bu sözləri?
Eşidir, ancaq,
Fikir verməyir.
Armudsuz olsa,
Kim bilər deyir.
Onları yolda,
Külək gəzdirir.

Həmin kitabdan
Elşən də aldı.
Kamal, Aytəkin,
Gülşən də aldı:
Süsən deyirdi:
—Daha rənglidir
Mənim kitabım
Çox bəzəklidir,
Mənim kitabım.

Baxın armuda,
Necə sarıdır.
Sizinkilərdə
Beləsi vardı?
Güldü Aytəkin:
─Hə, onda gəl sən
Bax dovşanıma,
Gör nə görərsən.
Gözləri qəşəng,
Tükləri parlaq.
Heç səndə varmı
Belə bir vərəq.
Burda uşaqlar,
Kitablarını
Əzizləyirlər.
Cırılmaqdan da,
Əzilməkdən də,
Hey gözləyirlər.
Sevinc gah ona,
Gah buna baxır,
Kitablardakı
Məstana baxır.
Dovşana baxır.
Alma şəklindən,
Çəkmir gözünü.
Bundan da vardı,
Əvvəl özünün.
İndi dursaydı
Alması vardı
Armudu vardı,
Kitabını da
Adam cırardı?

YALAN TUTAN

─Bilirsən nə edərəm? ─
Bir gün ova gedərəm,
Dovşan, kirpi, ya tülkü,
Əlimdən qaçmaz bil ki.

Pələngi görən kimi,
Çıxardıb tüfəngimi,
Nişan alıb bir anda
Vuraram ayağından.
İp salaram başına
Mindirərəm maşına
Maral olsun, ya ceyran
Güllə atmaram düzü,
Yanıma gələr özü.

Görsəm əgər ayını,
Tez verərəm payını.
Bircə güllə ilə mən
Vuraram təpəsindən.
─Sən nə edərsən, dostum?
─Nə edərəm? ─
Mən sənlə gedərəm,
Ancaq nə qaçaram mən,
Nə də tüfəng ataram,
Sənin yalanlarını
Bircə-bircə tutaram.

ÜÇ QOÇAQ

Nə yanğından,
Nə çovğundan
Qorxmayan üç
Uşaq varmış.
Onlar heç vaxt,

Kədər bilməz,
Qüssələnməz,
Bütün günü
Şən olarmış.

Maşınlar da,
Düzəldərmiş
Özlərindən.
Ən kiçik quş,
Nəhəng heyvan,
Yayınmazmış
Gözlərindən.
Onlar bir gün,
Gəzmək üçün
Göydə uçan,
Qanad açan,
Yerdə gəzən,
Suda üzən,
Üç adamlıq,
Kiçik maşın
Düzəltdilər.
Onu hələ,
Adamlardan
Gizlətdilər.

Uşaqların,
Qoçaqların,
Uzaq göyə
Səfəri var...
Ancaq ora
Hardan çıxsın
Bilmir onlar?

Fikirləşib
Dərin-dərin

Dedilər ki,
Göylə yerin
Birləşdiyi
Yerdən çıxaq.
Üçümüz də
Birdən çıxaq.
Ora bax bir,
Birləşibdir
Göy ilə yer.
Biz əl-ələ
Verək gəlin.
Maşını düz
Həmin yerə
Sürək gəlin.
Dayanmayıb,
Heç dönməyib
Düz getdilər.
Dağlar keçib,
Çaylar keçib
Düz getdilər.
Yol gedirlər
Neçə gündür.
Maşınları
Nə dayandı,
Nə də döndü.

Yol gedirlər
Şirin-şirin...
Göylə yerin
Birləşdiyi
Yer görünür.
Bu yollarda
Gah açılır,
Gah bürünür
Buludlara.

Bəs nə üçün
Çatmırıq biz
Axı, ora?!
Ruhdan düşmək
Olarmı heç?
Gözəl maşın,
Dərələrdən,
Təpələrdən,
Çaylardan keç.
Çatsaq əgər,
Sən də biznən
O göylərə,
Uzaqlara
Çıxacaqsan.
Hə, oradan
Yer üzünə
Baxacaqsan.

Maşın gedir,
Maşın uçur.
Uşaqlar gah,
Üşüyür bərk,
Gah tər tökür
Puçur-puçur.
Çünki onlar
Keçir hərdən,
Ya çox soyuq
Ölkələrdən,
Ya da isti
Ölkələrdən.

Yox deyəsən
Yerlə göyün
Birləşdiyi
Yerə çatmaq

Olmur axı?
Adama da,
Görsənir o
Necə yaxın!

Onu bizdən
Uzaq salan
Görən nədir?
Bəlkə elə
Tilsimdədir?
Gəl maşını
Lap bərk sürək.
Tezcə çatıb
Bunu görək.
Maşın gedir.
Dincəlməyir.
Bax, bu zaman.
Uşaqların
Biri deyir:
─Siz də baxın
Bu düzlərə,
Çəmənlərə.
Lap oxşayır
Bizim yerə.
─Doğrudan a...
Axı, hara
Gəlmişik biz?
Az qalıram
Deyəm ki, mən
Bu, bağçamız,
Bu, evimiz!
Özüdür var!
Aman, necə
Heyrət etdi
Bu uşaqlar.
Bərk-bərk silib

Gözlərini.
Evlərinin,
Düz yanında
Yenə görüb,
Özlərini,
Dedilər bəs
Yerlə göyün
Birləşdiyi
O yer hanı?
Pəh, qoçaqlar
Fırlanıblar
Bu dünyanı!
Odur, orda
Birləşibdir
Göy ilə yer.
Cürətin var
Maşını sən
Yanına sür.
Necə-necə,
Bir də ordan
Qalxacağıq?
Yox, daha biz
Uzaq göyə
Elə burdan.
Qalxacağıq.

Bu günlərdə,
Göyə qalxan
Bir maşın da,
Düzəltdilər.
Bax, bunu da
Uşaqlardan,
Böyüklərdən
Gizlətdilər.
Uçan zaman

Götürdülər.
Nə havası,
Nə yeməyi,
Nə də suyu
Qurtarmayan
Bir balonu.
Tez maşına
Qoyub onu
Gəzək deyə,
Uçdular, düz
Mavi göyə.

Maşınları
Düz qalxırdı,
Daynmırdı,
Dönməyirdi.
Kiçik motor,
Xarab olub
Sönməyirdi.
Gör nə qədər
Uçdu onlar1
Göyün neçə
Qatlarından
Keçdi onlar!
Bu yerlərdə
Hava yoxdur.
Balondasa
Ancaq çoxdur.
–İndi göyün
Biz neçənci
Qatındayıq?
–Bəlkə elə
Ulduzların
Altındayıq?
–Bir dayanıb
Yerə baxaq.

Ondan sonra
Yenə qalxaq.
Dayandılar:
Yer görünmür,
Bir-birinə
Çox oxşayan
Gör nə qədər
Planet var!
Nə bilsinlər
Hansıdır Yer.
İşə bax bir!
İndi hara
Düşəcəklər?
Yəqin azıb,
Yerdən çox-çox
Uzaqlara
Düşəcəklər.
Yerə oxşar,
Bir planet
Görürdülər.
Maşını da,
Həmin yerə
Sürürdülər...

Demə onlar
Səhv gəliblər.
Bəlkə elə
Bura Marsdır,
Yer biliblər?
Nə eybi var.
Bu qoçaqlar,
Çətinlikdən
Qorxan deyil.
Yorulmağa,
Ac qalmağa,

Baxan deyil.
Meyvələrdən
Tum çıxarıb
Əkdi onlar.
Dedilər ki,
Bir vaxt burda
Geniş, gözəl
Bağlar olar.
Hər kim görsə
Bu yerləri
Tapıb yeyər
Meyvələri.
Uşaqlar da
Döndü geri.
Bu dəfəsə
Taparlarmı
Bizim Yeri7
İstədilər,
Çoxlu ulduz
Götürsünlər.
Onu yerə
Gətirsinlər.
Ancaq Göydə
Gündüz idi
Ulduzlar da
Gizlənmişdi.
Eybi yoxdur,
Belə-belə
Səyahətlər
Hələ çoxdur.
Gecə gəlib
Parlaq ulduz
Qopararlar.
Uşaqlara
Apararlar.

İndi gəlin
Düşək Yerə.
Böyük, geniş,
Qəşəng Yerə.
Maşın uçdu
Qanad açdı.
Toz-tozanaq
Qalxdı göydən.
Gecə oldu,
Ulduzlar da,
Dallarınca
Baxdı göydən.

AĞACLAR OYNAMASIN

Ağaclar yırğalanır,
Şəfəq baxır aynadan.
Deyir bacı, onları.
Kimdir belə oynadan?
Bacısı başa salır.
–Külək çalır astaca.
Bax, quşlar da oynayır.
Budaqların üstdəcə.
Birdən bərkiyir külək.
Qız qorxub çığırır bərk.
Bacı, bacı, gəl qoyma,
Quşlar uçub qaçdılar,
Ağaclar dalaşdılar.
Küləyə de, dayansın,
Ağaclar oynamasın.

HARDA GİZLƏNİR

Çəməndə çıxmır
Yağışın səsiş
Harda gizlənir
Şır-şır nəğməsi?

ÜZÜM

Üzümə bax üzümə.
Baxır mənim sözümə.
Çağırmışam onu mən.
Birinci mərtəbədən.
Dırmaşa-dırmaşa o
Beşinciyə çıxıbdı.
Hər mərtəbədə barlı
Çardaq qoyub qalxıbdı.

ÇÖÇƏK XALA

Ağ dovşandı ,
Çöçək xala.
Gözəl xala,
Göyçək xala.
Üz-gözünə
Sığal verir.
Gündə də bir
Dovşan sevir.
Qonşusudu
Xallı dovşan.
Çöçək xala
Sözdən qoymur.
Onu bir an.
Gah nazlanır.
Gülə-gülə.
Gah da tutur
Onu dilə:
─Bu gülləri
Dərim sənə.
Dəstələyim
Verim sənə.
Mən dərdindən

Ölürəm bil
Sevgim elə-
belə deyil.
Sən də məni
Sevməlisən
Məndən ötrü
Ölməlisən
Bu sözlərdən
Qorxdu Xallı.
Ürkək-ürkək
Baxdı Xallı:
─Çöçək xala,
Çöçək xala,
Nə deyirsən
Göyçək xala?
Mən abırlı
Bir dovşanam.
Utanaram
Bilsə anam.
Ayıbdır ey...
Düşün bir az
Yaxşı deyil,
Belə olmaz
Qəzəbləndi
Çöçək xala.
Gözəl xala,
Göyçək xala:
─Pah! Özünü
Öyənə bax!
Mənə xala
Deyənə bax!
Hardan oldum
Sənin xalan?
Niyə yalan
Danışırsan?

Qulağını
Əsdirir O.
Qaş-gözünü
Süzdürür o:
─Mən dünənki
Uşaqcığaz.
Beşcə yaşım
Olur bu yaz.
Mənim tayım
Deyil hər kəs
Get özünə
Sevgili gəz
Xallı tezcə
Qaçdı getdi.
Bircə anda
Gözdən itdi.

Çöçək xala
Boz dələni
Yanlamışdı.
Onu xeyli
Danlamışdı:
─Ay dələ sən,
Ay dələ sən
Eşitmişəm
Məni yaman
Çox sevirsən
Məndən ötrü
Lap dəlisən?...
Səni çoxdan,
Sevirəm mən.
Al, könlümü
Verirəm mən.
Ürəyini
Üzmə-üzmə,
Sən də məndən

Uzaq gəzmə.
Dələ burda
Darıxdı bərk.
Sıxıldı bərk
Karıxdı bərk:
—Çöçək xala,
Çöçək xala
Gözəl xala.
Göyçək xala,
Arvadım var,
Uşağım var,
Eşidərlər,
Səni, məni
Qınayarlar.
Çöçək xala
Əsdi, coşdu.
Sözləri dal-
Dala qoşdu
Eşit Dələ,
Ay Dələ sən.
Lap ölsəndə
Ancaq məni
Sevməlisən.
Toy eləyib
Almalısan.
Sən mənimlə,
Qalmalısan.
Dələ dedi:
—Əl çək, balam.
Sən kimsən ki,
Səni alam?
Bu dəqiqə,
Koğuşuna
Girməsən sən.
Zəvzələsən,

Kiriməsən.
Səni döyüb,
Vuracağam.
Başında qoz
Qıracağam.
Qorxub qaçdı.
Çöçək xala.
Gözəl xala,
Göyçək xala.
Elə girdi
Yuvasına.
Az qaldı ki,
Qıçı sına

Sakit gəzir
Kirpi əmi.
Çöçək xala
Görən kimi
Tezcə çıxır.
Qabağına.
Nazla salam
Verir ona.
─A Kirpi bəy,
A Kirpi bəy,
Sən hərdən bir,
Bir bizə dəy.
Şirin-şirin
Söhbət edək
Axşamadək,
Səhərədək.
Kirpi ayaq
Açdı gəldi.
Boş olanda
Çöçəkgilə
Qaçdı gəldi.

Kol-koslarda
Gəzdi onlar.
Gül-çiçəyi
Üzdü onlar.
Danışdılar
Ordan-burdan.
Danışdılar.
Olanlardan,
Qalanlardan.
Çox çəkmədi
Bu görüşlər.
Bu alışlar,
Bu verişlər
Gəlib sona
Çatdı bir gün.
Kirpiciyəz
Çöçəyicə
Atdı bir gün
Kirpi ona
Görünmürdü.
Görünəndə
Tikanına
Bürünürdü.
Düşdü dilə-
dişə Çöçək.
Cırnadı bu
İşə Çöçək:
─Qaçma, kirpi,
Qaçma dedi.
Mənə oyun
Açma dedi.
Bilki səni
Sevirəm mən.
Sən də məni
Sevməlisən.

Kirpi ona
Baxdı tərs-tərs:
─Deməzsən ki,
Aldatdım bəs?
Tikanını
Qabartdı o.
Haray-həşir
Qopardı o.
─Dayan, dayan,
Necə, necə?
Səni sevim
Axmaq Çöçək?
Eşit, ələ
Al özünü.
Sən adımı
Çəksən bir də,
Oxlayaram
Baş-gözünü.
Hirslənərək
Getdi Çöçək.
Boz ayıya
Tez şikayət
Etdi Çöçək.
─Ayı qardaş.
Dərdim çoxdu.
O kirpidi,
Ya, ox-oxdu.
Məni belə,
Aldadıbdı.
Gülə-gülə
Aldadıbdı.
Daha məni
Sevmir o da.
Mən deyəni
Demir o da.

Mən deyəni
Demir o da.
Ləkələnib.
Təmiz adım
Onu yaxşı
Tanımadım.
Qaçmasın o
Heç bir yana.
Ağır cəza
Verin ona.
Kirpi işi
Yaxşı qurdu.
Görünmədi,
Sakit durdu.
Cəza aldı.
Çöçək xala.
Gözəl xala,
Göyçək xala.

Yola-izə
Çıxmır Çöçək.
Ona-buna
Baxmır Çöçək.
Xəbəriniz
Yoxdur deyir.
Söz göndərib,
Pələng bəyin
Özü mənə.
Çoxdan düşüb,
Gözü mənə.
Can alandı
Gözüm, qaşım.
Ancaq, bir az,
Azdı yaşım.
Ona görə
Elçiləri

Qaytarıram
Hələ geri.
Pələng bəyə
Çatdı bu söz.
Beyninə də
Batdı bu söz.
Dedi: ─Çöçək
Lap düz deyir.
Biz pələnglər
Arada bir
Dovşan yeyir.
Sevirəm mən
O Çöçəyi
O gözəli
O göyçəyi
O da mənə
Könül versin
Ağzıma düz
Gəlib girsin.
Bu xəbəri
Eşidəndə
Göçək xala.
Gözəl xala.
Göyçək xala.
Qorxusundan
Əsdi tir-tir.
Dedi: ─Əşi
Sevgi nədir,
Mevgi nədir.
Mənim yaşım
Ötüb daha.
Gümanım yox
Heç sabaha.
Bu sevilmək,
Sevmək ki, var.

Məşğul olsun
Qoy cavanlar.

Xeyli vaxtdı
Görünmürdü
Çöçək xala.
Gözəl xala.
Göyçək xala.
Üzə çıxdı
Yenə bir gün.
Qara geyib,
O, büsbütün.
Təsbeh, möhür,
Əlindəydi,
Qarğış, dua,
Dilindəydi.
Ölü yuyub
Ağlayandı,
Ürəkləri
Dağlayandı.
Çox işlərə
Girişmir O,
Hırıldayıb
İrişmir O.
Ağırlaşıb
Çöçək xala
Fağırlaşıb
Çöçək xala.
Tas qurub O.
Fala baxır.
Deyirlər çox
Əla baxır.
Könül görüb
Allah özü.
Vergi verib

Allah özü
Pay-pürüşü
Kəsilməyir
Yemək, içmək
Əksilməyir.
Çöçək xala,
Çöçək xala.
Falçı olub,
Baxır fala.

DAYLAQ

Gözəl Daylaq,
Gözəl Daylaq.
Sağa-sola
Atır şıllaq.
Quyruğunu
Yelləyir o,
Milçəkləri
Teyləyir o.
Ayaqları
Uzun, nazik.
Boyu uca,
Başı dimdik.
İpək yalı
Yanır par-par.
Çox xoşlayır,
Sığal, tumar.
Ağzı qara,
Gözü qara,
Qaçır gedir
Uzaqlara.
Anası da
Tez kişnəyir:
Gəl, yanımda

Oyna deyir.
Gözəl Daylaq
Gözəl Daylaq.
Sağa-sola
Atır şıllaq.

Bir qoduqla
Rastlaşdı O.
Onunla da
Dostlaşdı o.
Qoduq yaman
Çirkin idi.
Heç adama
Xoş gəlmirdi.
Ağız yekə,
Qulaq uzun,
Hiyləsi var
Zığlıgözün
Daylaq gözəl,
Daylaq qəşəng.
Qoduq dedi:
–İkimiz də
Olaq qəşəng.
Dostum, qırxım,
Qoy yalını,
Sənin keçi
Saqqalını
Gözəlləşib
Mənə oxşa
Mənim kimi
Qəşəng yaşa.
Gözəl Daylaq,
Gözəl Daylaq,
Sağa-sola
Atdı şıllaq:

Hamı deyir
Qəşəngəm mən.
Gözəllikdə
Lap təkəm mən.
Nəyə lazım
Yalım, telim.
Qoy daha çox,
Xoşa gəlim.
Qoduq tapdı
Bir korş ülgüc
Sərf elədi
O xeyli güc
Çox həvəsə
Gəldi əli.
Yoldu, qırxdı
Yalı, teli.
Kifir Daylaq,
Kifir Daylaq.
Sağa, sola
Atdı şıllaq.
Ona baxır
Doymur Qoduq.
Dil boğaza
Qoymur Qoduq:
─A Daylaq, sən,
─A Daylaq, sən,
Nə gözəlsən,
Nə qəşəngsən?!
Saçın başın
Düzəldi, bax.
Üzün, gözün,
Gözəldi, bax!
İndi keçək
Quyruğuna.
Quyruğunun

Buyruğuna.
Bu quyruqdur,
İpdir, nədir?
Bəlkə elə
Süpürgədir?
Süpürgəni
Neyləyirsən?
Milçəkləri
Teyləyirsən?
Onlar səndən
Qorxur, balam...
Arxayın ol,
Onlar gendən,
Baxır, balam...
Öz işini
Bilir Qoduq.
İa... iaa...
Gülür Qoduq:
–Utandırıb
Bəlkə bizi,
Süpürəsən.
Küçəmizi
Səndən çıxar,
Hər nə desən
Doğrudan da,
Utanmayıb.
Zir-zibili
Süpürəsən.
Lazım deyil
Bizə quyruq.
Kəsək, çıxsın
Təzə quyruq.
İşə düşdü,
Yenə ülgüc.
Sərf elədi

O, xeyli güc
Gözəl quyruq,
Gödək oldu.
Gödək oldu,
Dümbək oldu.
Kifir Daylaq,
Kifir Daylaq,
Sağa-sola,
Atdı şıllaq.

Ana kəhər
Bərk kişnəyir:
─Gəl, yanımda
Oyna, deyir.
Quyruq dümbək,
Boyun keçəl.
Ay Daylaq, gəl...
Ay Daylaq, gəl...
Yazıq ana,
Kəhər ana.
Çox heyrətlə
Baxdı, baxdı,
Daylağına.
Bu özünün
Balasımı?
O da belə
Olasımı?
Öz-özünə
Söydü ana,
Baş gözünə
Döydü ana.
Kişnəyərək
Dedi: ─Bala,
Günahın nə
İdi, bala?

Kim səni bu
Hala saldı?
Balam yaman
Günə qaldı.
Kifir Daylaq,
Kifir Daylaq,
Sağa, sola,
Atdı şıllaq,
Dedi: ─Ana
Mən gözələm.
İstədim ki.
Daha da çox.
Xoşa gələm
Mən ki, pis iş
Görməmişəm
Zır-zımığa
Girməmişəm
Söylə, ana,
Bəs niyə sən
Mənə baxıb
Hirslənirsən?
Kəhər dedi:
─Sənə görə
Xəcalətdən
Az qalıram.
Yerə girəm.
Həm keçəlsən,
Həm də dümbək,
Ağlın dayaz,
Ağlın gödək.
Səhvin, suçun,
Çoxdu sənin,
Niyə ağlın
Yoxdu sənin?
Axmaq Qoduq

Tellərini
Qırxdı sənin
Heç ağılın:
Yoxdu sənin.
Quyruğunu
Kəsdi sənin
İşin tamam
Nəsdi sənin
Pisdi sənin.
Kifir Daylaq,
Kifir Daylaq,
Sağa, sola
Atdı şıllaq.

Qaçıb gölə
Baxdı Daylaq.
Öz əksindən
Qorxdu Daylaq.
Huyuxdu O,
Karıxdı O
Geri durdu,
Darıxdı O,
Keçəl daylaq
Keçəl Daylaq.
Sağa-sola
Atdı şıllaq.
Həm Daylaqlar
Həm Qoduqlar
Bu daylağı
Görən kimi
Cırnadılar.
“Keçəl” deyib,
“Dümbək” deyib
Söz atırlar.
Yanlarından

Qovub onu
“vız” atırlar,
Bərk pisikir,
Kifir daylaq.
Sağa, sola
Atmır şıllaq.
Düşünür ki,
Bilməliydim
İşimi mən.
Qoymayaydım
Başımı mən.
Kələkbazın
Qabağına,
Neyləmişdim
Axı Ona?
Bir dayansın,
Öz yerini
Bildirərəm.
Şıllaqlayıb
Pis Qoduğu
Öldürərəm
Ana Kəhər
Kişnədi bərk.
Dedi: Bala,
Dayan görək.
Bilirsən nə
Etməliyik?
Buranı tərk
Etməliyik.
Gözəl idin.
Qəşəng idin.
Necə oldu.
O Qoduğa
Sən rast gəldin?
Daha durma,

Gedək, vaxtdı.
Bir qoduqca
Ağlın yoxdu.
Kifir Daylaq
Kifir Daylaq.
Sağa, sola
Atmır şıllaq.

XƏBƏRÇİ ÇİÇƏKLƏR

Xeyli uzanıb,
Kartof kolları
Çiçək gözləyir,
Beş pətək arı.
Bir-birlərinə
Qarışır onlar,
Ana arıdan
Soruşur onlar:
-gözləyəcəyik
Biz nə vaxtacan?
Çiçəkləyəcək,
Bu kollar haçan?
Əlini qoyur
Alnına arı.
Xeyli düşünür,
Bu ana arı:
Yetişməyibdi,
Hələ kartoflar.
“Fındıqlayıbdı”
Köklərdə onlar.
Haydı, daraşın
Siz “kəkotu”na,
“Yarpız”, “Qəfilotu”,
“Çörək” otuna.

Sanki, uçuşan
Arıar deyil.
Sarı saplardır
Vızıldaşaraq
Uçur elə bil.
Kartof kolları
Baxıb onlara
Mızıldanırlar:
-Sarıca saplar,
Qaçırsız hara?
Nə olar, qonun
Yarpaqlarımız
Üstdə yellənin.
Ya tək, ya dəstə-
Dəstə yellənin.
Arılar “vız”, “vız”
Vızıldaşdılar.
Vızıldaşdılar.
Dızıldaşdılar:
Heç xoşlamırıq
Biz yellənməyi.
Boş vaxt keçirib,
Veyillənməyi.
Yaşılca kollar,
Əl elədilər
Yarpaqlarını
Hey yellədilər...
“vız-vız” arılar
Uçub getdilər,
Nöqtəyə dönüb,
Gözdən itdilər.

***

Kartoflar kökdə
Torpağın altda
Yetişmişdilər.
Onlar böyüyüb

Çox şişmişdilər.
Yerin altdadır.
Necə çıxsınla
Üzə, bilmirəm.
Qaranlıqda heç
Dözə bilmirlər.
Özlərini də
Öyə bilmirlər.
Biz yetişmişik
Deyə bilmirlər.
Xırda kartoflar
Hingildəşdilər.
Zarafatlaşıb,
Dingildəşdilər.
Anaş kartoflar,
Yırğalandılar.
Dedilər:- burda
Nə çətin iş var
Kollarımıza
Işarə verək
“Xəbərçi” çiçək,
Görünsün gərək,
Açan zaman ağ,
Çəhrayı çiçək.
Hamı biləcək,
Hamı görəcək
Yetişmişik biz
Xəbər verəndir
Çiçəklərimiz
Ağ çiçəklərə
Büründü kollar.
Kartof kolu yox,
Çiçək kolu tək
Göründü kollar.
Onları qoyub,

Keçmir arılar.
Sarı “sap” olub
Uçmur arılar.
Qonur xəbərçi
Çiçəklər üstə.
Yellənir qəşəng
Ləçəklər üstə.
Bir xortum şirə
Çəkir hər arı
Uçub tez qaçır
Pətəyə sarı.
Gün batanadək
Işçi arılar.
Çox içlədilər,
Yorulmadılar .
Bir arı qorxub
Dedi: -bacılar.
Gözəl, xəbərçi,
Çiçəkələr ki, var
Birdən onlar da
Kartof olarlar
Yaşıl kolların
Üstə dolarlar.
Bəs onda görən
Neynəyərik biz?
Daha harada,
Açılıb çoxlu
Çiçəklərimiz?
Ana arı bu
Sözlərə güldü:
Qanadlarından
Ətir töküldü
-Nə danışırsan

Arıca balam.
Heç nə bilməyən,
Sarıca balam
Kolun üstündə
Kartofmu olar?
Onlar torpağın
Altında, kökdə
Yumurlanırlar
Uçub, qaçmayın,
Heç bir yerə siz.
Qonun “xəbərçi”
Çiçəklərə siz.
Burda hələ çox
Ətirli şirə
Çəkəcəksiniz.

MÜNDƏRİCAT

ÇİRİK ŞEİRLƏR
Başlama kitabım 3

Fələklə mən 4
Gülləm yan ötdü 4
Heyrətim ölüb 5
Dərdimə tutulmayacaq 6
Görk 6
Yuxum 7
Qayıdır ürəyimə 8
Qıçın sınmasın külək 8
Bir qəmli film 9
Belə 10
Ayrılıq 10
İzi itmədi 11
Dünyanın qarğışı 12
Ac 12
Deyiləm 14
Tək söyüd 14
Qırıq ney 15
Tapşır məni a tanrı 15
Könlüm 16
Lələk salmayacam 16
Məni dinlə 17
Yarımçıq kölgəm 17
Bir gözəlin şeiri 18
Gözəl ölüm 19
Kəsilib 20
Behəm hələ 20
Hələ bilmirəm 21
İtirmərəm 22
Yaşadır dünyanı 22
Bilmirəm 23
Son mərasim 23
Sən istəsən 24
Tarazlaşmır dünyam mənim 25
Salma məni bu sevdaya 25

Qınamıram 26
Bu istək 27
Ömrün sonunadək 27
İşləyir 27
A dənizim 28
Yozulmaram 28
Dünya şeytan dünyasıdı 29
Bəlkə özüm... 29
Sevgi dualarım qəbul olunmur 30
Sənli ümidim 31
Dənsiz dəyirmandı beynim 31
Adam başına iş gələr 31
Min eşq ilə 32
Bu hava sənin deyil 32
Aləmzərin bəxti 33
Mən səni itirə billəm 34
Tapmıram 35
Bağışlandıq 35
Yaxşı ki 36
Danışıram adımdan 36
Son çiçək 37
Günləri necə yaşadım 37
Lazımmı indi 38
Bir gün öldüm 38
Aşıq idi qapım 39
Hardan bildin? 39
Qəlbim qabağım yüyürəcəkmi 40
Gəl, sən də incimə 40
Əhd elədim 41
Bir ürək tutumu 41
Bəxtimizə düşən üzük 42

UŞAQ ŞEİRLƏRİ VƏ POEMALARI

Qağayılar və dəniz 44
Buza yazılan borc 44
Uzunqanad 49
Dələcə 55
İpək kombinatında 60
İpək dəsmal 61
Bacımın kitabı 62
Qar adamı 62
İdman dərsi 62
Bacım nə dadır? 63
Dürdanənin bibisi 63
Qonaqlar getdi 64
Dəyiş-düyüş 65
Sakit yer 65
Şəfəqin sırğaları 67
Popunun topu 68
Gözüm üşümür 69
Yoruldum 69
Aya qaçıb 70
Gün və mən 70
Qorxaq 71
Elmar 72
Məmişin şeirləri 72
Məmişin qazana girməsi 72
Məmişin kitabı 74
Noğul 74
Önlük 75
Yağış qoymur 76
Alma dərən 76
Çətir 76
Nağaramı deşərsən 77
Evcik 77
Şadlıq 78

Qızlar, qazlar 78
Zəncirotu 79
Quzumuz 79
Yeməkdə kömək 79
Oyun bilmir 80
Ellanın sevinci 80
Zarafat 81
Kaş küsməyəydim 81
Nənəmdən olsa 82
Göy görünmürdü 83
Oyuncaqlar 83
Mənzər 84
Telefon boyda 84
Hinduşka 85
Ətirli sandıq 85
Dadaşın dostu 86
Qonaq uşaq 86
Sənəm bacım 86
Nahaq küsü 87
Nənəm getsin 88
Zanbaqlar 88
Ona dəymə 88
Kəpənək uçdu 89
Kuklaların bağçası 90
Anası mənəm 90
Dörd söz 91
Mənim babam 91
Əlcəyimiz oynayar 92
Xəbərçilik etmirəm 92
Çəkmə geyən çay 93
“Gəmi”lər 93
Acı dərman 94
Koleydoskopun içi 94
Laləli divar 95

Yekə üskük 95
Küsənimiz olmadı 96
Babanın atı 96
Güllər solacaq 96
Kömək 97
Gözlərim yatır 98
Tələ 98
Bəbənin papağı 98
Görməmişəm 99
Nənəmin küpü 99
Ceyran 99
Tərişin konserti 100
Qaçdılar çəmənliyə 101
Pis uşaq deyiləm 102
Cücələr 103
Xanımın dişi 103
Nənəmin gəncliyi 104
Hara qaçır evimiz 104
Elmidar 106
Qış gəlsin 106
Dilotu 106
Fərman ağlamır 107
Natiq küsür 107
Keçiddən keç 108
Ay 108
Kəmər 108
Dava Davud 108
Pula satılmır 109
Göyün divarı 109
Qol, qol 110
Tezcə sağal 111
Mənə qalan 111
Balıq qulağı 112
Özü böyüsün 112

Başmaq 112
Qorxaq keçi 113
Un ələdi 113
Iydələr 113
Ağlağan qız 113
Acığa düşən çəkmə 114
Yatan dostlarım 114
Aşpazın qazanları 115
Dəcəl topum 115
Oynamaq bilsəydin 116
Nənəmin yoluna yağma 116
Ülviyyənin zəngi 117
Qarağat 117
Yuxum 117
Göyün altındayıq 117
Qərzəkli qoz 118
Babamla kürkü 118
Sərin külək 118
Mənim payım 119
Mənim maşınım deyil 119
Güllərə çaldı 120
Rövşən 121
Dadaşın dostu 121
Rəhim 121
Üzən top 121
Daralan çəkmələr 122
Təmiz qar 122
Xiyarın acığı 122
Danışan maşın 123
Hələ balacayam 123
Qağayılar kiçikdir 124
Hava soyudu 124
Bacın kim olacaqdı? 125
Donan hörömçək 125

Nigar 126
Qəşəng Sara 126
Qonşu oğlan 126
Çilli xoruz 127
Önlük 127
Qorxdu 127
Gözləri fanar 128
Tapmaca 128
Göydəkilərin göyü 128
Dənizi oxuyur 129
Balıq gəlməyən dəniz 129
Darıxmasın 129
Yelpik 130
Şirinini dər 130
Susuz balıqlar 130
Hara qonur 131
Dənizdə 131
Şən mələk 131
Hamının dostu 132
Səhvimi tutmayır 132
Yadımdan çıxdı 132
Yeriyə bilməsin 133
Vurulsam əvəzinə 133
Portdaq qarğıdalı 133
Iki süsən 134
Nənəmin yuxusu 134
Nazik paltar 134
Babam alıbdır 135
Meyvəsiz moruq 135
Kuklamın əvəzindən 136
Bəhs 136
Fışqırıq 137
Elə bilirdim 138
Əkizlər 139

Zəhranın zənbili 140
Nəsinin qozları 140
Qorxaq qardaş 141
Kim udar 141
Yelpəzi 142
Səyahət 144
Toya gecikən tülkü 152
Təriş göbələk yığır 155
Qalmıq-qulmuq 157
Nəğmə qapısı 160
Şəfəqi almaq olmaz 169
Ətirli kəpənək 176
Barışaram 176
Əsgərlikdən qayıdıb 176
Sərinkeş 177
Metro 177
Qardaşımı gözləyirəm 177
Gəzmək paltarı 178
Gedir günəşli yaya 178
Bikə 179
Ay kimində 179
Çiçək 179
Yadlarına düşməz 180
Üzüm 180
Qarmonlu avtobus 180
Xəyalpərəst Muraz 181
Ülviyyənin telləri 181
Təmizkar pişik 181
Xalxala girdi 182
Kəklik 182
Kirpilər 182
Dəcəl cücə 191
Zürafə 194
İtik tapan 196

Acı dil 201
Böyük konsert 204
Dovşan balası və kəpənək 205
Gecikmiş toxum 210
Dələ və şeşəqulaq 213
Pıç-pıç Nisə 216
Göldə çiçəklər 218
Çörək ətri 222
Mən küsmüşəm 224
Quzumun qozatı 224
Papağın başına 225
Yuxu 225
Bacılar 226
Uç-uç aparmasın 228
Bacım deyilsən? 228
Deyəcəm 229
Telefon soyuq deyil 230
Qızdırmam düşəcək 231
Dərsini bilməyən tonqal 232
Qurdların evi 233
Mən də ağlayıram 233
Boyum uzanıb 234
Məni gördümü? 234
Bircə dəfə 235
Necə yusun? 235
Ondan al 236
Qayçı görən iş 237
Üzüklər qoymur 238
Gözü “düymə” 239
Muştuluq istəyirəm 239
Qrip kimə keçsin 240
Gözlə, yatıram 240
Ərik 241
Papış alın 241

Daralan çəkmələr 242
Günəş üçün 242
Nərgiz 242
“Maşın”ı yedi 243
Yaxşı nənədi 243
“Qa-qa”dır salamları 244
Açarı axtarmır 244
Qonaqdı 245
Qapını bağla 245
İndi də sizə yağır 245
Kukla bacım 246
Qar dərirəm 246
Qorxudacaq 246
Bayram axşamı 247
Necə içər 247
Dolu ay 247
Yumaqlar 248
Gül oxuyuram 249
Mənim qolum 249
Qırmızı papaq 250
Küsən külək 250
Topumu atma 252
Zəncirotu 252
Üşüyərik 253
Gombul yekə 253
“Şirin oğlan” 255
Tikanların yuvası 255
Düzəldi işlər 256
Atlı lobya 257
Babam kim olar? 257
Sən kiriməsən 257
Özüm sürüm 258
Bircə əjdaha vardı 258
Günəşdən qorxan 259

Göydən düşən qız 259
Ramilin quzusu 260
Kötük yıxdı 260
Balıq ovu 260
Gülün meyvəsi 261
Göyün işığı 261
Dəcəl quzum, dəcəl pırtaq 262
Atım qabaqda 262
Oynamıram, uşaqlar 263
Uçağan cücü 263
Futbol oynadı 264
Cəzamı özüm verim 264
Qarğanın qozu 265
Gop aldı 265
Danışa bilmir 266
Bəhanə 266
Püstə 266
Səhərə qalsa 268
Bacımın yuxuları 268
Həkim yatıb 269
Saat yuva 270
Heç olmasa 270
Anamın yanındayam 271
Dələnin dişləri 271
Babamın ağacıdı 272
Mən də özümünəm 272
“Hop” elədi 274
Qarğa göndərsin 274
Yaddan çıxan 275
“Xoruz” samovar 276
Yıxılmayan beçə 276
İynədən qorxub 276
Xallı 277
Başını işlət 277

Bakı durur 278
Qorxuram ki? 278
Mən olmasaydım 279
Ayna və Sona 280
Özü düzəldir 280
Ayağı bitəcək 281
Divara dırmaşanlar 281
Əncir 282
Topum 282
Günəş düşürüm 282
Cırcırama 282
Yaxşı daraq 283
Necə göstərim? 283
Qucağımda gətirim? 287
Xallı cırcırama 288
Baş tülkü 291
Günahım özümdədir 298
Harda paxıl var 302
Rəngli quyruqlar 305
İki sahə 309
Bir ovuc taxıl 312
Çoxdu karandaşlarım 316
Özü bilməyən müəllim 317
Şir üzr istəmədi 318
Əlinin beli 322
Əmir 322
Yağış 323
Bacımın balıncı 323
Küsən güllər 324
Yelləncək 324
Mızıldanan qız 325
Vermərəm 325
Oyun 326
Yorulmaram 327

İşıqfor 327
Yaxşı oyunçu 327
Bahar 328
Duran qatar 328
Yağış kəsər 328
Tülkü 329
Ay 329
Qarqız 330
Şirin konfet 330
Şabalıd 331
Qurbağa 331
Göbələk 331
Qış axşamı 332
Sarmaşıq 332
Darıxmışam 333
Maraqlı nağıl 333
Şəfəq 333
Kökə 333
Qatarla gedirik 334
Nə deyim 334
Koppuş 334
Dənizdəki balıqlar 335
Oyuncaq telefon 335
Vaxtım qalmadı 336
Xalamın oğlu 336
Quzular 337
Telli 338
Əsgər olam 338
Soyuq 338
“Balaca göz” 339
Zərgül 340
Ulduzlar 340
Soyuq gəlməz 341
İlk məktub 341

“Pişi” 342
Rövşənin dişi 342
Qar üzə bilmir 342
Kukla boyda qız 343
Kəsdi ağrısı 343
Güllü 344
Cırtdanın kökü 348
Kim düz oxudu? 351
Şəkilli kitab 354
Yalan tutulan 357
Üç qoçaq 357
Ağaclar oyanması 366
Harda gizlənir 366
Üzüm 367
Göyçək xala 367
Daylaq 377
Xəbərçi çiçəklər 385

Redaktor: **Ənubər Qəzənfərli**
Korrektor: **Hüseynova Günel**
Kompüter: **Qəhramanova Günay**

Çapçı: **İlahə Şirinova**

«Fələk və mən», Aləmzar Əlizadə

«Əsgəroğlu» MMC Gəncə 2008. 389 səh.

«ƏSGƏROĞLU» nəşriyyat və poliqrafiya MMC-nin
Direktoru Ə.Ə.ZAHİDOV

Aləmzar Əlizadə
«Fələk və mən»

Yığılmağa verilmişdir: 02. 11 .2007
Çapa imzalanmışdır: 19. 02 .2008
Şərti çap vərəqi: 24.3
Sifariş: № 454
Tiraj: 100
Qiyməti: Müqavilə ilə

Kitab ***«ƏSGƏROĞLU» nəşriyyat və poliqrafiya MMC***-nin kompyüter şöbəsində yığılmış və çap edimişdir.

Ünvan: *Gəncə şəhəri, Atatürk prospekti; 254.*